Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev:

Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir.



YENİ FİKİR

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

NDU 1967

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ AZƏRBAYCANIN ƏN DƏYƏRLİ, QABAQCIL ALİ MƏKTƏBLƏRİNDƏN BİRİDİR.

TƏSİSÇİ: NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

9 aprel 2024-cü il, çərşənbə axşamı
№: 2 (58)
Qəzet 2011-ci ildən çıxır

Azərbaycanda ilk dəfə Naxçıvanda "Qərbi Azərbaycana qayıdış" festival-konqres keçirilib

Naxçıvan şəhərində "Qərbi Azərbaycana qayıdış" adlı festival- konqres baş tutub.

















Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Naxçıvan Dövlət Universiteti və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə keçirilən festival-konqresin iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə tər güllər düzüblər. Tədbir iştirakçıları Heydər Əliyev Muzeyi ilə də tanış olublar.

Sonra Naxçıvan Dövlət Milli Dram Teatrında "Qərbi Azərbaycana qayıdış" festivalı və "Qərbi Azərbaycana qayıdışa gedən yol" konqresinin açılış tədbiri keçirilib. Mərasimdə Qərbi Azərbaycana məxsus folklor nümunələrindən ibarət kompozisiya və videoçarx nümayiş etdirilib.

Festival-konqresin açılışı münasibətilə tədbir iştirakçılarını salamlayan Azərbaycan Respublikası Prezidentinin muxtar respublikadakı səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli bildirib ki, bu gün xalqımız öz tarixinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edib. Bunun ən mühüm səbəblərindən biri müzəffər Ali Baş Komandan cənab Ilham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə Azərbaycanın 30 illik işğala son qoyaraq ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etməsi oldu. 2023-cü il sentyabrın 19-20-də Qarabağda həyata keçirilən lokal xarakterli antiterror tədbirləri isə dövlətimizin suverenliyinin onun bütün ərazisində təmin olunması ilə nəticələndi. Tarixinin ən güclü dövrünü yaşayan Azərbaycanın bugünkü reallıqları Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının dirçəldilməsi və inkişafı ilə yanaşı, həm də Qərbi Azərbaycandan deportasiya olunmuş soydaşlarımızın hüquqlarının bərpası və Qərbi Azərbaycana qayıdışdır.

Vurğulanıb ki, 2022-ci il dekabrın 24-də Prezident İlham Əliyevin Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşü zamanı müəyyənləşdirdiyi tapşırıqlara uyğun olaraq, ölkəmizdə Qərbi Azərbaycana qayıdışla bağlı sistemli tədbirlərin keçirilməsinə başlanılıb, bu məqsədlə konsepsiya qəbul olunub. "Qərbi Azərbaycana qayıdış" festival-konqresi də bu tədbirlərin tərkib hissəsidir.

Fuad Nəcəfli çıxışını Prezident İlham Əliyevin "***Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar***" fikirləri ilə tamamlayıb.

Elm və təhsil naziri Emin Əmrullayev çıxış edərək bildirib ki, sovet hakimiyyətinin ilk illərində Qərbi Azərbaycanda 1922-23-cü illərdə 36, 1924-cü ildə 62, 1929-30-cu illərdə 112, 1931-ci ildə isə 245 Azərbaycan məktəbi fəaliyyət göstərib. 1981-1982-ci tədris ilində Qərbi Azərbaycanda 155 Azərbaycandilli məktəb, 1986-1987-ci tədris ilində isə 206 Azərbaycandilli məktəb fəaliyyət göstərib.

Vurğulanıb ki, Qərbi Azərbaycandakı Azərbaycan məktəblərinin məzunları arasından elmin müxtəlif sahələrini əhatə edən 10 akademik, akademiyanın 9 müxbir üzvü, 140 elmlər doktoru və 740 elmlər namizədi yetişib. Nazir ali təhsil proqramlarına Qərbi Azərbaycanın tarixi, mədəniyyəti, folkloru, toponimləri, İrəvan Müəllimlər Seminariyası ilə bağlı dərslərin, seçmə fənlərin daxil edilməsinin vacib olduğunu bildirib. Azərbaycanın elm, təhsil müəssisələrində Qərbi Azərbaycan tarixinin araşdırılması sahəsində ardıcıl, sistemli tədqiqatların aparılması və elmi əsərlərin yaradılması zərurətini qeyd edib.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev qeyd edib ki, Qərbi Azərbaycanla bağlı ədəbi-mədəni dəyərlər, folklor nümunələri, toponimika məlumatları və o yurd yerlərindəki tarixi-mədəni abidələr barədə məlumatların tədqiq olunması ziyalıların, elm adamlarının qarşısında duran mühüm vəzifələrdir.

Qərbi Azərbaycan İcması idarə heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli xatırladıb ki, 1987-1991-ci illərdə baş vermiş sonuncu deportasiya zamanı Qərbi Azərbaycandakı 170-dən çox kənddə ancaq azərbaycanlılar yaşamış, 90-a yaxın kənddə azərbaycanlılar əksəriyyət təşkil edib. Bütövlükdə 300-ə yaxın yaşayış məntəqəsində azərbaycanlı soydaşlarımız yaşayıbar.

Ardı 2-ci səhifədə

İnsan hüquqları üzrə müvəkkil (Ombudsman) Səbinə Əliyeva beynəlxalq təşkilatlara səslənərək Azərbaycana qarşı ədalətli mövqe göstərməyə, Qərbi azərbaycanlıların ləyaqətli və tam təhlükəsiz qayıdışına səssiz qalmamağa çağırıb.

Qərbi Azərbaycan İcması idarə heyətinin üzvü, ADPU-nun prorektoru professor Mahirə Hüseynova vurğulayıb ki, toponimləri və folklor nümunələrini öyrənməklə Qərbi Azərbaycan torpaqlarının tarixən Azərbaycan türklərinə məxsus olduğunu sübut etmək mümkündür. Alim qeyd edib ki, yüzlərlə bu xüsusda olan yer adlarını, tarixi faktları saxtalaşdırmaq heç nəyi dəyişmir. Çünki Azərbaycan xalqı yaşayır və öz tarixinə sahib çıxır.

Tədbir bədii hissə ilə davam edib.

***

Festival-konqres çərçivəsində "Araz" Dövlət Qəbul Evində Qərbi Azərbaycan kulinariyasının təqdimatı olub. Təqdimatda dövlət və ictimaiyyət xadimləri, media mənsubları iştirak ediblər.

Sərgidə İrəvan mətbəxinə aid 40 adda yemək, 50-yə yaxın şirniyyat və mürəbbə, 30-a yaxın şərbət, doşab, xoşab, 100-ə yaxın meyvə, quru meyvə və tərəvəz, 50-dən çox müalicəvi bitki, 20 adda qış tədarükü qidası, 13 növdə müxtəlif çay nümunələri nümayiş etdirilib. Naxçıvan Dövlət Universitetinin tələbələri Qərbi Azərbaycan ənənələri əsasında hazırladıqları səhnəcikləri təqdim ediblər.

Sonra Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında öz işini davam etdirən festival-konqresdə Qərbi Azərbaycana həsr edilən sərgiyə baxış olub. Sərgidə bu əzəli yurd yerimizə aid ədəbiyyat nümunələri, elmi araşdırmalar, məqalələr toplusu, rəsm əsərləri nümayiş etdirilib.














"Qərbi Azərbaycana qayıdış" festival-konqresin ikinci günü



Naxçıvanda keçirilən "Qərbi Azərbaycana qayıdışa gedən yol" festival-konqresinin ikinci günü mövzu ilə bağlı məruzələr dinlənilib, sənədli filmlər nümayiş olunub. İştirakçılar Ordubad və Kəngərli rayonlarında məskunlaşmış Qərbi azərbaycanlılarla görüşüb, qaçqın soydaşlarımızla doğma yurda qayıdışa hazırlıqla bağlı söhbətlər aparıblar.





Festival-konqres çərçivəsində Naxçıvan Dövlət Universitetində müxtəlif bölmələrdə "Qərbi Azərbaycan: tarix, həqiqətlər və faktlar", "Qərbi Azərbaycanın mədəni sərvətləri", "Qərbi Azərbaycan dil faktları və toponimikası" və "Qərbi Azərbaycana qayıdışın hüquqi aspektləri" mövzularında məruzələr dinlənilib, geniş müzakirələr aparılıb.

Naxçıvan şəhərindəki "Gənclik" mərkəzində isə "Müasir yaradıcılığa dəstək" İctimai Birliyinin hazırladığı "Yada daşı" sənədli filmi nümayiş olunub. Qonaqlarla yanaşı, Qərbi Azərbaycan İcmasının üzvləri, müəllim və tələbələr qədim türk torpağı olan Zəngəzurda dağıdılmış tarixi abidələrimizdən və vətənsiz qalmış soydaşlarımızın acı taleyindən bəhs edən ekran əsərinə maraqla baxıb, fikir mübadiləsi aparıblar.

"Gənclik" Mərkəzində nümayiş etdirilən ikinci film – "Nəsil ağacı"nda bir neçə ailənin faciəli taleyinin timsalında hazırlanan videolent Qərbi Azərbaycanın qədim tarixi, etnoqrafiyası, mətbəxi, tanınmış şəxsiyyətləri və soydaşlarımızın bu yerlərdən deportasiyası üzərində qurulub. İştirakçılar bu ekran işini də böyük maraqla izləyib yüksək qiymətləndiriblər.

Festival-konqresin qonaqları Ordubad rayonuna səfər çərçivəsində rayonun Parağa kəndində yaşayan Qərbi azərbaycanlılarla görüşüblər. Sərgilənən Qərbi Azərbaycana məxsus folklor nümunələri, mədəniyyət və mətbəx nümunələri iştirakçılarda köçkün soydaşlarımızın yurd sevgiləri və Vətən həsrətləri barədə geniş təsəvvür yaradıb. Konsert proqramı görüşə yüksək vətənpərvərlik əhvalı gətirib.

Festival-konqresin iştirakçıları Kəngərli rayonunun Çalxanqala kəndində deportasiyaya məruz qalmış soydaşlarımızla da sıx təmasda olub, onlara tezliklə doğma yerlərə dönmələrini arzu ediblər. Çalxanqala kənd mərkəzində Qərbi azərbaycanlılara məxsus müxtəlif məişət əşyaları, mətbəx nümunələrindən ibarət sərgi hamını dərindən təsirləndirərək zəngin etnoqrafik mədəniyyətimizlə bağlı yüksək təəssürat yaradıb.

Görüşdə Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov, Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli, Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin üzvü, ADPU-nun prorektoru, professor Mahirə Hüseynova və digər çıxış edənlər doğma torpaqlarından deportasiya olunan soydaşlarımızın tezliklə öz yurdlarına qayıdacaqlarına əminlik ifadə edib, Naxçıvanda keçirilən festival-konqresin və müxtəlif görüşlərin qayıdış missiyasına önəmli dəstək olduğunu söyləyiblər.







Qaçqın aşıqların saz ifaları və müxtəlif musiqi nömrələri yurd həsrətinin ağrı-acısını hamıya dərindən hiss etdirib.

Festival-konqres nikbin notlarla – əzəli, əbədi yurd yerlərimizə qayıdışımıza olan böyük inam hissi ilə başa çatıb.

“QƏRBİ AZƏRBAYCANA QAYIDIŞ” FESTİVAL-KONQRESİ ÇƏRÇİVƏSİNDƏ NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNDƏ KEÇİRİLMİŞ TƏDBİRLƏRİN İCMALI



İncəsənət fakültəsinin müəllimləri və “Dizayn” ixtisası üzrə təhsil alan tələbələrin Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, tanınmış modelyer-rəssam Fəxriyyə Xələfova ilə görüşü təşkil edilib. Universitetin rektoru Elbrus İsayev qeyd edib ki, “Qərbi Azərbaycana qayıdış” festivalı və “Qərbi Azərbaycana qayıdışa gedən yol” konqresi çərçivəsində keçirilən kitab təqdimatları, ustad dərsləri, filmlər və konqres çərçivəsində təqdim olunan elmi çıxışlar ictimaiyyət üçün öz müsbət töhfələriylə yadda qaldı. İlk dəfədir ki, Naxçıvanda bu cür sərgisi təşkil olunan Fəxriyyə Xələfova da festivala “Milli ornamentlərin harmoniyası” adlı kolleksiya ilə qatılıb.

Rektor keçirilən görüşün “Dizayn” ixtisası üzrə təhsil alan tələbələr üçün mühüm əhəmiyyətə malik olduğunu diqqətə çatdırıb.




İdeya müəllifi, Əməkdar incəsənət xadimi Fəxriyə Xələfova, ssenari müəllifi folklorşünas-alim Fəridə Hicran Vəliyeva olan “Xan qızı Xurşidbanu Bəyim Natəvan” adlı sənədli film nümayiş olunub.

Qeyd edək ki, məşhur Xələfbəyovlar nəslindən olan Fəxriyə Xələfova Bakıda ziyalı ailəsində anadan olub. Fəxriyə Xələfova eyni zamanda Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində Modelləşdirmə kafedrasının dosenti, “Fakhriya Khalafova” moda evinin təsisçisidir.

Rektor “Qərbi Azərbaycana qayıdış” festivalı və “Qərbi Azərbaycana qayıdışa gedən yol” konqresində iştirakına görə Fəxriyyə xanıma sertifikat təqdim edib. Rəngkarlıq ixtisası üzrə II kurs tələbəsi Ülviyyə Qəhrəmanova çəkdiyi rəsm əsərini Fəxriyə Xələfovaya hədiyyə edib.

***



“Qərbi Azərbaycana qayıdış” konqresinin Hüquq bölməsinin iclasında təkliflər irəli sürülüb.

“Qərbi Azərbaycana qayıdış” festival-konqresin Hüquq bölməsində Azərbaycan Respublikası Vəkillər Kollegiyası tərəfindən irəli sürülmüş “Qərbi Azərbaycandan deportasiya edilmiş azərbaycanlıların pozulmuş hüquqları haqqında Kompleks Beynəlxalq Hesabat”ın hazırlanması təklifi müzakirə edilərək dəstəklənib.

Azərbaycan hüquq cəmiyyətinə müraciət edilərək bu layihəyə dəstək verilməsi zəruri hesab edilib.



Konqres 4 bölmə – “A”, “B”, “C”, “D” bölmələri üzrə öz işini davam etdirmişdir. “C” bölməsi üzrə “Qərbi Azərbaycanın dil faktları və toponimikası” mövzusunda professor Sədaəqət Həsənovanın moderatorluğu ilə tanınmış şair-filoloq Xanəli Kərimlinin məruzəsi dinlənilib.

“Qərbi Azərbaycana qayıdış” festival-konqresin ustad dərsləri də təşkil olunub.



Bakı Dövlət Universitetinin professoru, Vəkillər Kollegiyasının üzvü, hüquq elmləri doktoru Mayis Əliyev hüquqşünaslıq ixtisasının tələbələri üçün “Əmək mübahisələrinə baxılmasının məhkəmə təcrübəsi” mövzusunda mühazirə deyib.

***

Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında ADPU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, professor Mahirə Hüseynovanın “Qərbi Azərbaycan paleotoponimlərinin linq-



vistik etimoloji təhlili”, filologiya üzrə fəlsəfə doktoru, dosent Könül Həsənova və pedaqogika üzrə fəlsəfə doktoru, dosent Nazilə Abdullazadənin müəllifi olduqları “Zəkanın və milli yaddaşın təntənəsi” kitablarının təqdimatı keçirilib.



Təqdimatda çıxış edən universitetin rektoru Elbrus İsayev qeyd edib ki, Ümummilli Liderimiz Heydər Əliyevin, ölkə başçımız cənab İlham Əliyevin də hər zaman diqqət mərkəzində saxladığı Qərbi Azərbaycan mövzusu günümüzün böyük aktuallıq kəsb edən məsələsidir. Dövlətimizin siyasi xəttinin dəstəkçiləri olan ziyalılarımızın, alimlərimizin də fəaliyyətində bu motivlər hər zaman öz əksini tapıb. Rektor “Qərbi Azərbaycana qayıdış” festivalı, “Qərbi Azərbaycana qayıdışa gedən yol” konqresinin fəxri qonağı olaraq Mahirə Hüseynovanın Qərbi Azərbaycan mövzusuna nə qədər həssaslıqla yanaşdığını diqqətə çəkib.

Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında “Qərbi Azərbaycana qayıdışa gedən yol” konqresi çərçivəsində Azərbaycan Milli Elmlər Akademiyası Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutu kollektivinin Qərbi Azərbaycan tarixindən bəhs edən əsərlərinin təqdimatı olub.

Universitetin Tədris və tərbiyə işləri üzrə prorektoru, dosent Rafiq Rəhimov qonaqları salamlayaraq onları universitetdə görməkdən məmnunluq duyduğunu dilə gətirib və ali təhsil ocağında Qərbi Azərbaycana həsr edilən konqresdə Qərbi Azərbaycan tarixini özündə əks etdirən kitabların təq-



dimatının keçirilməsinin önəmindən danışıb.

Çıxış edənlər təqdimatı keçirilən kitabların elmi və tarixi əhəmiyyətindən bəhs edərək Azərbaycanın qədim torpaqlarının tarixi, etnoqrafiyası, botanikası, toponomikası və digər sahələrinin araşdırılması və öyrənilməsində bu kitabların xüsusi önəmə malik olduğunu vurğulayıblar.

Sonda kitabın müəlliflərindən tarix üzrə fəlsəfə doktoru, dosent Hacı Həsənov, tarix üzrə fəlsəfə doktoru Mübariz Ağalarlı, filologiya üzrə fəlsəfə doktoru Aygün Bağırova, tarix üzrə fəlsəfə doktoru Cəbi Bəhramov çıxış edərək, öz ürək sözlərini dilə gətirib, göstərilən diqqətə görə minnətdarlıqlarını bildiriblər.

NDU Elmi Kitabxanasında “Qərbi Azərbaycana qayıdışa gedən yol” konqresi çərçivəsində Naxçıvan Müəllimlər İnstitutunun professoru Yusif Səfərovun “Aşıq yaradıcılığında Qərbi Azərbaycan” kitabının da təqdimatı keçirilib.

Universitetin Elmi katibi Orxan Cəfərov Qərbi Azər-



baycanla bağlı yazılan kitabların mahiyyəti haqqında tədbir iştirakçılarına məlumat verib

Elmi Kitabxananın direktoru Xumar Məmmədova təqdimatı keçirilən monoqrafiyada Qərbi Azərbaycan ərazisində ən qədim dövrlərdən başlayaraq türk etnik-mədəni proseslərin izlənildiyini iştirakçıların diqqətinə çatdırıb. Bildirilib ki, kitabda Qərbi Azərbaycan və Şərqi Anadoluda qədim Oğuz-türk soylarının ibtidai icma dövründən məskunlaşdığı öz əksini tapıb.

Filologiya üzrə fəlsəfə doktoru, dosent Arifə Zeynalova bildirib ki, monoqrafiyanın əsasını təşkil edən I və II fəsillərdə Qərbi Azərbaycanın qədim, orta və XIX-XX əsrlərdəki zəngin ozan-aşıq sənətinin qəhrəmanlıq, məhəbbət dastanları, aşıq rəvayətləri və yaradıcılığı tədqiq edilib.

Sonda kitabın müəllifi, filologiya elmləri doktoru, professor Yusif Səfərov bu cür festival-konqresdə kitabının təq-



dimat mərasiminin keçirilməsinə və göstərilən diqqətə görə minnətdarlığını ifadə edib.

Qeyd edək ki, tədbirdə “Qərbi Azərbaycan: elmi tədqiqatlar” adlı sərgi də nümayiş olunub.

Səadət ƏLİYEVA
Məmmədbağır DÜNYAMALIYEV







Festival-konqres iştirakçıları: “Qərbi Azərbaycana qayıdış tarixi ədalətin bərpası deməkdir”

Türkiyənin Qazi Universitetinin rektoru professor Musa Yıldız:

Festival-konqres zamanı bu fikir bir daha təsdiqləndi ki, Qərbi Azərbaycan əzəli Azərbaycan torpağıdır, bu torpaqların sakinləri gec-tez öz yurd-yuvalarına geri qayıdacaqlar. Bu, onların halal haqqıdır. Azərbaycan Prezidenti güclü liderdir. O, verdiyi sözlərə sadiqdir. Qərbi Azərbaycana qayıdış konsepsiyanı müəyyən edibsə, deməli, ən başlıca özü bu ideyanın reallaşacağına inanır.



Fürsətdən istifadə edərək qeyd etmək istəyirəm ki, Qazi Universiteti ilə Naxçıvan Dövlət Universiteti arasında çox möhkəm əlaqələr mövcuddur. Ümid edirəm ki, gələcəkdə Qərbi Azərbaycanda azərbaycanlıların yaradacağı universitetlərlə də qarşılıqlı əlaqələr quraraq, həmin ali təhsil ocaqlarında da bu cür tədbirlərdə məmnuniyyətlə iştirak edərik.

***

Türkiyənin Qars Qafqaz Universitetinin rektoru Hüsnü Kapu:

2023-cü il həm Azərbaycan, həm də Türkiyə üçün çox özəl bir il oldu. Belə ki, Türkiyə Cümhuriyyətinin 100-cü ilini, həm də ümummilli lider Heydər Əliyevin 100-cü ildönümünü bayram etdik. Bu iki əlamətdar tarixi günləri həm Naxçıvandan, həm də Azərbaycandan gələn dostlarla birlikdə qeyd etdik, müxtəlif tədbirlər keçirdik. Mən burada Cümhuriyyətimizin qurucusu Mustafa Kamal Atatürklə, ümummilli lider Heydər Əliyevin dövlət quruculuğu prosesində ortaq xüsusiyyətlərə malik olmağını qeyd etmək istəyirəm. Bu gün Azərbaycan artıq müqəddaratını təyin etmiş qalib ölkə kimi öz haqlarına, torpaqlarına sahib çıxıb.



Qərbi Azərbaycana qayıdış festival-konqresi Azərbaycanın qədim tarixini yenidən nəzərdən keçirmək və inkişaf etdirmək üçündür. Mən əminəm ki, bundan sonrakı zaman ərzində davam edən “Bir millət, iki dövlət” şüarımız bütün dünyaya bir nümunə, örnək olacaq. Bütün məsələlərdə olduğu kimi, Qərbi Azərbaycana qayıdış konsepsiyasının uğurla reallaşması işində qardaş ölkəmizin yanındayıq, haqq işini dəstəkləyirik.

***

Hacəttəpə Universitetinin rektoru, professor Mehmet Cahit Güran:

Qərbi Azərbaycan torpaqları yüz illər boyunca azərbaycanlıların yaşadığı ərazilər olub. Ermənistan tərəfindən zaman-zaman aparılan deportasiya siyasəti azərbaycanlıları öz torpaqlarından didərgin salıb, hüquqları tapdalanır. Bu gün “İki dövlət, bir millət, tək yumruq” müstəvisində bölgədə yeni bir güc yaranıb. Bu güc Qarabağ zəfərinə qovuşdurdu. Əminik ki, yeni reallıqlar Qərbi azərbaycanlı soydaşlarımızın da hüququnu bərpa edəcək, onlar öz doğma yurdlarına dönəcəklər.



***

Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədova:

Mən də öz növbəmdə bu konqresin işinə uğurlar arzulayıram. Konqresin təşkilatçılarına, festival təşkilatçılarına təşəkkür edirəm. Arzu edirəm ki, belə tədbirlər ölkəmizdə daha çox keçirilsin və biz Qərbi Azərbaycan barədə həqiqətləri həm özümüzə, həm xalqımıza, həm dünyaya çatdıra bilək. Mən hesab edirəm ki, bu konqres festival həyata keçirilən ən uğurlu işlərdən biridir. Cənab Prezident Qərbi Azərbaycan İcmasının inzibati binasının açılışında öz çıxışında bu məsələni də vurğuladı. O dedi ki, bu torpaqlarımızda olan mədəni irs barədə məlumatları yaymaq üçün çox şey etməliyik. Biz ora qayıdacağıq. Biz dağıdılmış kəndlərimizi, şəhərlərimizi, abidələrimizi bərpa edəcəyik.




Mən düşünürəm ki, bizim qarşımızda duran çoxsaylı məsələlərdən biri Qərbi Azərbaycana qayıdışla bağlı Qərbi Azərbaycan mədəni irsinin, xüsusilə də tarixi memarlıq irsinin heç olmasa virtual şəkildə tanınması, üzə çıxarılması, öyrənilməsi və təqdim edilməsidir.

***

Qərbi Azərbaycan İcmasının Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı, akademik Əhliman Əmiraslanov:


Prezident İlham Əliyevin dəstəyi ilə Qərbi Azərbaycan İcmasının yaradılması Qarabağ Zəfərindən sonra mühüm mərhələ təşkil edir. İcmanın ötən dövrdəki fəaliyyəti, verilən bəyanatlar, görülən tədbirlər Qərbi azərbaycanlıların ləyaqətli və təhlükəsiz şəkildə yurduna qayıtmasına böyük hüquqi və təşkilati dəstək kimi diqqətəlayiqdir.



***

AMEA-nın müxbir üzvü, Qərbi Azərbaycan İcmasının Müşahidə Şurasının sədri Misir Mərdanov:

“Bu gün yaşadığımız qürurlu və sevincli günləri görmək üçün xalqımız 200 ildir ki, yaşadı, yaratdı, zəngin adət-ənənələrini qoruyub saxladı. Vətən müharibəsindəki parlaq qələbəmiz sayəsində bu günləri görmək bizə nəsib oldu. Bu formatda ilk tədbirin məhz Naxçıvanda keçirilməsi təsadüfi deyil. Ulu Öndərimiz Heydər Əliyev başda olmaqla Azərbaycana böyük şəxsiyyətlər bəxş edən Naxçıvan həm də həmin çətin günlərdə Qərbi azərbaycanlı soydaşlarımıza qucaq açıb. Təsadüfi deyil ki, deportasiyaya uğrayan Qərbi azərbaycanlıların böyük əksəriyyəti Naxçıvanda məskunlaşıb”.



***

Qərbi Azərbaycan İcmasının Ağsaqqallar Şurasının üzvü Abel Məhərrəmov:

Universitetlər həmişə çox maraqlı konfranslar keçirir. Ancaq mən ilk dəfədir ki, festival-konqres vəhdətində keçirilən belə bir məhsuldar tədbirin şahidi oluram. Qərbi Azərbaycana qayıdış konsepsiyası yol xəritəsi üzrə artıq neçə vaxtdır fəaliyyətdədir. Ancaq mən hesab edirəm ki, bu festival-konqres ən vaciblərindən biri oldu. Çünki belə bir tədbirin bu regionda keçirilməsinin böyük əhəmiyyəti var və tarixi bir hadisədir.

Dünyada 6000-ə qədər millət və xalq var. Buna etnos da demək olar. Ona görə ki, ermənilər o 6000-in içində olublar. Yeganə olaraq bu bədnam qonşular bizim Qərbi Azərbyacan torpaqları hesabına özlərinə dövlət qurublar. Hökuməti qurmaq üçün, Ermənistan adlandırmaq üçün gərək əhalinin sayı, ermənilərin sayı azərbaycanlılardan çox olsun, torpaq olsun. Nə torpaq var, nə də erməni sayı dövlət qurmağa icazə verir. Əvvəl ilk yarananda 9000 kvadrat kilometr torpağı aldılar və başladılar deportasiyaya. Mən iki deportasiyanın iştirakçısı olmuşam, yəni bizim öz başımıza gəlib. 1905-1918-ci illərdə edilən deportasiyaları atam, anam, babam, nənəm mənə ətraflı danışıb ki, bu hadisələr necə olub, bizə çox zülm veriblər və beləliklə də bu deportasiya yoluyla azərbaycanlıları tarixi torpaqlarından çıxarıblar.



İndi hər bir dövlətin inkişaf tarixində müəyyən ziqzaqlar olur. Azərbaycan xalqının tarixində də olub. Torpaqlarımızın bir hissəsi sağa, bir hissəsi sola gedib. Əgər ümummilli liderimiz xalqın tələbi ilə Naxçıvana gəlməsəydi, bizim bugünkü günümüz yox idi. Xalq o vaxt daha xoşbəxt olur ki, ümumilli liderin siyasi kursu ölkədə xalq-prezident birliyi ilə çox uğurla aparılır. Bu gün biz o tənənəyə yığışmışıq.

Prezident-Xalq Birliyi imkan verir ki, Qarabağı alandan sonra, 44 günlük müharibədən sonra, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə digər istək və arzularımızı da həyata keçirə bilək.

Mən sistematik olaraq ermənilərin çıxışlarına, onların ideoloji təbliğatlarına qulaq asıram.Qərbi Azərbaycana qayıdış konsepsiyasının müəyyən edilməsi onlarda dərin narahatlıq və təşviş yaradıb. Amma onlar unudurlar ki, biz ata-baba yurdumuza qayıtmaq üçün sülh yolunu seçmişik. Möhtərəm Prezidentimiz demişkən, biz ora tankla, topla yox, öz maşınlarımızla, öz ayaqlarımızla gedəcəyik. Bəs necə gedəcəyik? Gələcəyik təbii ki, Naxçıvana. İlk addım buradan olacaq. Dərələyəzdən başlayaraq, Meğri, Yuxarı Sədərək, ardınca rayonlarla yavaşyavaş Göyçə mahalı, İrəvan sonra da mənim doğulduğum Ağbaba mahalına gedəcəyik. Mən buna tam əminəm.

***

Qərbi Azərbaycan İcmasının Nəzarət-Təftiş Komissiyasının sədri Vahid Novruzov :

Türk dünyasının böyük öndəri Mustafa Kamal Atatürkün bir sözünü nəzərinizə çatdırmaq istərdim. “Ümidsiz vəziyyət yoxdur, ümidsiz insanlar vardır. Mən heç bir zaman ümidimi itirmədim”. Məhz bizim də ümidimiz möhtərəm Prezidentimizin Azərbaycan xalqını öz ətrafında birləşdirməsidir. Biz artıq Qərbi Azərbaycana qayıdışın astanasındayıq və bu istiqamətdə hər birimiz təbii ki, öz işimizi həyata keçiririk.



Möhtərəm Prezidentimiz, heç vaxt seçkiləri yox, Azərbaycan xalqının gələcəyini fikirləşmişlər və ona görə də biz bu gün qonşularımızla münasibətdə çox yüksək nəticələrə nail olmuşuq. Mən əminəm ki, vaxtı ikən bizim üçün xəyal kimi görünən Qarabağın azad olunması ideyasının necə şahidi olduqsa, Qərbi Azərbaycana qayıdışın da şahidi olacağıq, Qərbi Azərbaycan vətəndaşları öz dədə-baba yurdlarını ziyarət edəcək, orada yaşamaq hüququ əldə edəcəklər.

Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun prezidenti, professor Aygün Attar:

Əvvəlcə bu möhtəşəm tədbirin keçirilməsində əməyi olan hər kəsə dərin minnətdarlığımı bildirirəm. Qərbi Azərbaycan mədəniyyətini ən gözəl şəkildə təmsil edən, hər kəsi duyğulandıran, elmin belə deyə bilmədiyini, İrəvanın, Göyçənin, Zəngəzurun gözəlliklərini, özəlliklərini dilə gətirən şeirlərin, mahnıların yer aldığı proqram hər kəsi duyğulandırdı. Festival-konqres olduqca möhtəşəm təşkil olunmuşdur.



Tam 20 il bundan əvvəl “Zəngəzur necə ermənilərin oldu?” deyə bir monoqrafiyam çapdan çıxmışdı. Onda Misir müəllim təhsil naziri işləyirdi, hətta mənə bu nəşr üçün təşəkkür etmək üçün zəng etmişdi. Bu konqresə gələndə baxdım ki, 18 il bundan əvvəl də “Ermənistandan azərbaycanlıların deportasiyası” adlı monoqrafiya yayımlanmışdı.1948-1953-cü illər arasında rəsmi arxiv məlumatlarına görə 150 min insan köçürüldü. Abel müəllimi və ailəsini də o zaman deportasiya etdilər, amma sonradan geri çağırdılar. Abel müəllimin valideynlərinin geriyə dəvət olunmasının səbəbi bu idi ki, artıq İrəvanda savadlı, qabiliyyətli insanların sayı azaldı, ona görə də məcbur qalıb geriyə qaytardılar. Amma sonradan yenidən deportasiya etdilər.

1943-cü ildə Arazın o tayında – Tehranda Molotov, Stalin və Ruzvelt ikinci cəbhə məqsədilə bir araya gəldilər. İkinci cəbhənin açılmasının əsas mövzularından biri Ermənistandakı azərbaycanlıların deportasiya olunması idi. İkinci Dünya müharibəsində Daşnaksütun partiyasının Ruzvelt və Çörçilə təsiri nəticəsində Stalinin razılığı ilə azərbaycanlılarla bağlı qərar verilir. 1943-cü ildə xaricdən olan ermənilər Azərbaycana köçürülür. Arxiv sənədlərini oxuduğum zaman çarəsizlikdən tökdüyüm göz yaşlarını xatırlayıram. 1948-ci ildən sonra 1951-ci ildə əlavə qərar verilir və bu qərara görə Ermənistanda yaşayan azərbaycanlılar evlərini, torpaqlarını, ocaqlarını buraxaraq, çox ağır şərtlərlə Azərbaycana köçürülürlər.

Qərarda köçürülmənin “könüllülük” prinsipləri əsasında aparılması qeyd olunsa da köçürülmə məcburiyyət prinsipləri ilə həyata keçirilmişdir. Sənədlər göstərir ki, azərbaycanlı əhali Ermənistanın dövlət və hüquq mühafizə orqanlarının təzyiqi altında köçürməyə məcbur edilirdi. Belə bir vəziyyətdə Mərkəzi hökumətdən və Azərbaycan rəhbərliyindən umduqları köməyi görə bilməyən azərbaycanlı əhali məcburi bir vəziyyətdə Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürdülər. Kimsəsiz qalmış on minlərlə azərbaycanlı əhalinin beləcə ağır vəziyyətdə köç etməsi zavallı insanların başına faciələr gətirdi. “Könüllü” köçürülmə pərdəsi altında köçürülən azərbaycanlı əhali Kür-Araz ovalığında ağır mərhumiyyətlərə və məşəqqətlərə məruz qaldılar, köçürüldükləri yerin iqlim şəraitinə uyğunlaşa bilmədilər. Köçkünlərə göstərilən tibbi xidmət aşağı olduğundan onlar arasında xəstəliklər artdı, hətta ölüm hadisələri baş verdi. Nəticədə köçkün azərbaycanlı əhali əsl soyqırıma məruz qaldı.

Xalq artisti Nurəddin Mehdixanlı:

Qərbi Azərbaycana qayıdışla bağlı keçirilən festival-konqresin təşkilatçılarının təhsil işçiləri olması, universitet olması və Naxçıvan Dövlət Universiteti olması çox xüsusi önəmli hadisədir. Yəni biz artıq taleyimizə, tariximizə, sözlə yox, nağıllarla yox, elmi şəkildə yanaşırıq. Kimik, haradan gəlmişik, məramımız, məqsədimiz nədir? Yerimiz-yurdumuz haradır? 25-30 kilometr o tərəf də Azərbaycandır. Biz, əslində bəlkə də yeganə respublikayıq ki, öz torpaqlarımızla həmsərhədik.



Naxçıvan həmişə azərbaycançılıq məfkurəsinin, türk məfkurəsinin, dövlətçilik məfkurəsinin ocağı olub. XII əsr Atabəylər dövrünə baxın. Dünyaya hökm edən Atabəylər dövləti. İndi tarix təkrar olunur. Təbiətdə qabarma çəkilmə var. Millətlərin taleyində də o var. İndi Türkün şahə qalxan vaxtıdır. Bütün sahələrdə - elmdə, mədəniyyətdə, hərbdə. Amma bizim bütün fəaliyyətimiz əxlaqa, insanlığa söykənən fəaliyyətdir. Biz kimsənin heç nəyinə sahib çıxmaq iddiasında deyilik. Amma bizim olanları da kimsəyə vermək fikrində deyilik. Mən düşünürəm ki, Azərbaycanın hədəfləri, Azərbaycan xalqının hədəfləri, burada – Naxçıvanda çox açıq şəkildə ortaya qoyuldu. Hələ Azərbaycanın üçrəngli bayrağının dalğalanacağı çox zirvələr var. Naxçıvanda bu tədbirin baş tutması əslində çox ciddi mesajdır. Biz varıq və biz gəlirik, Vətənimizə qayıdırıq.

Biz kimsənin torpağına iddialı deyilik. Amma tarix yavaş-yavaş hər şeyi yerinə qoyur. İstəyirəm ki, hər bir azərbaycanlı həqiqi mənada fəxr eləsin ki, böyük bir millətin övladıdır. Allah millətimizi var eləsin!.

NAXÇIVANDA KEÇİRİLMİŞ FESTİVAL-KONQRES QƏRBİ AZƏRBAYCANA QAYIDIŞ KONSEPSİYASINA MÜHÜM TÖHFƏDİR

Naxçıvan Dövlət Universitetinin təşəbbüsü ilə "Qərbi Azərbaycana qayıdış" festival-konqresin keçirilməsində əsas məqsəd tarixi ədalətin bərpa edilməsi yolunda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yurd-yuvasından didərgin, qaçqın düşmüş azərbaycanlıların tarixi hüquqlarının bərpasına istiqamətlənmiş siyasətin elmi əsaslarla həm yerli, həm də beynəlxalq səviyyədə işıqlandırılmasına nail olmaq, ölkənin müxtəlif universitet, akademiya və elmi-tədqiqat institutlarında, eyni zamanda, qardaş Türkiyə universitetlərində fəaliyyət göstərən tədqiqatçıları bir araya gətirmək, onların Qərbi Azərbaycanla bağlı əldə etdikləri elmi yenilikləri dinləmək, fikir mübadiləsi aparmaq, Ermənistan Respublikasının inzibati sərhədləri daxilindəki qədim yurd yerlərimiz olan Qərbi Azərbaycan torpaqlarında xalqımızın min illərlə yaratdığı mədəniyyəti təbliğ etmək, Qərbi Azərbaycana qayıdış prosesinə elm və təhsil ictimaiyyətinin dəstəyini ifadə etməkdən ibarət olmuşdur.



Naxçıvan Dövlət Universitetində "Qərbi Azərbaycana qayıdış" festival-konqresin əsasnaməsi hazırlanmış, 36 nəfərlik Elmi Komitə, 45 nəfərdən ibarət Təşkilat Komitəsi, rəsmi saytı və loqosu yaradılmışdır. Festival-konqresdə əslən Qərbi Azərbaycandan olan soydaşlarımız, muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələrinin müəllim və tələbələri, eyni zamanda Qərbi Azərbaycan İcmasının, Azərbaycan Dövlət Pedaqoji Universitetinin, Bakı Dövlət Universitetinin, Azərbaycan Dövlət İqtisad Universitetinin, Azərbaycan Memarlıq və İnşaat Universitetinin, Azərbaycan Texniki Universitetinin, Bakı Ali Neft Məktəbinin, AMEA Naxçıvan Bölməsinin, AMEA Tarix İnstitutunun, Vəkillər Kollegiyası Akademiyasının, eləcə də qardaş Türkiyədən Ankara Universitetinin, Hacəttəpə Universitetinin, Qazi Universitetinin, Atatürk Universitetinin, Qars Qafqaz Universitetinin və İğdır Universitetinin rəhbərləri və geniş tərkibdə heyətləri təmsil olunmuşdur. Festival-konqresin təşkilində Naxçıvan Muxtar Respublikasının İcra hakimiyyətləri, Mədəniyyət Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Naxçıvan Muxtar Respublikası Arxiv İdarəsi, Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyi və Rəssamlar Birliyi iştirak etmişdir.

Festival-konqresdə Azərbaycanın və Türkiyə Respublikasının bir sıra aparıcı universitetlərinin rektorları, millət vəkilləri, akademiklər, incəsənət xadimləri, dövlət və hökumət nümayəndələri iştirak etmişlər.

"Qərbi Azərbaycana qayıdış" festival-konqresində kulinariya və rəsm əsərlərinin sərgisi, milli geyim və məişət avadanlıqlarının sərgisi, Qərbi Azərbaycana həsr olunmuş film nümayişləri, kitab təqdimatları, ustad dərsləri, xalq oyunları, kompozisiyalar, konsert proqramları təşkil edilmişdir.



"Qərbi Azərbaycana qayıdış" festival-konqresin rəsmi açılış mərasimində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev, Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev, Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva və Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin üzvü, ADPU-nun prorektoru, professor Mahirə Hüseynovanın çıxışları dinlənilmişdir.

Festival-konqresin açılış tədbirində Naxçıvan Dövlət Universitetinin Tələbə-Teatr Studiyasının bakalavr və magistratura üzrə təhsil alan tələbələri tərəfindən tədbirin əsas qayəsini özündə əks etdirən "Sevin Azərbaycanı!" adlı maraqlı tamaşa-kompozisiya təqdim olunmuşdur. "Qərbi Azərbaycana qayıdış" festival-konqresin açılış tədbirinin bədii hissəsində Naxçıvan Dövlət Universitetinin xor kollektivinin ifasında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilmişdir. Universitetin "Muğam üçlüyü"nün ifasında "Zəngəzurum" muğamı, rəqs qrupunun ifasında "Azərbaycan Suitası", Aşıqlar ansamblının ifasında "Baş müxəmməs", "Naxçıvanqala" ritm qrupunun ifasında "Qarabağ" kompozisiyası nümayiş olunmuş, Naxçıvan Dövlət Universitetinin yeni yaradılmış 56 nəfərdən ibarət "Xalq çalğı alətləri orkestri" və 17 nəfərdən ibarət "Buta" instrumental ansamblının ifalarında Qərbi Azərbaycana xas olan musiqi nömrələri təqdim olunmuşdur. Bədii hissədə ölkənin tanınmış musiqi xadimləri – xalq artistləri Ağaverdi Paşayev, Gülyanaq Məmmədova, Nurəddin Mehdixanlı, Əməkdar artistlər Elnur Zeynalov və Nuriyyə Hüseynova iştirak etmişdir.

Açılış tədbirindən sonra "Dövlət Qonaq Evi"ndə Universitetin Texnologiya Mərkəzi tərəfindən Qərbi Azərbaycan mətbəxinə məxsus olan kulinariya sərgisi keçirilmiş, sərgiyə 59 çeşid yemək, 44 çeşid meyvə və meyvə qurusu, 30 adda müalicəvi bitkilər, 94 növ mürəbbə, 12 adda bitki çayı, 13 növ şirniyyat çıxarılmışdır. Heydər Əliyev Sarayında təşkil olunmuş sərgidə Qərbi Azərbaycan mədəniyyətinə aid milli geyim nümunələri, məişət əşyaları, qədim sikkələr, pul nişanları, ənənəvi xalça və palaz nümunələri, müxtəlif dövrlərə aid fotoşəkillər, Qərbi Azərbaycanda çap olunmuş qəzet və jurnallar, kitablar, Qərbi Azərbaycanın tarixi abidələrinin şəkilləri, Qərbi Azərbaycan ərazisində tapılmış arxeoloji nümunələr, Qərbi Azərbaycanın tarixi abidələrinin maketləri, Qərbi Azərbaycanın tarixi-etnoqrafik geyim nümunələri, Qərbi Azərbaycanın tarixi abidələrinin şəkilləri

QƏRBİ AZƏRBAYCAN İCMASI –

TARİXİ ƏDALƏTİN BƏRPASI UĞRUNDA MÜBARİZƏ APARAN TƏŞKİLAT



Bu gün Azərbaycan xalqı qarşısında üzərinə tarixi bir missiya götürmüş Qərbi Azərbaycan İcması 1989-cu il dekabrın 28-də "Azərbaycan Qaçqınlar Cəmiyyəti" kimi təsis edilmişdir. Ötən dövr ərzində təşkilat tarixi Azərbaycan torpaqları olan indiki Ermənistan – Qərbi Azərbaycan ərazisindən qovulmuş azərbaycanlı qaçqınların sosial problemlərinin həlli, pozulmuş hüquqlarının müdafiəsi ilə məşğul olmuş və onların geriyə qayıtmağa dair əzəli hüququnu müntəzəm olaraq gündəmdə saxlamışdır.

2022-ci il avqustun 3-də Azərbaycan Qaçqınlar Cəmiyyəti Qərbi Azərbaycan İcması şəklində yenidən təşkil olunmuş, təşkilat özünün hədəfini son 200 ildə tarixi torpaqlarından qovulmuş soydaşlarımızın hüquqlarının bərpası şəklində genişləndirmişdir. İcmanın rəhbər heyətində indiki Ermənistan ərazisində yaşamış olan azərbaycanlıları proporsional şəkildə təmsil edən tanınmış ictimai-siyasi xadimlər, elm və mədəniyyət adamları təmsil olunurlar. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bu məsələdə daim nümayiş etdirdiyi prinsipial mövqe, xüsusilə 24 dekabr 2022-ci ildə - özünün ad günündə İcmanın inzibati binasına gəlişi, burada proqram xarakterli çıxış etməsi, Qərbi azərbaycanlıların hüquqlarının bərpa olunmasına və onların öz doğma torpaqlarına qayıtmasına möhkəm və birmənalı dəstək ifadə etməsi, İcmanın fəaliyyətinin çərçivə sənədi kimi Qərbi Azərbaycana Qayıdış Konsepsiyasını hazırlamaqla bağlı tapşırıqları Qərbi Azərbaycan İcmasının fəaliyyətinə yeni təkan vermişdir.

Məlumat üçün bildirim ki, ermənilərin Qərbi Azərbaycanda soydaşlarımıza qarşı fərdi və kollektiv cinayətləri 200 il əvvəldən başlasa da, bu cinayətlər son yüz il ərzində bütün hüdudları aşmışdır və bu cinayətlərlə bağlı saysız-hesabsız faktlar, sənədlər, sübutlar vardır. Xüsusilə, 1918-ci il iyulun 15-də Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti tərəfindən yaradılmış və 1919-cu il noyabrın 1-nə qədər fəaliyyət göstərmiş Fövqəladə Təhqiqat Komissiyasının 36 cilddən (3500 vərəqdən) ibarət istintaq materialları o dövrdə ermənilərin soydaşlarımıza qarşı cinayətləri barədə dolğun təsəvvür yaradır.

1948-1953-cü illər deportasiyasına isə hələ də hüquqi qiymət verilməmişdir. Ulu Öndər Heydər Əliyevin 1997-ci il dekabrın 18-də imzaladığı azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında tarixi fərmanında bu deportasiyaya ilk dəfə tarixi qiymət verilmiş və hüquqi-siyasi qiymət verilməsi zəruri hesab edilmişdir. Təəssüf ki, 1930-1940-cı illərdə keçmiş SSRİ məkanında repressiya və deportasiyaya məruz qalan bütün şəxslər və bütün xalqlar Stalinin ölümündən sonra respublika Ali Məhkəmələrinin qərarı ilə bəraət alsalar da, təkcə 1948-1953-cü illər deportasiyasından zərər çəkənlərə hələ də hüquqi müstəvidə bəraət verilməmiş, deportasiya olunanların və onların varislərinin ata-baba yurdlarına qayıtmaq hüququ tanınmamışdır. Sovet dövründə SSRİ rəhbərliyi buna imkan verməmişdir.

SSRİ Nazirlər Sovetinin "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında" 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı olmuşdur.

1987-1991-ci illərdə baş vermiş sonuncu deportasiya isə öz amansızlığı və qəddarlığı ilə əvvəlkilərdən bir o qədər də fərqlənməmişdir. O vaxt indiki Ermənistan adlanan ərazidə, yəni Qərbi Azərbaycanda 170-dən çox kənddə ancaq azərbaycanlılar yaşamış, 90-a yaxın kənddə azərbaycanlılar əksəriyyət təşkil etmişdir. Bir sıra kəndlərdə isə azərbaycanlılarla ermənilər yanaşı yaşamışlar. Bütövlükdə , 300-ə yaxın yaşayış məntəqəsində azərbaycanlı soydaşlarımız yaşamışlar. Lakin təəssüf ki, onların hamısı ermənilərə xas üsul və metodlarla sonuncu nəfərinə qədər Qərbi Azərbaycandakı ata-baba yurdlarından qovulmuşlar.

Bu prosesdə 200 nəfərdən çox soydaşımız ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilmiş, 400-dən artıq insanımız bədən xəsarəti almışdır. 300-ə yaxın yaşayış məntəqəsindən qovulan azərbaycanlılara fərdi təsərrüfatlar üzrə 2,5 milyard, ictimai təsərrüfatlar üzrə 17,5 milyard ABŞ dolları həcmində maddi ziyan vurulmuşdur ki, beynəlxalq qiymətləndirmə standartlarına görə, bu gün həmin ziyanın məbləği 700 milyard ABŞ dolları həcmindədir. Yeraltı-yerüstü sərvətləri, tarixi-mədəni abidələrə vurulan ziyanı da bura əlavə etsək, yəqin ki, bu ziyan bir neçə dəfə artar. Mənəvi ziyanı isə heç bir məbləğlə əvəz etmək olmaz.

Qərbi Azərbaycan İcması qısa müddətdə Qərbi Azərbaycandan qovulmuş əhalinin adlı siyahısını tərtib etmiş və həmin siyahılar elektron daşıyıcılara köçürülmüşdür. Qərbi Azərbaycan İcmasının müraciəti əsasında Azərbaycan Baş Prokurorluğunda Ermənistandan qovularkən ermənilər tərəfindən soydaşlarımıza qarşı törədilən cinayət faktları barədə istintaq işi başlanmışdır. Qərbi Azərbaycan həqiqətlərinin tanıdılması və gündəmə gətirilməsi, Qərbi Azərbaycandan olan qaçqın, deportasiyaya məruz qalmış əhalinin hüquqlarının, mədəni irsinin qorunması, onların öz vətənlərinə təhlükəsiz və ləyaqətli şəkildə qayıdış hüquqlarının bərpa olunması istiqamətində İcmanın



gördüyü işlər əsasən iki xətt üzrə aparılır: birinci istiqamət ölkə daxilində Qərbi Azərbaycan tarixinin, mədəniyyətinin, folklorunun, bir sözlə xalqımızın öz doğma torpaqlarında yaratmış olduğu, bu gün də yaşatdığı zəngin irsin öyrənilməsi və təbliğindən ibarətdir.

İkinci və ən önəmli istiqaməti isə Qərbi Azərbaycan həqiqətlərinin ölkəmizin hüdudlarından kənara daşınması, bu həqiqətlərin və bu prosesdə erməni cinayətləri barədə faktların beynəlxalq müstəviyə çıxarılması, soydaşlarımızın pozulmuş hüquqlarının beynəlxalq hüququn predmetinə çevrilməsi təşkil edir.

Artıq hər iki istiqamət üzrə xeyli işlər görülmüşdür və bütün bu işlər uğurla davam etdirilir. Təkcə onu xatırlatmaq kifayətdir ki, Qərbi Azərbaycan İcmasının yeddi sənədi BMT-nin rəsmi sənədi kimi, BMT-nin bütün rəsmi dillərində BMT üzvü olan bütün dünya dövlətləri arasında yayılmışdır. Bu, Qərbi Azərbaycan həqiqətlərinin BMT tribunasından ilk dəfə etiraf edilməsidir. Bu sənədlər sırasında İcmamızın Qərbi Azərbaycana Qayıdış Konsepsiyası, beynəlxalq ictimaiyyətə müraciət, UNESCO-nun Baş katibinə müraciət kimi ciddi sənədlər də vardır.

Qərbi Azərbaycan İcması son bir neçə ay ərzində dünyanın bir çox nüfuzlu beynəlxalq təşkilatlarına, dövlət başçılarına, siyasətçilərə 130-dan artıq müraciət, bəyanat, məktub ünvanlamış və onların bəzilərindən rəsmi cavab almışdır. Bu cavablar sırasında Avropa İttifaqı Şurasının sədri Şarl Mişelin, UNESCO Baş katibinin cavabları da vardır. Bizim hədəfimiz Qarabağ münaqişəsinin ilk mərhələsində - 1987-1991-ci illərdə Ermənistan dövləti tərəfindən qovulduğumuz ata-baba yurdlarımıza qayıdışdır- sülh yolu ilə, təhlükəsizliyimizin təmin olunması şərti ilə və ləyaqətli şəkildə qayıtmaqdır. Bu, bizim beynəlxalq hüquqa söykənən təməl hüququmuzdur və biz bu hüququn təmin olunmasını beynəlxalq qurumlardan tələb edirik.

Əziz Ələkbərli
Qərbi Azərbaycan İcmasının sədri,
Milli Məclisin deputatı

O ənənələri yaşatmaq üçün qayıtmalıyıq

Böyük ürək ağrısı ilə min illərlə yaşadığı ərazilərdən – bu gün Ermənistan Respublikası adlandırılan o yerlərdən, Qərbi Azərbaycandan olan soydaşlarımızın ölüm təhdidi altında çıxarılmasının tarixçəsinə ekskurs edəcəyik. Hesab edirəm ki, elmi konfrans soydaşlarımızın min illərlə məskunlaşdığı, tarixi və təbii sərhədləri daxilində böyük maddi-mənəvi dəyərlərin nümunələrini yaratmış xalqımızın son 200 ildə keçdiyi yolun bütün spektrlərdə əsl mənzərəsini ortaya qoyacaq. Keçirilən konfranslar, elmi seminarlar, simpoziumlar elmi tədqiqatların təkzibolunmaz faktlarla ortaya qoyduğu məruzələrdə iki əsr müddətində geosiyasi vəziyyətlərin yaratdığı reallıqların ağrı-əzabları ilə yaşamış xalqımızın iradəsini göstərmək qismən də olsa mümkündür.



İnsan ağlına gəlməyəcək, itkilər və mərhumiyyətlərlə dolu yolları keçən və öz haqlarına qovuşmaq üçün iynənin ucu boyda işığa tərəf gedən xalqın enerji mənbəyi heyrətamizdir. İbrətamiz olansa odur ki, xalqımızın məşəqqətli tarixi ya dövlətçiliyimizin müvəqqəti də olsa itirildiyi, ya da öləzidiyi məqamlara təsadüf edib. Həmin tarixin Cənubi Qafqazda Ermənistan dövlətçiliyinin yaranması ilə başladığı mərhələsini Prezident İlham Əliyev 2022-ci il dekabr ayının 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanışlıq zamanı Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündəki nitqində belə ifadə edirdi: ***"1920-ci ildə sovet hökumətinin qərarı və erməni millətçilərinin təkidi ilə bizim digər tarixi torpağımız Zəngəzuru da Azərbaycandan ayırıb Ermənistana birləşdirdilər. Bu, xalqımıza qarşı növbəti cinayət idi. Bunun da məqsədi tam aydın idi. Birincisi, erməni millətçiləri sovet hökumətində mühüm vəzifələrdə idi. Digər tərəfdən, Azərbaycanı Naxçıvandan və Türkiyədən coğrafi nöqteyi-nəzərdən ayırmaq üçün atılmış bir addım idi".***

Bütün bunlar ancaq salnaməçilərimizin yazdığı tarixi faktlarda, yaxud cünglərdə deyil, həmçinin istər yazılı, istərsə də şifahi ədəbiyyatımızda qalıb, xalqımızın təhtəlşüurunda yer tutub, nəsil-nəsil yaşayaraq hamımızı vahid hədəfə yönəldib. Bunu bütün şüurlu həyatı boyu Azərbaycan xalqı və azərbaycanlıların gələcək taleyi üçün fəaliyyətdə olmuş Ümummilli Liderin - ömrünün 45-ci ilindən sonra həm nominal dövlətçilik atributları olsa belə, istər sovet Azərbaycanının siyasi rəhbəri olmuş, istərsə də nominal olaraq dövlət müstəqilliyini elan edən suveren Azərbaycan Respublikasında siyasi hakimiyyətə dəvət edilən, sonralar onun Prezidenti seçilən Heydər Əliyevin ailəsində böyümüş Prezident İlham Əliyevin birmənalı qənaəti idi.

Hər birimiz təhtəlşürumuzda yer tutmaqda, bizi keçib gəldiyimiz o yollara aparmaqda xidməti olan hər kəsi minnətdarlıqla anırıq. Bunların sırasında "1747-1805-ci illərdə Qarabağ xanlığının siyasi vəziyyətinə dair"in müəllifi Əhməd bəy Cavanşiri, "Qarabağnamə"ni irsimiz kimi qoyub gedən Mirzə Adıgözəl bəyi, "Pənah xan və İbrahimxəlil xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri" kimi etibarlı mənbəni yaradan Rzaqulu bəy Mirzə Camal oğlunu, "Kitabi-tarixi-Qarabağ"ı yazan Mirmehdi Xəzanini, həmçinin Məhəmmədəli bəy Məxfi, Mirzə Rəhim Fəna, Həsən İxfa Əlizadə və başqaları dayanır. 200 illik son faciələrimizi istər nəsr, istərsə də nəzmin, jurnalistikanın imkanları çərçivəsində ədəbiyyat və mətbuatın əsas mövzularından birinə çevirən Abbasqulu Ağa Bakıxanov, Mirzə Fərəli Axundov, Həsən bəy Zərdabi, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Nəriman Nərimanov, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Əbdürrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Üzeyir bəy Hacıbəyov, Məmməd Səid Ordubadi və onlarla, yüzlərlə cəfakeş insanlarımızın qarşısında mənəvi borcumuzu unutmaq olarmı?!

Mən belələrindən biri, istedadlı yazıçı, şair, dramaturq Əyyub Abbasovun "Zəngəzur", XX əsrin əvvəllərində Qafqazda baş verən hadisələr fonunda tarixi Azərbaycan torpaqlarında- erməni millətindən olan, nizami silahlı birləşmələrdə birləşən qatı cinayətkarların azərbaycanlılara qarşı tutduqları divan barədə yazılan romanı xatırlatmaq istərdim. Zəngəzur qəzasının Şəki kəndində anadan olan, azərbaycanlıların qırğın və deportasiyanın canlı şahidi müəllif valideynlərini, qardaşlarını, dogma və əzizlərini itirir, amma yaşadığı faciənin verdiyi dərsləri, bir də ümidini itirmir. Onun iki cilddəki, 980 səhifəlik "Zəngəzur" tarixi romanı əslində bir salnamədir. Təsadüfdür, ya yox, onu demək çətindir, amma onu qeyd etməyi lazım bilirik ki, salnamə-romanın yazıldığı və nəşr olunduğu tarix təəssüf ki, hələ indi də ermənilər arasında "milli qəhrəman" kimi təsəvvür və təqdim olunan qatil Andronik Uzunyanın 100 illiyi ərəfəsinə düşür. Bu romanın yazılması və nəşri faktının ibrətamizliyi ondadır ki, "xalqlar arasında birlik və qardaşlığı", beynəlmiləlçilik dövlət ideologiyası səviyyəsinə qaldırılan SSRİ-nin subyektlərindən biri olan sovet Azərbaycanında anoloji addımın atılması ciddi qalmaqal yarada bilərdi və yaratdı da. "Zəngəzur" romanı ədəbiyyatımızda Andronik, Njde, Dro, Karo, Hamazasp kimi erməni "generallarının" necə var, o cürtürk-müsəlman əhalinin şəxsində insan qanına susamış canilər kimi düşünürdü.

Düşünürəm ki, birmənalı olaraq təkcə Azərbaycan yazıçı və şairlərinə, rəssam və heykəltaraşlarına, bütün incəsənət nümayəndələrinə deyil, dünyanın bütün gələcək qarşısında məsuliyyətini dərk edən yaradıcı insanlarına çağırış etmək yerinə düşər: Müasiri olduğumuz, XX, XXI əsrin əvvəllərində qonşularımız olan erməni millətçilərinin başlatdığı, əsasında ərazi iddiaları dayanan müharibədə öldürülənlər, taleləri qırılan insanlar, dağıdılan, daşı-torpağı yandırılan şəhər və kəndlərin yaşadığı faciələri öz əsərlərinizin mövzusuna çevirin!".

Bu, həm də onunla xarakterikdir ki, Azərbaycanın nəinki tarixən mövcud sərhədlərini parçalamaq, üstəlik onun mənəvi sərvətlərini, min illərlə yaranaraq onu ayaq üstündə saxlayan mənəvi köklərini budamaq üçün nominal olsa da, növbəti dövlətin proseslərə qoşulurdu. Sovet Ermənistanı yaranışına qədər digər dövlətlərin kölgəsində gizlənərək Türkiyə və Azərbaycana qarşı ağlagəlməz cinayətlər törədən erməni millətçiliyinin istehkamına çevrilməli idi. Buna görə idi ki, cəmi 28 ildən sonra daşnak Ermənistanının başladığı, sona çatdıra bilmədiyi məsələni bitirmək üçün "kommunist Ermənistanı" birdəfəlik yekunlaşdırmaq üçün hərəkətə keçdi. Atılan növbəti addım gələcəkdə daha çox məkrinin miqyasına görə diqqət çəkəcək. Bu isə qırğınlar və deportasiya ilə müşayiət olunan birinci mərhələdən və Cənubi Qafqazda

Ardı 7-ci səhifədə

imperialist maraqlarına görə ictimai-siyasi vəziyyətin yaratdığı şəraitdən bəhrələnmək istəyən dövlətlərə yarımçıq qalmış planların həyata keçirilməsi üçün imkan yaradırdı.

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr və 1948-ci il 10 mart tarixli qərarları sovet Ermənistanına Qərbi Azərbaycanın azərbaycansızlaşdırılması və üstəlik buradakı izlərimizi silmək fürsəti verirdi. Ən peşəkar qatillər belə izləri tam silə bilmir. Bu, bütün cinayətlərə münasibətdə belə olur. Hər bir yerin istənilən rəsmi sənədlərdən fərqli olaraq pasportu adlandırılan toponimləri hədəf seçməsi onu göstərirdi ki, Ermənistan adlandırılan dövləti idarə edənlər də bu həqiqəti ağıllarına gətirmirdilər. XIX əsrin sonlarında Qafqaz Hərbi Dairəsinin hərbi-topoqrafik şöbəsində hazırlanan, 1903-cü ildə çap edilən Güney Qafqazın xəritəsi bu nöqteyi-nəzərdən dediklərimizə sübut ola bilər. Adını çəkdiyimiz rəsmi dövlət sənədi bu gün, elə sabah da oranın əsl sahiblərinin kimliyini təsdiq edən ən mötəbər sənəddir. Xəritədə əks olunan oronim, xoronim, oykonim, astionim, komonim, hidronim, drimonimlər keçmişə tutulan güzgü kimi onu əks etdirir. Dağıdılmış məkanlar, insanların işgəncələrlə qətlə yetirilməsi, tarixdə görünməyən faciələrin dinc insanların başına gətirilməsi, görünməmiş vəhşiliklər hələlik ədəbiyyatlarda tam öz əksini tapmayıbdır. Amma tarixi mənbələri araşdırdıqca bir daha dediklərimizin şahidi oluruq. Hələ canlı tarix olan informatorları demirik!

Oxuduqlarım və eşitdiklərimdən dilçi olaraq gəldiyim qənaət, son nəticə: nəinki Azərbaycan xalqına qarşı törədilən cinayətlərə görə məsuliyyət daşıyan Ermənistandakı siyasətçilərə və o siyasətin həyata keçirilməsində rol oynayan alimlərə bir detalı xatırlatmaq istərdim: "Toponimlər (xüsusən də hidronimlər) arxaizmləri və dialektizmləri ardıcıl olaraq qoruyur. Onlar tez-tez keçmişdə müəyyən bir ərazidə yaşamış xalqların substrat dillərinə qayıdır ki, bu prosesin qarşısını almaq mümkün deyil, azından, heç kimə müyəssər olmayıb. Bu həmin prosesdir ki, o, etnik icmaların məskunlaşma sərhədlərini müəyyən etmək üçün başlıca vasitələrdən biri hesab olunur.

Bu həqiqətlərin ortaya qoyulması üçün çox mühüm və əhəmiyyətli sənəd - "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 1997-ci il dekabrın 18-də imzaladığı Fərman cənab Prezident İlham Əliyevin başlatdığı işin məntiqi sonluğu üçün siyasi, hüquqi və tarixi əsaslar verir. Bunlardan əlavə, Fərmanda Qərbi azərbaycanlıların doğal insan hüquqlarının başlıca prinsipindən- doğulduğu, boya-başa çatdığı mühitdən zorla ayrılması faktından söhbət gedir. Ümummilli Liderimizin imzaladığı Fərmanda o faktı gerçəkləşdirən amillərdən birinin- ideoloji əsaslarının qeyd edilməsi ancaq tarixçilər qarşısında deyil, yaradıcı insanlarımız qarşısında da aktual vəzifələr qoyur. Bu vəzifələr Fərmanda bu cür ehtiva olunur: "Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək həlak olmuşlar. Bu işdə erməni şovinist dairələrinin və SSRİ rəhbərliyinin cinayətkar siyasəti ilə yanaşı, o dövrki Azərbaycan rəhbərliyinin öz xalqının taleyinə zidd mövqeyi, soydaşlarımıza qarşı törədilən cinayətlərin təşkilində və həyata keçirilməsində iştirakı da az rol oynamamışdı... Təəssüf ki, 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiya olunması faktı ötən 50 il ərzində lazımınca araşdırılmamış, bu hadisələrə hüquqi-siyasi qiymət verilməmişdir".

Fərmanda baş verən faciələrimizin ardıcıl olması üçün münbit şərait yaradan faktorlardan biri bu cür təqdim edilirdi və hesab edirik ki, bu cümlələr ölkənin keçmiş rəhbərliyini tənqiddən daha çox gələcək siyasi liderlər üçün mükəmməl yol xəritəsi hesab oluna bilər. Buna görədir ki, 2022-ci il dekabrın 24-də, yeri gəlmişkən, özünün növbəti doğum günündə Qərbi Azərbaycan İcmasının bir qrup ziyalısı ilə görüşdə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyev erməni millətçiliyinin və həmin millətçiliyi qidalandıran ictimai-siyasi mühitin hansı şəraitdən qaynaqlandığını göstərməyi lazım bilirdi: ***"1980-ci illərin sonlarında sovet hökuməti xalqımıza qarşı növbəti cinayət törətdi. Bu dəfə Ulu Öndər Heydər Əliyevin hakimiyyətdən getməsindən istifadə edən həm erməni millətçiləri, həm onların sovet hökumətindəki havadarları dərhal hərəkətə keçdilər. Heydər Əliyev 1987-ci ilin noyabrında bütün vəzifələrdən uzaqlaşdırılandan iki həftə sonra erməni millətçiləri baş qaldırdılar. Sovet hökuməti onlara dəstək oldu və həm Qarabağda, həm o vaxtkı Ermənistan Respublikasında xalqımıza qarşı növbəti cinayət başlandı".***

O cinayət ancaq onunla qapanmırdı ki, azərbaycanlıların min illərlə məskunlaşaraq yaşadığı məntəqələr 170-dən çox kənd idi və orada təkcə azərbaycanlılar yaşayırdılar. Bunlardan əlavə, ovaxtkı Ermənistanda 90-a yaxın kənddə azərbaycanlılar əksəriyyət təşkil edirdilər və ümumilikdə 300-dən çox şəhər və kənddə yaşayırdılar.

Azərbaycanlıların zorla, ölüm qorxusu altında qaçqına çevrilmələri yeni hadisə deyildi və o faktı xatırladaq ki, oxşar hadisələri yaşamış çoxlu insan həmin faciələri ikinci dəfə görür və yaşayırdı.Üstəlik, o faciələr ancaq soydaşlarımızın xatirəsində də deyil, 1918-ci ildə Ermənistandakı daşnak hökumətinin ilk baş naziri olmuş, sonralar Avropaya mühacirət etmiş Hovhannes Kaçaznuninin Ermənistan hökumətinin etdiyi səhvlər fonunda azərbaycanlılara qarşı həyata keçirdiyi etnik təmizləmə əməliyyatları epizodlarının da yer aldığı "Daşnaksütyunluq bir şey qalmadı" kitabında yaşayırdı. Kaçaznuni əvvəl Türkiyədə başlayan və Azərbaycanda davam etdirilən hadisələrin son məqsədi barədə bunları yazırdı: "Biz qeydşərtsiz Rusiyaya istiqamətlənmişdik. Hər hansısa bir səbəb yox ikən, zəfərimizi qeyd edirdik. Sədaqətimizin, verilən tapşırıqları yerinə yetirməyimizin və köməklərimizin müqabilində çar hökumətinin Ermənistana müstəqillik bəxş edəcəyini düşünürdük. Öz işimizə başqalarını da qoşduq, heç bir səlahiyyəti olmayan şəxslərin sözlərinə əhəmiyyət verdik. Özümüzü hipnoz etdik və bunun təsiri ilə həqiqəti dərk etmədik, xəyallara qapıldıq".

Həmin xəyalların arxasında müttəfiq ölkələrin (Rusiya, Fransa və İngiltərə nəzərdə tutulur- red.) ermənilərə vəd etdiyi "Böyük Ermənistan" xəyali dövləti dayanırdı. Onlar hələ xəyallarla yaşayırdılar və bu yaşantılar Kaçaznuninin kitabında bu cür təqdim olunurdu: "Qara dənizdən Aralıq dənizinə, Qarabağ dağlarından Ərəb çöllərinə qədər olan ərazidə dövlət yaratmaq istəyirdik. Axı bu xəyalı necə gerçəkləşdirə bilərdik? Səmimi olsaq, biz həmişə bacarıqsız daşnaklar idik. Rəhbər tuta biləcəyimiz bir məqsədimiz, bu məqsədə çatmaq üçün dəqiq hesablanmış strategiyamız yox idi. Bütün işlərimizi təsadüfi görürdük. Terrora əl atdıq. Türklərə qarşı qırğınlar törətdik". Bu, erməni millətçiliyinin ideoloqlarından birinin etirafları idi.

Təəssüf ki, yaxın 3 ilə qədər həmin millətçilik bu ideologiya ilə yaşadı və geri çəkilmək fikrində də deyildi. Azərbaycan Respublikası hər dəfə insan haqlarından, BMT-nin Ermənistan silahlı qüvvələrinin işğalı altındakı ərazilərimizi boşaltmaq barədə qətnamələrin icrasından danışdığı zamanlar qarşı tərəf heç bir kompromisə gedilməyəcəyini bəyan edirdi. Hətta zorla cəlb olunduğumuz münaqişənin hərbi yolla həll olunacağı ilə bağlı Azərbaycan tərəfinin bəyanatlarına "Yeni müharibə, yeni ərazilər demək olacaq" cavabı verilirdi.Hər şey Azərbaycan Respublikasının zorla cəlb edildiyi müharibədə 2020-ci il 27 sentyabr tarixindən başladı və 44 günlük müharibə 10 noyabr Bəyannaməsi ilə başa çatdı.

Xalqımızın birliyi, Müzəffər Ali Baş Komandanın rəhbərlik etdiyi Şanlı Azərbaycan Ordusunun şücaəti nəticəsində Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı və Şuşa şəhərləri daxil olmaqla, ümumilikdə, 300-dən çox yaşayış məntəqəsi işğaldan azad edildi.Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladığı Üçtərəfli Bəyanata uyğun olaraq isə Ermənistanın Kəlbəcər, Ağdam və Laçın rayonlarından silahlı qüvvələrini çıxarması ilə ərazi bütövlüyümüz təmin olundu.2023-cü il noyabr ayının 8-də Xankəndində Azərbaycan Silahlı Qüvvələrinin hərbi Paradını qəbul edən Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı ancaq Ermənistana deyil, bütün dünyaya üz tutaraq dedi: ***"Azərbaycan Respublikası ilə heç kim güc yolu ilə danışa bilməz!".***

Bütün arşdırmaların nəticəsi, qarşıya qoyulan məqsədlərin də mərhələləri olur. Hələlik Qərbi Azərbaycan həqiqətlərini araşdırıb dünyaya çatdırmaq "Qərbi Azərbaycan: Böyük qayıdışa gedən yol" un nizamlı ordusuna çevrilməli və bu yolda mətin addımlarla irəliləməliyik. Öz prinsipial mövqeyimizdən çıxış edərək bir daha Ermənistan Respublikasının siyasi rəhbərliyinə üz tuturuq: *"Azərbaycanlılar ona görə öz tarixi vətənlərinə qayıtmaqda israrlıdırlar ki, min illərlə babalarının yurdu olmuş ərazilərdə yaşasınlar, quruculuq işləri görsünlər və xalqımızın ən gözəl ənənələrini doğma yurd yerlərində yaşatsınlar".*

O qənaətdəyəm ki, bu fikir Ermənistan ictimaiyyəti tərəfindən də normal qarşılanmalıdır, düzgün anlaşılmalıdır.

Mahirə Hüseynova
ADPU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, filologiya elmləri doktoru, professor

Toponimlərdə yaşayan tarixi həqiqətlər

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan Cənab İlham Əliyev Qərbi Azərbaycan İcmasının binasında Qərbi Azərbaycan ziyalıları ilə görüşdə proqram xarakterli çıxışında demişdir: ***"Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var".***



İndi Ermənistan adlanan Qərbi Azərbaycanın türk mənşəli toponimlərinin öyrənilməsi elmi əhəmiyyət kəsb etməklə yanaşı, siyasi mahiyyət də daşıyır. Ərazinin toponimləri (oykonim, oronim, hidronim) aydın şəkildə göstərir ki, Azərbaycan türkləri qədimdən bu ərazidə yaşamışlar. Bu da Azərbaycan türklərinin indi Ermənistan adlanan ərazinin aborigen xalqı olduğunu təsdiqləyir. Çar Rusiyası 1828-ci il Türkmənçay sülh müqaviləsindən sonra Cənubi Qafqazda, o cümlədən indiki Ermənistan ərazisində müxtəlif illərdə kameral siyahıyaalmalar aparmışdır.

İndiki Ermənistan ərazisində ilkin siyahıyaalma 1831-ci ildə keçirilmişdir. 1831-ci il siyahıyaalmasından aydın olur ki, bu ərazidə 1830-cu ilə kimi 54.857 nəfər azərbaycanlı, 14.469 ermənı yaşamışdır. Ermənilər 1828-ci ildən sonra İran və Türkiyədən kütləvi surətdə indi Ermənistan adlanan əraziyə köçürülmüşlər. XIX əsrin əvvəllərindən XX əsrin əvvəllərinə qədər bu ərazidə yaşayan əhalinin sayı və etnik tərkibini özündə əks etdirən Z.Qorqodyanın «1831-1931-ci illərdə Sovet Ermənistanın əhalisi (İrəvan, 1932, erməni dilində) kitabında qeydə alınan 2310 oykonimin (yaşayış məntəqəsinin) 2000-dən çoxu türk mənşəli, 300-ə yaxını isə ərəb və fars mənşəlidir. Bu da təbiidir. Çünki hər bir xalq yaşadığı əraziyə, buradakı yer-yurd adlarına öz ana dilində ad verər. Bu ərazi Azərbaycan türklərinin tarixi vətənləri olduğu üçün toponimlərin 90% dən çoxu da yalnız türk mənşəlidir. Məhz ərazinin toponimləri tarixi həqiqətlərə şahidlik edir, ermənilərin gəlmə olduğunu göstərir. Əgər ermənilər buranın köklü sakinləri olsa idi, burada erməni dilinə məxsus toponimlər də olardı.

Erməni mənşəli toponimlər 1935-ci ildən sonra indi Ermənistan adlanan Qərbi Azərbaycanda türk mənşəli toponimlərin kütləvi surətdə dəyişdirilməsindən sonra yaranmağa başlamışdır. İndiki Ermənistanın toponimlərinin urbonim, eləcə də qala, karvansara, körpü adlarının tarixi-linqvistik baxımdan araşdırılması ərazisinin etnik tərkibi, relyefi, flora və faunası haqqında aydın təsəvvür yaradır.

İndiki Ermənistan ərazisi Azərbaycanın tarixi torpaqlarıdır. Bu ərazidə 1920-ci ilə qədər müstəqil erməni dövləti olmamışdır. 1917-ci il Oktyabr çevrilişindən sonra ərazidə Rusiyanın bilavasitə himayəsi altında Azərbaycan torpaqları hesabına Ermənistan Respublikası yaradılmış (29 noyabr 1920), Zəngəzur, Göyçə, Dərələyəz mahalları Azərbaycandan alınaraq yeni yaradılan Ermənistan Respublikasının inzibati-ərazi bölgüsünə daxil edilmişdir. İndiki Ermənistan ərazisindəki türk mənşəli toponimlər dövlət səviyyəsində mənəvi soyqırımına məruz qalmışdır. Qədim türk torpaqları olan Ermənistanda türklərə - azərbaycanlılara qarşı fiziki soyqırımı siyasəti ilə yanaşı, mənəvi genosid siyasəti də yeridilmiş, qədim tarixə malik coğrafi adlar-toponimlər Ermənistan SSR Ali Soveti Rəyasət Heyətinin, Ermənistan Respublikası parlamentinin fərmanları ilə dəyişdirilmişdir. Bu siyasət bir neçə mərhələdə həyata keçirilmişdir:

1) 1801-1918-ci illərdə;
2) 1918-1920-ci illərdə;
3) 1920-1935-ci illərdə;
4) 1935-1989-cu illərdə;
5) 1989-2013-cü illərdə.

İndi Ermənistan adlanan ərazidə hun, sak, şirak, kimmer (qəmər), qarqar, gencək, peçeneq, abar, qazan, abdal, quşçu, kapan, qıpçaq, oğuz, avşar, bayat, bayandur, yayçı, ivə, qayı, çəpni, kənər, qaşqay, ayrım, qaraqoyunlu, sarıcalı, barani, baharlı və s. türk tayfaları yaşamışdır. Türk tayfalarının Qərbi Azərbaycanda yaşamaları bizim eradan əvvəl VIII-VII əsrlərdən başlayır. Bunu yazılı qaynaqlar, antik mənbələr, daş kitabələrlə yanaşı, ərazinin türk etnonimləri əsasında formalaşan toponimlər də (Hunud, Şəki, Gümrü, Ozanlar, Qəmərli, Qarqar, Şirak, Abaran, Qazan, Bayat, Afşar, Abdalağalı, Bcni, Polad Ayrım, Qaraqo: yunlu, Barana, Yayçı və s.) təsdiq edir.

Qərbi Azərbaycanın oykonimləri qədim türk sözləri (balıq, art, alp, bək, bayır, arbat, saz, kömür, örən və s.), dialektizmlər (nüvək, binə, qılınc, qənşər, cəbə və s.), Azərbaycan dilinə məxsus ümumişlək xarakterli leksik vahidlər (kənd, oba, qara, şiş, əyri və s.), eləcə də başqa dillərdən (ərəb, fars, urartu) keçib Azərbaycan dilində sabitləşən və toponim yaradıcılığında iştirak edən sözlər (abad, gərni, ayar, van, qala, zeyvə və s.) əsasında formalaşmışdır.

İndi Ermənistan adlanan Qərbi Azərbaycanın ərazisi dağlıqdır. Ərazi oroqrafik obyektlərlə zəngindir. Bunu yazılı qaynaqlarda (Azərbaycan, erməni, rus dilli mənbələrdə), 1847-ci və 1903-cü illərdə tərtib edilmiş hərbi topoqrafik xəritələr əksini tapan, eləcə də informatorlardan topladığımız oronimlərlə bağlı faktlar təsdiq edir. Bu oronimlər qədim tarixə malikdir. İndiki Ermənistanda erməni dilində yaranan oronimlər yoxdur. Oronimlərin hamısı Azərbaycan dilində yaranmışdır. Ərazinin oronimləri türk tayfalarının adları (şirak, arıqlı, bayat, abdal, varsaq, qazan, qaraqoyunlu, alagöz, kəngər, kənəkçi və s.), qədim türk sözləri (bak//bək, art, oy, yazı, bal, daşt, kömür və s.), müsbət (qaya, quzey, dik, yal, yoxuş, taxta və s.), mənfi (dərə, düz, qala, çuxur və s.) relyef bildirən sözlər, metoforikləşmiş sözlər (burun, daban, barmaq, bel, baş, qaş, və s.), Azərbaycan dilində işlənən ümumişlək sözlər (şiş, tüklü, arx, yaylaq, yayla, dəlik və s.) və coğrafi terminlər əsasında formalaşmışdır. Qərbi Azərbaycanda istər qədimdən, istərsə də müasir dövrdə mövcud olan karvansara, məhəllə, körpü, qala, meydan, tarla, meşə, çöl və s. adlar da tədqiqatdan kənarda qalmamalıdır. Bu sahədə də xüsusi tədqiqatların aparılmasına böyük ehtiyac vardır.

İbrahim Bayramov
ADPU-nun Elmi-təşkilati şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor

İrəvan şəhərində İslam irsinə qarşı erməni vandalizmi

Bu gün Ermənistan Respublikası adlanan Qərbi Azərbaycan ərazisində tarix boyu azərbaycanlılara məxsus minlərlə maddi-mədəniyyət nümunələri, tarixi-memarlıq abidələri, dini ibadət yerləri, pirlər, ocaqlar mövcud olmuşdur. Qədim alban tayfalarının, oğuz və qıpçaq boylarının xristianlıq mərhələsində mövcud olmuş tarixi-memarlıq abidələri VII əsrin ikinci yarısından etibarən regionda islam dininin bərqərar olmasından sonra tədricən erməni irsi kimi qələmə verilmişdir. İslam dininin qəbul edilməsindən sonra tərk edilən məbədlər xristian erməni missionerləri tərəfindən mənimsənilmişdir.

1441-ci ildə Qaraqoyunlu hökmdarı Cahan şahın razılığı ilə erməni katolikosluğu Kilikiyadan İrəvan yaxınlığında Valarşabad kəndindəki Üçkilsəyə - Eçmiədzinə köçürülmüşdür. Həmin vaxtdan etibarən ermənilər İrəvan ətrafında məskunlaşmağa başlamışlar. Avropa dövlətlərinin və Roma katolik kilsəsinin maliyyəsi hesabına erməni kilsələri ətrafındakı torpaqlar satın alınaraq ilk erməni yaşayış məskənləri meydana gəlmişdir. Simeon Erevansi "Cambr" əsərində və tarixçi A.Papazyanın Matenadaranda saxlanılan alqı-satqı sənədləri əsasında tərtib etdiyi kitabda Eçmiədzin kilsəsinin Suxur Səəd vilayətində azərbaycanlılara məxsus torpaqların kimdən, nə zaman və hansı qiymətə alınması barədə sənədlər əks olunmuşdur.Matenadaranda saxlanan alqı-satqı sənədlərində Üçkilsənin yerləşdiyi ərazinin Azərbaycan ölkəsinin Çuxur-Səəd vilayətində (rayonunda) yerləşdiyi qeyd edilir.

Ermənilər kütləvi surətdə indi Ermənistan adlanan əraziyə İrəvan xanlığının Rusiya tərəfindən işğalından sonra imzalanan Türkmənçay (1828) və Ədirnə (1829) müqavilələrinin şərtlərinə əsasən Qacarlar İranı və Osmanlı Türkiyəsindən köçürülüb gətirilmişdir.


Rus tədqiqatçısı və statistiki İvan Şopenin verdiyi məlumatların təhlilindən aydın olur ki, İrandan köçürülən ermənilər İrəvan şəhərində və İrəvan xanlığının ərazisindəki 119 kənddə, Türkiyədən köçürülən ermənilər isə 128 kənddə, üst-üstə 247 kənddə yerləşdirilmişdilər. Təbii ki, həmin kəndlərə ermənilərin köçürülüb gətirilməsinədək azərbaycanlı əhalinin qəbiristanlıqları və dini ibadət tikililəri mövcud olmuşdur. Həmin qəbiristanlıqlar və dini ibadət yerləri tədricən erməni vandalları tərəfindən yer üzündən silinmişdir.

Tarixi ədəbiyyatda İrəvan şəhərində 15-ə yaxın məscidin və iki erməni kilsəsinin adları keçir. Göy məscid (yaxud Hüseynəli xan), Qala məscidi (Sərdar, yaxud Abbas Mirzə), Şah Abbas, Div Sultan, Xudabəndə, Təpəbaşı, Zal xan (yaxud Şəhər), Sərtib xan, Hacı Novruzəli bəy, Dəmirbulaq, Hacı Cəfər bəy, Rəcəb paşa, Məhəmməd Sərtib xan, Hacı İnam məscidlərinin minarələri uzaqdan İrəvanın müsəlman şəhəri olmasını nişan verirdi.

İrəvan şəhərinin Rusiya işğalından sonra 1829-1832-ci illərdə kameral siyahıyaalma keçirən rus tarixçi-statistiki İvan Şopenin verdiyi məlumata görə, şəhərdə 8 məscid mövcud olmuşdur ki, onlardan 2-si Qalada, 6-sı isə şəhərdə yerləşmişdir.

1902-ci ildə İrəvan quberniyasının statistika komitəsinin "İrəvan quberniyasının yaddaş kitabçası" çap edilmişdir. Həmin kitabda göstərilir ki, İrəvan quberniyasında 310 məscid mövcuddur ki, onlardan 7-si İrəvan şəhərindədir.

1906-1911-ci illərdə İrəvan şəhərinin texniki işləmiş B.Mehrabov şəhərin planını və orada olan memarlıq abidələrinin siyahısını tərtib etmişdir. Mehrabov şəhərdə 8 məscid qeydə almışdır. Həmin məscidlər belə adlanırdı: Göy məscid, Qala məscidi, Təpəbaşı, Şəhər, Sərtib xan, Hacı Novruzəli bəy, Dəmirbulaq və Hacı Cəfər bəy məscidi.









Göy məscid

İrəvan şəhərini təsvir edən bütün səyyahların və tədqiqatçıların əsərlərində həm ölçülərinin miqyasına, həm də gözəlliyinə görə şəhərin ən möhtəşəm memarlıq abidəsi kimi, Göy məscidin (digər adı Hüseynəli xan məscidi) adı birinci çəkilir. Miqyasına görə İrəvandakı Göy məscid Qafqazda ən böyük məscid olmuşdur.

Şərq memarlığının nadir nümunələrindən hesab edilən Göy məscidin inşasına Hüseynəli xan Qacarın hakimiyyəti dövründə 1760-cı ildə başlanılmış, 1766-cı ildə başa çatdırılmışdır.

1833-cü ildə fransız geoloqu və arxeoloqu, naturaçı Fredrik Dyubua de Monpere Qafqaza və Krıma etdiyi səyahətinin nəticəsi olaraq 1839-cu ildə Parisdə çap etdirdiyi "Qafqaz ətrafına səyahət" əsərinin 3-cü cildində Göy məscidi ətraflı təsvir etmişdir. Onun çəkdiyi Göy məscidin rəsmi müəllifin adıçəkilən əsərinə əlavə olaraq 1840-cı ildə çap edilən "Atlas"ın üçüncü hissəsində yer almışdır. Dyubua de Monperenin çəkdiyi rəsmlərin qravüralarını Erkül Nikole hazırlamışdır.

Göy məscidin məşhur rus fotoqrafı Dmitri Yermakov tərəfindən XIX əsrin 80-90-cı illərində çəkilmiş fotoları onun 1896 və 1901-ci illərdə çap etdirdiyi albomlara daxil edilmişdir. Dmitri Yermakovun İrəvan məscidləri ilə bağlı çoxsaylı fotolarının bir qismi hazırda Simon Canaşiya adına Gürcüstan Dövlət Muzeyinin Yermakov fondunda və Şalva Amiranişvili adına İncəsənət Muzeyində saxlanılır.

1897-ci ildə alman incəsənət tarixçisi və arxeoloqu Fridrix Sarre İrəvanda olmuş, Göy məscidin müxtəlif rakurslardan fotolarını çəkmiş və sonradan həmin məscidləri müsəlman tarixi abidələri kimi elmi tədqiqat dövriyyəsinə cəlb etmişdir. F.Sarrenin çəkdiyi fotoların bir qismi hazırda Berlindəki Dövlət Muzeyinin İslam İncəsənəti bölməsində saxlanılır.

İrəvanın mərkəzindəki "Örtülü bazar"la üzbəüz yerləşən Göy məscidin ölçüləri 97,2 m X 66 m idi. Məscidin adı onun günbəzinin göy rəngli kaşı ilə üzlənməsi ilə bağlı idi. Məscidin həyətində fontanlı daş hovuz tikilmiş, ətrafına sıx kölgəli ağaclar əkilmişdi. Göy məsciddə ibadət üçün qadın və kişi zalları ayrıca olmuşdur ki, onlar da bir-biri ilə ya dəhliz, ya da pərdə ilə ayrılırdı. İbadət zallarının tavanı və divarları gül rəsmləri ilə bəzədilmişdi. Məscidin divarlardan və sütunlardan kişmir parçadan güllər düzəldilib asılırdı.

Erməni tarixçisi Tadevos Hakopyan "İrəvanın tarixi (1500-1800)" əsərində Eçmiədzin kilsəsinin yepiskopu Hovhanes Şahxatunyansa istinadən yazır: "Məscidin minarəsinin və günbəzinin bir hissəsi mavi saxsılarla üzlənmişdir. Əsas tikililər məscidin ərazisinin cənub və şimal tərəflərində idi. Yan tərəflərdə isə yardımçı tikililər və hücrələr yerləşirdi. Məscidin həyətində ətrafına sal daşlar döşənmiş və ağaclar əkilmiş bir balaca hovuz inşa edilmişdi. Məscidin üç qapısı olmuşdur. İki kiçik qapı şimal və şərq istiqamətinə, böyük giriş qapısı isə cənuba baxırdı. Məscid binası cənub səmtində yerləşirdi. Bina birbiri ilə bağlı üç zaldan ibarət idi. Məscidin günbəzi digər iki kiçik zaldan hündür olan böyük zalın üzərində idi. Sadə görkəmli zalların yalnız həyətə baxan pəncərələri şəbəkə üslubunda işlənilmiş və rəngli şüşələrlə bəzədilmişdi. Həyətin şimal hissəsində kiçik bir ibadətxana da var idi. Məscidin minarəsi çox gözəl idi və İrəvanın tikililəri arasında ən hündür olduğundan şəhərin hər yerindən görünürdü. Azançı onun başına çıxaraq hər gün müsəlmanları ibadətə çağırırdı. Məscidin cənub portalının üzərindəki kitabədə Hüseynəli xanın adı və tikilmə tarixi həkk olunmuşdu.

1893-1894-cü illərdə və 1898-ci ildə İrəvanda səfərdə olmuş məşhur Britaniya səyyahı və coğrafiyaşünası Henri Linç yazdığı "Armenia" əsərində Göy məscid haqqında ətraflı məlumat vermiş, onun minarələrinin, həyətindəki hovuzun və fasadının foto şəkillərini kitaba daxil etmişdir.

Azərbaycan arxeoloqu və epiqrafçısı İsa Əzimbəyov 1928-ci ildə İrəvanda ekspedisiyada olmuşdur. Ekspedisiyanın nəticələrinə dair İ.Əzimbəyovun yazdığı "Tiflisin, İrəvanın və Naxçıvanın müsəlman kitabələri" adlı məqaləsində qeyd edir ki, Göy məscid iki ayrı korpusdan – qış və yay korpuslarından ibarətdir. O, qış korpusunun kompleksin cənubunda, yay korpusunun isə şimalda inşa edildiyini, onların isə mədrəsə ilə əhatə olunduğunu yazır. İ.Əzimbəyov məscidin çox böyük həyətinin olduğunu, orada çinar və qovaq ağaclarının ucaldığını yazır.

Erməni müəlliflərinin verdikləri məlumata görə, XX əsrin 30-cu illərində İrəvandakı bütün məscidlərin sökülməsi qərara alınsa da, məşhur erməni şairi Yeğişe Çarensin ciddi səyləri nəticəsində onun "Mavi brilliant" adlandırdığı Göy məscid muzeyə çevrilməklə yer üzündən silinməkdən xilas edilmişdi. 1936-cı ildən Göy məscidin binasında İrəvan səhər tarix muzeyi yerləşdirilmişdi. İkinci Dünya müharibəsi başladıqdan sonra Göy məsciddən bir müddət həm də hərbi sursat anbarı kimi istifadə edilmişdi. Müharibədən sonra Göy məsciddə həmçinin Təbiət muzeyi və 1952-ci ildən etibarən isə məscidin kiçik ibadət zalında astronomiya həvəskarları üçün Planetariya fəaliyyət göstərmişdir.

Erməni sovet rəssamlarından Martiros Saryanın, Setrak Arakelyanın, Anuş Sahinyanın, Qabriel Gürcyanın 1920-1930-cu illərdə çəkdikləri rəsm əsərlərində İrəvan şəhərinin simvolu kimi Göy məscid əks etdirilmişdi

1991-ci ildə Ermənistan müstəqilliyini əldə etdikdən və müsəlman ölkələri ilə diplomatik münasibətlər qurulduqdan sonra Göy məscidin yenidən məscid kimi fəaliyyət göstərməsi zərurəti meydana çıxmışdı. 1991-ci ildə Təbiət muzeyi, 1994-cü ildə isə Tarix muzeyi məscid kompleksindən çıxarıldı.

1995-ci ildə İranla Ermənistan arasında imzalanan müqaviləyə əsasən İran hökuməti Göy məscidin yenidən qurulması xərclərini öz üzərinə götürdü. Rekonstruksiya işləri İranın "Bünyad-e Müstəzəfan və Canbazan" (Müharibə Veteranları və Şəhidlər") xeyriyyə fonduna həvalə edildi. Məsciddə son tamamlama işləri 2006-cı ildə başa çatdırılmışdır. Rekonstruksiya işləri məscid kompleksinin yalnız cənub-qərb və şimal hissəsində aparılmışdır. Göy məscidin 24 metrlik minarəsi, 28 hücrəsi, kitabxanası, böyük zalı, günbəzi və həyəti rekonstruksiya edilmişdir.

Ermənistan hökumətinin 2015-ci il dekabrın 10-da keçirilən iclasında Mesrop Maştos-12 ünvanında yerləşən Göy məscid haqqında Mədəniyyət Nazirliyinin təqdim etdiyi layihə müzakirə edilmişdir. Qərara alınmışdır ki, Göy məscid və onun yerləşdiyi ərazi istifadə hüququ ilə təmənnasız olaraq 99 illiyinə İran İslam Respublikasının Ermənistandakı səfirliyinə mədəniyyət mərkəzi kimi təhvil verilsin. Hazırda Ermənistan rəsmiləri Göy məscidi xaricdən gələn qonaqlara "fars məscidi" kimi təqdim edirlər.

Qala məscidi

Ayrı-ayrı dövrlərdə səyyahların əsərlərində, tədqiqatçıların araşdırmalarında İrəvan qalasındakı Sərdar sarayının yaxınlığında yerləşən məscid "Sərdar", yaxud "Abbas Mirzə" məscidi adlandırılıb. İrəvan qalasının çar Rusiyası işğalı dövrünə aid bəzi sənədlərdə bu məscidin adı "Abbas Mirzə" məscidi kimi hallandırılır. Görünür, həmin məscid XIX əsrin əvvəlində vəliəhd Abbas Mirzə tərəfindən yenidən qurulduğu üçün məhz onun adı ilə adlandırılmışdır. Alman tədqiqatçısı Avqust Haksthauzen 1843-cü ilin avqust ayında İrəvan şəhərində olmuş və Qalada olan iki məsciddən birinin (yəni Rəcəb paşa məscidinin) rus-yunan kilsəsinə, digərinin - Sərdar məscidinin isə silah anbarına çevrildiyini qeyd etmişdir.

Tanınmış rus arxeoloqu qrafinya Praskofya Uvarova 1880-ci ildə İrəvan şəhərində olmuş, Xan sarayının yaxınlığında yerləşən Sərdar məscidini Vereşşaginin fırçasından çıxan tabloya bənzətdiyini qeyd etmişdir.

İmperator Arxeoloji Komissiyasının qərarına əsasən 1911-ci ildə professor Nikolay Marr İrəvan xan sarayına baxış keçirmiş və saray kompleksinə daxil olan Abbas Mirzə məscidinin də vəziyyətini təsvir etmişdir. N.Marr İmperator Arxeoloji Komissiyasının 17 may 1912-ci il tarixli iclasında etdiyi məruzəsində yazırdı: "Məscid indi də yaxşı vəziyyətdədir, lakin onun qorunması üçün heç bir tədbir görülmür və hər şey Sərdar sarayının vəziyyətinə düşməsinə xidmət edir. Bununla belə, o, yerli müsəlman mədəniyyətinin qiymətli irsidir: günbəzin içərisində çevrəsi boyunca ərəb hərfləri ilə kitabə mövcuddur; mehrab üzərindəki naxışlar xalçaya bənzəyir və yüksək dərəcədə üslubludur. Günbəzi çat vermişdir və onu çoxdan təmir etmək olardı".

Lakin İrəvanda azərbaycanlılara məxsus digər maddi-mədəniyyət abidələri kimi, Abbas Mirzə məscidi də erməni vandalları tərəfindən tədricən hissə-hissə dağıdılmışdır. İsa Əzimbəyov yazır ki, Qalanın içərisində, Sərdar sarayının yaxınlığında yerləşən şah Abbasın adına inşa edilən məscid (yəni Sərdar məscidi-N.M.) yarıuçuq vəziyyətdədir və onun həyətində bir neçə erməni qaçqın ailəsi məskunlaşmışdır. O, həmin məscidin böyük həyətinin olduğunu, həyətin ortasında hovuz inşa edildiyini yazır.

XX əsrin əvvəllərində Sərdar məscidində Türkiyədən gələn erməni qaçqınları məskunlaşdırılmışdı. Sovet Ermənistanı dövründə isə Sərdar məscidi hissə-hissə sökülərək onun yerində yaşayış evləri tikimişdir.

2014-cü ilin payızında erməni vandalları bir gecənin içində Sərdar məscidinin qalıqlarını da yox etmişlər. Bütün bunlar həmin ərazinin əzəli sakinləri olan azərbaycanlıların mədəni irsinə olan düşmən münasibətinin əyani təzahürü, erməni vandalizminin bariz nümunəsidir.

Şəhər məscidi

İrəvanın Şəhər adlanan hissəsində yerləşmişdir. İrəvan xanı Zal xan dövründə 1649-cu ildə inşa edilmişdi. Ona görə həm də Zal xan məscidi adlanırdı. İrəvanda baş verən 1679-cu il zəlzələsi zamanı məscid dağılmış, sonradan yenidən bərpa edilmişdi. İngilis səyyahı Henri Linçin verdiyi məlumata görə, Şəhər camisinin üzərində ərəb əlifbası ilə türk dilində məscidin hicri tarixi ilə 1098-ci ildə tikildiyi– yəni miladi təqvimi ilə 1687-ci ildə inşa edildiyi yazılmışdır. Şəhər məscidi həcmcə Göy məsciddən nisbətən kiçik olsa da, çox gözəl olmuşdur.

Xarici görünüşünə görə Göy məscidə bənzəyən Zal xan məscidinin də dincəlmək üçün həyəti, sərin bağçası olmuşdur. Tədqiqatçıların verdikləri məlumata görə, Zal xan, yaxud Şəhər məscidi İrəvan şəhərinin mərkəzindəki hazırda Respublika meydanı adlanan ərazidə olmuşdur. 1928-ci ildə Şəhər məscidinin böyük zalı sökülərək onun yerində Yerevan" hoteli inşa edilmişdir. 1999-cu ildə rekonstruksiya edildikdən sonra həmin hotel hazırda "Golden Tulip Hotel Yerevan" adlanır.

İkimərtəbəli binası və çoxlu hücrələri olan Zal xan məscidinin mədrəsəsinin təyinatı İkinci Dünya müharibəsindən sonra dəyişdirilmişdir. Hazırda həmin binada Rəssamlar evinin sərgi salonu yerləşir.Azərbaycan Respublikası Dövlət Arxivində saxlanılan 1949-cu ilə aid bir arxiv sənədində Zal xan məscidinin sərgi zalı kimi istifadə edildiyi göstərilmişdir.

Sərtib xan məscidi

İrəvanın Şəhər hissəsində Şeyxülislam küçəsində yerləşib. Dəmirbulaq məhəlləsində Məhəmməd Sərtib xan tərəfindən XIX əsrin əvvəlində inşa edilmişdir. Məhəmməd Sərtib xan İrəvanın 1827-ci ildə Rusiya tərəfindən işğalından sonra şəhər idarəetmə sistemində azərbaycanlıları təmsil etmişdir. Sərtib xan məscidi indiki Xaçik Daştens adına 114 saylı məktəbin həyətində, Hanrapetutyan 73 ünvanında yerləşib. Məscidin kisik minarəsi olmuşdur. Mədrəsəsi ilə birlikdə böyük kompleks təşkil etmişdir. Sərtib xan məscidinin binası yeni tikilən binaların arasında 1960-cı illərdə mövcud olmuşdur. Daha sonra erməni vandalları tərəfindən yer üzündən silinmişdir.

Hacı Novruzəli bəy məscidi

İrəvanın Şəhər hissəsində Zöhrab küçəsində mövcud olmuşdur. Şəhər hissəi ilə Dəmirbulaq hissəsinin kəsişməsində yerləşirdi. XVIII əsrin sonlarında inşa edildiyi təxmin edilir. 1950-ci ilədək uçuq-sökük vəziyyətdə qalırdı. İndiki Vizantiya və Ağasi Xancyan küçələrinin kəsişməsində inşa edilən Vernisajın (açıq səma altında incəsənət mallarının satış mərkəzi) yerində mövcud olmuşdur.

Dəmirbulaq məscidi

Dəmirbulaq məscidi Gedər çayının üzərindəki körpünün yaxınlığında yerləşdiyi üçün onu Körpüqulağı məscidi də adlandırmışlar. İrəvan şəhərində 1988-ci ilədək fəaliyyət göstərən yeganə məscid Çətirli məscid və yaxud yerləşdiyi ərazinin adına uyğun olaraq adlandırılan Dəmirbulaq məscidi olmuşdur. Üzərindəki kitabədə məscidin hicri təqvimi ilə 1327-ci ildə - yəni miladi təqvimi ilə 1909-cu ildə inşa edildiyi göstərilmişdi. Məscidin minarəsi yox idi. Əvəzində məscid binasının damında açıq havada 1,5-2 metr hündürlüyündə kvadrat şəkilli meydança inşa edilmiş, onun üzərində dəmir barmaqlıqlarla əhatələnmiş məhəccər quraşdırılmışdı. Dörd yanı açıq olan məhəccərin üstü dəmir təbəqə ilə örtüldüyündən bu məscid Çətirli məscid adlanırdı. Ermənistan SSR Nazirlər Sovetinin yanında Erməni Kilsələri Şurasının 17 avqust 1981-ci ildə verdiyi arayışda Babayev Əkbər Cəfər oğlunun Dəmirbulaq məscidinin icraiyyə orqanının sədri olduğu göstərilir. Həmin orqanın 2 iyun 1985-ci ildə verdiyi digər arayışda Myasnikyan rayonu, Nərimanov küçəsi-145

Ardı 9-cu səhifədə

(hazırda Vardanans küçəsi) ünvanında yerləşən Dəmirbulaq məscidi üçün siqnalizasiya quraşdırılması məsələsi qaldırılmışdır.

1988-ci ilin fevralında Dağlıq Qarabağda erməni separatizminin baş qaldırmasından sonra İrəvanda fasiləsiz mitinqlər keçirilirdi. Fevralın 23-də erməni quldurları İrəvan şəhərindəki Dəmirbulaq məscidini və yaxınlığındakı M.F.Axundov adına 9 №-li azərbaycanlı orta məktəbin binasını yandırmışdılar.

Tədqiqatçı Tomas de Vaal 2000-ci ildə İrəvanda səfərdə olarkən Robert Kullenin təsvir etdiyi yerə getmişdir. Tomas de Vaal yazır: "İrəvan sirlərlə dolu şəhərdir. Mənə elə gəlir ki onlardan biri mərkəzi meydanın yaxınlığında Vardanans küçəsindəki 22 №-li çoxmərtəbəli yaşayış evinin arxasında yerləşir. Dar daş pilləkənlər məni ətrafı paslanmış qarajlar, kərpic və qum qalaqlarından ibarət boş bir məkana gətirib çıxartdı. Mən demək olar ki, əmin idim ki, məhz bu məkanda nə vaxtsa İrəvan azərbaycanlılarının istifadə etdiyi məscid dayanmışdı".

Görünür, ermənilər İrəvandakı ibadətə açıq olan yeganə azərbaycanlı məscidini sökmək üçün mitinqlərin birində şayiə yaymışlar ki, guya azərbaycanlılar Bakıda erməni kilsəsini sökmüşlər. Bakıda söküldüyü söylənilən erməni kilsəsinin əvəzini çıxmaq üçün mitinq iştirakçılarını qızışdıraraq Dəmirbulaq məscidini sökməyə göndərmişlər. Üç gün ərzində erməni vandalları Allahın ibadət yerini yerlə yeksan etmişdilər.

Ermənilər Bakıdakı erməni kilsəsinin sökülməsi xəbəri məqsədli şəkildə yayılmışdı ki, Ermənistan ərazisində mövcud olan azərbaycanlılara məxsus mədəni irsin yer üzündən silinməsinə ermənisayağı bəraət qazandırılsın. Halbuki, Bakıda mövcud olan yeganə erməni kilsəsi tarixi-memarlıq abidəsi kimi dövlət tərəfindən mühafizə edilir.

Təpəbaşı məscidi

Təpəbaşı yaşayış massivində yerləşən məscidin adı tarixi ədəbiyyatda Hacı İmamverdi məscidi kimi çəkilir. Rusiya işğalı zamanı Təpəbaşı küçəsində yerləşdiyi göstərilir . Məscisin 1687-ci ildə inşa edildiyi qeyd edilir. Daha sonralar yerləşdiyi ərazinin adı ilə Təpəbaşı məscidi adlanmışdır. Məscidin gümbəzi 1960-cı illərdə uçmuşdur. Divarlarının qalınlığı təqribən 1,5 metr olan məscidin içərisindəki axundun otağında hazırda bir erməni ailəsi yaşayır. Məscidin ətrafında bir çayxana da var idi ki, müsəlmanlar yığışıb çay içərdilər. Məscidin həyətində və ətrafında ermənilər gecəqondular inşa etmişlər. İrəvan xanı Hüseynəli xanın nəticəsi, şəhər idarəsinin (upravasının) üzvü olmuş Abbasqulu xan İrəvanskinin evi Təpəbaşı məscidinə yaxın ərazidə yerləşdiyi üçün həmin məscid son dövrlərdə Abbasqulu xan məscidi adlanırdı. Hazırda dağıdılmış vəziyyətdə olan Abbasqulu xanın evini ermənilər hələ də "Xanın evi" adlandırırlar. Məscidin günbəzi 1988-ci ildə "qəfildən" uçub.

Ümummilli lider Heydər Əliyev Qərbi Azərbaycandan zaman-zaman deportasiya edilən azərbaycanlıların öz yer-yurdlarına qayıdacaqlarına inandığını bildirirdi. O, 10 dekabr 1998-ci ildə "İslam sivilizasiyası Qafqazda" mövzusunda Bakıda keçirilən beynəlxalq simpoziumun iştirakçılarının bir qrupu ilə görüşündə demişdi: ***"İndi Ermənistan adlanan ərazi, Qərbi Azərbaycan – İrəvan mahalı, Göyçə mahalı, Zəngibasar mahalı, Zəngəzur mahalı – bunlar hamısı müsəlmanlar, azərbaycanlılar yaşayan diyarlar olubdur. Təəssüf ki, bu ərazilərdən, diyarlardan müsəlmanlar çıxarılıblar, indi bu ərazilərdə bir nəfər də olsun müsəlman yoxdur. Bu da Ermənistan millətçiliyi, erməni ekstremizmi, erməni şovinizmi siyasətinin nəticəsidir."***

Yuxarıda sadalanan faktlar sübut edir ki, təkcə İrəvan şəhərində deyil, bütövlükdə hazırda Ermənistan adlanan və özünü dünyanın sivil ölkəsi kimi beynəlxalq aləmə təqdim etməyə çalışan bir dövlətin ərazisində azərbaycanlılara məxsus tarixi-memarlıq abidələrinə, onların maddi irsinə qarşı sözün həqiqi mənasında mədəni vandalizm aktları həyata keçirilməsi bu gün də davam etdirilir.

Nazim Mustafa
Prezident Kitabxanasının
şöbə müdiri, Dövlət Mükafatı
laureatı, tarix üzrə fəlsəfə doktoru

Qərbi Azərbaycanın tarixi və maddi-mədəni irsi

"Qərbi Azərbaycan bizim tarixi torpağımızdır. Bunu bir çox tarixi sənədlər, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər".

Ölkə rəhbərinin səsləndirdiyi bu çağırış xüsusi önəm kəsb edir. Prezidentin vurğuladığı, xüsusi diqqət ayırdığı, çağırış etdiyi bu məsələ İrəvan, Göyçə, Zəngəzur kimi tarixi Azərbaycan torpaqlarını tərk etməyə məcbur edilmiş, hazırda Azərbaycanın indiki ərazisində yaşayan azərbaycanlıların tarixi və mədəni irsidir. Azərbaycan dövlətçiliyinin varislərindən olan İrəvan xanlığı çox da uzaq tarix deyil. Buna görə də, hazırda taleyi və tarixi elmi dövriyyədən kənarda saxlanmadan Qərbi Azərbaycan məsələsinin tədqiq və təbliğ edilməsi zərurəti yaranıb. Milli, mədəni, elmi və tarixi baxımdan bu tarixi məsələnin tədqiq və təbliğ edilməsi soykökünə bağlılıq, milli özünüdərk, milli tarixi şüur habelə milli kimlik və milli mədəni irs məsələləri ilə bağlı tarixşünaslığımızda çoxdan bəri kök salmış böyük bir boşluğu doldurmağa, həmçinin bir çox cavabı dəqiq olmayan müzakirəli məsələləri aradan qaldırmağa təsir göstərə bilər.

Bu baxımdan Vətən müharibəsində əldə edilən tarixi qələbə xalqımızın müqəddəratının yeni mərhələsi zəminində geniş üfüqlər açdı. 44 günlük tarixi savaşda qazanılan qələbə və nailiyyətlər soykökünə bağlılıq və milli özünüdərk, habelə milli dirçəliş və milli intibah tarixşünaslığımızda çoxdan kök salmış böyük bir boşluğu aradan qaldırmağa ciddi təkan verdi. Tarixi qələbə müqəddəratımızın təyini haqda yeni strategiyalar və hədəflər müəyyən etməklə yanaşı, həm də keçmişimizə həssas münasibət, onu yenidən qiymətləndirmə fürsətləri və çoxəsrlik tarixi maddi-mədəni-mənəvi irsimizi yenidən və daha dərindən tədqiq etmək öhdəliyini qoydu.

Qərbi Azərbaycanın qısa tarixi

Azərbaycanlılar indiki Ermənistan ərazisində e.ə. II yüzillikdən yaşamağa başlayıblar. Kimmer, sak, quqar, şirak, qarqar, şadılı, kəngərli, cinli, oğuz, sabunçu, baharlı, bayandur, əfqan, qacar, qazax, əfşar, xalac, şamlı, ustaclı, türkmən, ayrım, qarapapaq, zəngi, muğanlı, bayat, ilxıçı, kolanı, qacar, kürəkənli (körakanlı) və b. türk qövmləri bölgədə yaşayan köklü tayfalar olublar. Qərbi Azərbaycan ərazisində, həmçinin Azərbaycan türklərinin soykökündə iştirak etmiş varsaq, barsil, şiraq (siraq), qaşqay, saq, arsaq, bulqar kimi türk tayfaları da çox qədim zamanlardan bu ərazilərdə başlayıblar. Tarixi Azərbaycan torpaqları olan Qərbi Azərbaycanın ərazisi e.ə.IV əsrə qədər qədim Azərbaycan dövləti Albaniyanın tərkib hissəsi olub. Albaniyanın hakimiyyəti dövründə ərazidə məbədlər, qalalar, saraylar və müxtəlif mənşəli maddi-mədəni irs nümunəsi inşa edilib. VIII-IX əsrlərdə Ərəb xilafəti dövründə Qərbi Azərbaycanda məscidlər tikilib, İslam dini və mədəniyyəti yayılıb. Bu əhalinin ədət-ənənə və həyat şəraitinə də təsir edib. XI-XIII əsrlərdə Səlcuqlu dövləti dövründə bölgə siyasi və strateji mərkəz kimi daha çox əhəmiyyət qazanıb. XIII-XIV əsrlərdə Böyük Monqol İmperiyasının dövründə ərazi daha çox dağıntılar və istilaya məruz qalıb.

Qərbi Azərbaycan 1410-1468-ci illərdə Qaraqoyunlu, 1468-1501-ci illərdə Ağqoyunlu, 1501-1736-cı illərdə Səfəvilər dövlətinin tərkib hissəsi olduğu dövrdə inkişaf edib. Saraylar, məscidlər, karvansaralar, körpülər tikilib, yollar çəkilib. İrəvan və Zəngəzur ticarət mərkəzinə çevrilib. 1736-1747-ci illərdə Əfşarlar dövləti dövründə bölgə yeni böyük müharibə və mübarizələr meydanı olmuşdur. XVI əsrin sonları və XVIII yüzilin 20-ci illəri Osmanlı-Səfəvi müharibələrin şiddətlənməsi ilə İrəvan xanlığı iki dəfə Osmanlı imperiyasının tərkibinə keçmişdi. Osmanlı idarəçiliyində İrəvan xanlığı ərazisi daha sürətlə inkişaf edib yeni idarəetmə strukturu formalaşdırılıb. Sərdar məscidi Osmanlı dövründə tikilib saraylar, körpülər, karvansaralar, ticarət mərkəzləri inşa edilib. Qərbi Azərbaycan uzun yüz illər boyu azərbaycanlıların yaşadığı qədim yurd olub. Bütün tarixi dövrlərdə azərbaycanlılar İrəvan əhalisinin etnik tərkibində əsas abarogen millət kimi yer tutub.

XIX əsrin əvvəllərində regionda siyasi maraqları olan böyük dövlətlərin dəstəyi ilə Qarabağ xanlığı ilə Rusiya arasında imzalanan Kürəkçay(1805) müqaviləsi, Rusiya və İran dövlətləri arasında bağlanan Gülüstan (1813), Türkmənçay(1828) müqaviləsi daha sonra isə Türkiyə və İran arasında bağlanan Ədirnə(1829) sülh müqavilələrindən sonra Azərbaycan torpaqlarına ermənilərin kütləvi köçürülməsi siyasəti həyata keçirilib. Bölgənin erməniləşdirməsi siyasətini həyata keçirmək məqsədilə İrəvan, Göyçə, Zəngəzur və Zəngibasar bölgəsində yaşayan azərbaycanlıların öz tarixi yurdlarından deportasiyasına və soyqırımına start verilib. İran və Türkiyədən isə ermənilərin bu ərazilərə köçürülməsi ilə əhalinin etnik tərkibi dəyişdi.

1918-ci il mayın 28-də daşnaklar tərəfindən qədim Azərbaycan ərazisi olan keçmiş İrəvan xanlığı ərazisində yaradılıb. 1923-cü il iyulun 7-də isə vaxtilə İrandan və Osmanlı imperiyası ərazisindən Qarabağ xanlığının ərazisinə köçürülən ermənilərə süni surətdə muxtariyyət hüququ verilməklə, Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılıb. Sovet hakimiyyətinin ilk illərində Zəngəzur qəzasının bir hissəsi Ermənistana verilməklə Naxçıvan torpağı Azərbaycandan, Türkiyə isə türk dünyasından ayrı salınıb. Böyük dövlətlərin dəstəyi ilə əcdadlarımızın Oğuz yurdu Qərbi Azərbaycanı qəsb edən gəlmə ermənilər azərbaycanlılara məxsus ərazilərdə məskunlaşdıqdan sonra onlara məxsus maddi-mədəniyyət nümunələrini məhv etməklə, izlərini silməyə çalışmış, bu, mümkün olmadıqda isə həmin maddi-mədəniyyət nümunələrinin "qədim ermənilərə" aid olmaları barədə saxta tarix yazaraq dünya ictimaiyyətini aldatmağa başlamışlar.

Bütün bunlarla yanaşı, 1905-1907, 1918-1920, 1948-1953, 1959-1979, 1987-1991-ci illərdə "monoetnik Ermənistan" dövləti yaratmaq məqsədi ilə həmin ərazilərdən azərbaycanlıların etnik təmizlənməsi siyasəti həyata keçirilib. 1987-1991-ci illərdə baş verən son deportasiya zamanı 22 rayondan (172 sırf azərbaycanlı, 89 ermənilərlə qarışıq yaşayış məntəqələrindən 40.928 ailə) 300.000-dən çox azərbaycanlı ata-baba yurdlarından zorla çıxarılıb. 1987-1991-ci illərdə azərbaycanlıların Ermənistanda əsrlər boyu yaşadıqları 8 min kv.km əhatə edən yaşayış məntəqəsindən azərbaycanlının qovulduğu və 216 nəfər azərbaycanlının (o cümlədən, 57 qadın və 23 uşaq) qətlə yetirildiyi göstərilir. İşgəncələrə məruz qalaraq öldürülmüş 203 nəfərin işi ilə bağlı SSRİ prokurorluğuna və Azərbaycan istintaq orqanlarına göndərilmiş materiallardan məlum olur ki, onlardan 14 nəfəri odlu silahla, 45 nəfəri döyülərək, 13 nəfəri yandırılaraq, 131 nəfəri isə müxtəlif işgəncələrlə məruz qalaraq öldürülüb.

Ermənilərin tarixi Azərbaycan torpaqlarına köçürülməsi nəticəsində bölgədə əhalinin etnik tərkibi dəyişib, Qafqaz regionu iğtişaş və münaqişə mənbəyinə çevrilib. Soyqırımı, deportasiya, eyni zamanda soydaşlarımıza məxsus yaşayış məskənlərinin, tarix və mədəniyyət abidələrinin dağıdılması, azərbaycanlılara aid maddi-mədəniyyət nümunələrinin tarixi adlarının dəyişdirilməsi, erməniləşdirməyə məruz qoyaraq, bölgədəki azərbaycanlı izlərinin silinməsi cəhdləri, bu mümkün olmadıqda isə həmin maddi-mədəniyyət abidələrinin ya məhv edilməsi, ya da "qədim ermənilərə məxsusluğu" barədə saxta sənədlərin hazırlanması kimi hallar onların mənfur siyasətinin tərkib hissəsi idi.

Qərbi Azərbaycanın maddi-mədəni irsi

Qərbi Azərbaycanda yaşayan azərbaycanlılar orada yaşadığı dövrdə ərazinin qədim və əzəli sakini kimi tarixin bütün dövrlərini əhatə edən, onun orada fiziki varlığını göstərən zəngin milli maddi-mədəni və miras irs yaradıb. Azərbaycanlıların yaratdığı zəngin mədəniyyət əsrlərdən bəri qorunub saxlanmış müxtəlif mənşəli abidələrdə yaşayıb, xalqın, millətin milli mənəviyyatını özündə əks etdirir. Yüzilliklər ötdükcə, zaman keçdikcə xalqın yaratdığı və nəsillərə qoyduğu maddi-mədəni miras daha da əzəmətli, möhtəşəm görünür. Maddi-mədəni miras xalqın keçmiş qüdrətinin, əzəmətinin tarixi yaddaşı kimi bu mədəniyyətin varislərinin varlığını qürur hissi ilə doldurur. Maddi-mədəniyyət, memarlıq abidələri, toponimlər bir millətin müəyyən coğrafi məkanda formalaşmasını təsdiqləyən ən tutarlı və mühüm tarixi dəyəri olan sənədlərdir. Ona görə də zaman keçdikcə bu mədəni miras zəngin xəzinəyə çevrilir.

Qərbi Azərbaycanın qədim tarixinin arxeoloji baxımdan öyrənilməsi XIX əsrin 70-ci illərinə qədər sistemsiz şəkildə aparılmışdır. 70-ci illərdən etibarən Qafqazın, o cümlədən Qərbi Azərbaycanın arxeoloji cəhətdən öyrənilməsində yeni mühüm addım atıldı. 1871-ci ilin oktyabrında Tiflis şəhərində Qafqaz Arxeoloji Komitəsi təsis edildi. 1872-ci ildə qurum Qafqaz Arxeologiya Həvəskarları Cəmiyyəti adlandırıldı. Qərbi Azərbaycanda ilk arxeoloji qazıntı və tədqiqat 1886-1889-cu illərdə Fransalı arxeoloq Jak de Morqan tərəfindən bir sıra qazıntı işləri aparılıb. Qazıntı işləri zamanı son tunc və dəmir dövrünə dair bir çox əşyalar, qəbir abidəsini tədqiq etdi. Burada tapılan maddi mədəniyyət yadigarları Qərbi Azərbaycanın tunc və ilk dəmir dövrü tarixi inkişafı haqqında məlumat verir. O, üzə çıxardığı abidələrin ən nəfislərini Parisin Sen Jermen muzeyinə göndərdi. Bu materialları sonralar elmi baxımdan tədqiq edən Jak de Morqana görə Qərbi Azərbaycan ərazisində ilk insanlar tunc dövründən yaşadığı haqda məlumat verdi



XIX əsrin 90-cı illərindən başlayaraq Qərbi Azərbaycanın maddi-mədəni irsinə və mədəniyyət tarixinə arxeoloqların marağı daha da artdı. 1896-1899-cu illərdə Moskva Arxeoloji Cəmiyyətinin tapşırığı ilə cəmiyyətin üzvü A.A.İvanovski Göyçə gölü kənarındakı ərazilərdə arxeoloji qazıntı işləri aparıb, Oğuz qəbirləri aşkar etdilər, Oradan üzə çıxarılan çox qiymətli maddi mədəniyyət abidələri Moskva Dövlət Tarix Muzeyinə göndərildi. Bu nümunələri ilk dəfə elmi cəhətdən tədqiq edən A.A.İvanovski əldə etdiyi nəticələri "Qafqaz arxeologiyasının materialları» toplusunda çap etdirdiyi "Zaqafqaziya haqqında" hesabatında ümumiləşdirdi. Lakin hesabatda tədqiq edilən abidələrin, aşkara çıxarılan qəbirlərin xəritələri haqqında məlumat verilməyib və xəritə məxfi saxlanılıb. Daha sonrakı dövrlərdə xəritəni əldə edən erməni arxeoloqlar o xəritə əsasında Göyçə gölü ətrafı ərazilərində və orada yerləşən qalalarda qazıntı işləri aparıb, oradan çıxardılan əşyaları İrəvan dövlət muzeyi və Moskva dövlət muzeyinə göndəriblər.

1987-1991-ci illərdəki sonuncu kütləvi deportasiyadan sonra azərbaycanlılara aid yaşayış məskənləri ilə birlikdə tarixi Azərbaycan torpaqlarındakı müqəddəs sakral inanış məkanı Hacı Baba piri, Bəzirgan piri, Qaradaş ziyarətgahı, Qarabulaq ziyarətgahı, Qızıldağ ocağı, Məhbub ocağı, Ocaqlı piri, Seyid Məmiş piri, Süd daşı piri, Toparlı piri, Üç qardaş piri, Sərdar məscidi, Təpəbaşı məscidi, Ağadədə məscidi, Loru qala məscidi, Gümrü məscidi, Xoca Bazar kənd məscidi, Qaraçanta məscidi, Püsək kənd məscidi, Şirvanlı məscidi, Şeyx İsmayıl Siracəddin Şirvani məscidi, Masdərə kənd qəbirüstü abidələri, Çıkıvəng məbədi, Ataxan qalası, Aşağı Zağalı qalası, Buğdayitəpə qalası, Əliqırx qalası, Ərqüş qalası, Koroğlu qalası, Qalaça dağında qala, Qızıldağ qalası, Qız qalası, Səngər qalası, Çırpılı karvansarası, Qurduqulu karvansarası, Nüvədi kənd karvansarası, Mığrı karvansarası, Uşi kəndində karvansara, Mir Həmzə Nigari türbəsi, Göy Məmməd günbəzi, Qoşabulaq kəndində qəbirüstü arxeoloji-etnoqrafik abidələr, Qızıl Qoç kəndində qəbirüstü heykəl, Aşağı Zağalı kəndində kurqan qəbirlər, Salah kəndində daş körpü, Babacan kəndində daşüstü kitabələr, Basarkeçər rayonunda Müsəlman din məktəbi, Dilican şəhərində Tatar (azərbaycanlı) məhəlləsi, Çamırlı kəndində mədrəsə, Abdalağalı kənd qayaüstü təsvirləri, Adıyaman kəndində orta yüzilliyə aid evlər, Ağparax kəndində istehkam divarları, Bazarçay vadisində qədim mağaralar yüzlərlə alban-türk tarixi-memarlıq abidələri, saraylar, karvansaralar, imarətlər, məscidlər, məqbərələr, alban türk-oğuz qəbiristanlıqları, qəbirüstü abidələr erməni işğalı altına düşdü.

1918–1991-ci illərdən başlayaraq Qərbi Azərbaycanda azərbaycanlıların tərk etmək məcburiyyətində qaldıqları ərazilərdə 234 məktəb, 214 kitabxana, 268 mədəniyyət müəssisəsi, 235 səhiyyə ocağı, 112 uşaq bağçası, 152 məişət evi ermənilər tərəfindən zəbt edilib. 223 qəbiristanlıq, 600 alban məbədi, 400 məscid, 150 pir/ocaq/ziyarətgah, 1500 qəbirüstü abidə və minlərlə tarixi-memarlıq abidəsi tədricən vandalizmə məruz qalıb. Ümumilikdə, 5000-dən çox tarixi, dini və maddi-mədəniyyət abidəsi ermənilər tərəfindən şüurlu, planlı şəkildə məhv edilib, mənimsənilib, Hazırda Ermənistan ərazisində – İrəvanda yalnız Göy məscid, bölgələrdə isə bir neçə məscid qismən salamat qalıb ki, onlar da konstruktiv dəyişikliklərdən sonra fars (İran) məscidi kimi təqdim edilir. Həyata keçirilən bu dağıdıcı fəaliyyətin kökündə irqçilik və nifrət dayanır.

Əfqan Vəliyev
Qərbi Azərbaycan İcmasının
Ziyalılar Şurasının üzvü,
sosiologiya üzrə fəlsəfə doktoru

İrəvan kişi gimnaziyasının məzunları

1881-ci ildə təşkil edilən İrəvan kişi gimnaziyasının həyatında 1885-ci il ilk məzunların yola salınması ilə yadda qaldı. Məzunların sayı (cəmi 6 nəfər) olsa da bu, çox böyük hadisə idi. Mərkəzdən xeyli uzaqda yerləşən İrəvan şəhərində gimnaziyanı formalaşdırmaq, fənn müəllimləri ilə təmin etmək olduqca çətin və məsuliyyətli bir iş idi. Bu işin öhdəsindən gimnaziyanın ilk direktoru V.İ.Brajnikov uğurla gəldi.

1885-ci ildə İrəvan kişi gimnaziyasının 6 nəfər məzunundan 1-i gimnaziyanı qızıl, 1-i isə gümüş medalla başa vurmuşdu. Məzunlardan 1-i Xarkov Universitetinin Tibb, 1-i Fizika-riyaziyyat, 2-si Moskva Universitetinin Hüquq, 1-i Fizika -riyaziyyat,1-i Filologiya fakültəsinə daxil olmuşdur. 1886-cı ildə İrəvan kişi gimnaziyasını bitirən 6 nəfərdən 2-si gimnaziyanı gümüş medalla başa vurmuşdu ki, onlardan da biri Məmməd bəy Qazıyev elə həmin il Moskva İmperator Universitetinin Hüquq fakültəsinə daxil olmuşdur. Digər 5 nəfərdən 1-i Moskva Universitetinin Hüquq, 2-si Tibb, 2-si Xarkov Universitetinin Tibb fakültələrinə qəbul olunmuşdular.

1887-ci ildə İrəvan kişi gimnaziyasını bitirən 4 nəfərdən 1-i azərbaycanlı Əsədulla bəy Kəngərli idi ki, o da həmin il Xarkov Universitetinin Hüquq fakültəsinə daxil olmuşdur. Digər 3 nəfərdən (A.Orduxanov, M.Qənbərov, A.Solomonov) 1-i Moskva Universitetinin Hüquq, 2-si Tibb fakültəsinə qəbul olunmuşdu.1888-ci ildə İrəvan kişi gimnaziyasını bitirən 6 nəfərdən 1-i gimnaziyanı qızıl, 1-i gümüş medalla bitirmişdir. Məzunlardan 2-si Moskva İmperator Universitetinin Hüquq, 1-i Tibb, 1-i Təbiət, 1-i Qazan Universitetinin Hüquq, 1-i Novorossiya Universitetinin fizika-riyaziyyat fakültəsinə qəbul olmuşdur. 3 il ərzində gimnaziyanı cəmi 22 nəfər kamal attestatı ilə başa vurmuşdur.

1889-cu ildə İrəvan kişi gimnaziyasını bitirən 6 nəfərdən (M.Karaxanov, Y.Muradxanov, P.Konstantin, M.Poqrebnoy, A.Qabriyelov, D.Urazov) 1-i gimnaziyanı qızıl, 1-i gümüş medalla bitirmişdi. Onlardan 2-si Moskva Universitetinin Tibb, 1-i Hüquq, 1-i Təbiət, 1-i Sankt-Peterburq Universitetinin Təbiət fakültəsinə daxil olmuşdur. Paul Konstantin isə ali təhsil almadan dövlət qulluğunda işə başlamışdır.

1890-cı ildə gimnaziyanın 6-cı buraxılışı baş tutdu. 1895-1890-cı illərdə gimnaziyanı 39 nəfər bitirmişdi ki, onlardan da 11- i həmin ilin məzunu idi. 11 nəfər məzundan 3-ü azərbaycanlı (27,2%), 4-ü rus (36,3%), 4-ü erməni (36,3%) olmuşdur ki, onlardan da 6-sı Rusiya universitetlərinin Hüquq, 2-si Tibb, 2-si Riyaziyyat, 1-i isə Şərq dilləri fakültəsinə daxil olmuşdur. Hesabat ilində gimnaziyada təhsil alan şagirdlərin cəmi 9%-ni azərbaycanlıların təşkil etdiyini nəzərə alsaq, azərbaycanlı məzunların 27,2% təşkil etməsi çox yüksək nəticədir.



1892-ci ildə gimnaziyanın tam kursunu 11 nəfər attestatla bitirmişdir ki, onların da hamısı Rusiyanın ali məktəblərinə daxil olmuşdur. 1893-cü ildə gimnaziyanın tam kursunu 8 nəfər attestatla bitirmişdir. Ümumiyyətlə, gimnaziyanın tam kursunu bitirərək attestat almaq çox çətin idi. Müqayisə üçün qeyd edək ki, 1893-cü ildə İrəvan Müəllimlər Seminariyasında təhsil alan 52 nəfərdən 15-i məzun olduğu halda, İrəvan kişi gimnaziyanda 253 şagirddən yalnız 8-i attestat ala bilmişdi. 1894-cü ildə gimnaziyanın 10-cu buraxılışı olmuşdur. Qafqaz Təhsil Dairəsinin popeçiteli K.Yanovskinin hesabatına görə, 10 il ərzində gimnaziyanı 77 nəfər attestatla (onlardan da 13 nəfəri həmin ildə) başa vurmuşdu.

Hesabat ilində gimnaziyanı bitirən şagirdlərin 13 nəfərindən 1-i azərbaycanlı olmuşdur. Məzunlardan 1 nəfərinin yaşı 18, 4 nəfərinin yaşı 19, 2 nəfərinin yaşı 20, 6 nəfərinin yaşı 21-dən yuxarı olmuş, 1-i gimnaziyanı qızıl medalla bitirmişdir. 13 nəfərin 5-i Rusiya universitetlərinin Hüquq, 5-i Tibb, 3-ü Fizika-riyaziyyat fakültəsinə daxil olmuş, 1 nəfəri hərbidə xidmətə başlamışdır.

1895-ci ildə gimnaziyanı 14 nəfər bitirmiş, 30 nəfər xaric (22-si ərizəsinə, 7-si təlim uğursuzluğuna, 1-i təhsil haqqına görə) edilmişdir. 14 nəfərdən əlavə olaraq 1 nəfər də gimnaziyada komissiya qarşısında ekstern imtahan verərək attestat almışdır. 15 nəfərin 2-si Rusiya universitetlərinin Filologiya, 5-i Hüquq, 4-ü Tibb, 4-ü Riyaziyyat fakültəsinə daxil olmuşdur. Məzunlardan 1 nəfəri azərbaycanlı, 14-ü rus, gürcü, erməni və digər xalqların nümayəndələri olmuşdur.

1896-ci ildə gimnaziyanı bitirən 14 nəfərdən 1-i qızıl, 2-si gümüş medalla təltif olunmuş, 27-si xaric (21 nəfər ərizəsinə, 6 nəfər təlim uğursuzluğuna görə) edilmişdir. 14 nəfərin 8-i Rusiya universitetlərinin Hüquq, 3-ü Tibb, 1-i Riyaziyyat fakültəsinə, 2 nəfər isə Ali Texnoloji Məktəbə daxil olmuşdur.

1897-ci ildə gimnaziyanın 13-cü buraxılışı oldu. Bu illər ərzində gimnaziyanı 118 nəfər bitirmişdi ki, 13 nəfəri həmin ilin məzunları idi. 1 nəfər isə ekstern yolu ilə imtahan verərək gimnaziyanın attestatını almışdı. Məzunlardan 5-i hüquq, 4-ü tibb, 3-ü riyaziyyat ixtisasına qəbul olunmuşdur. 2 nəfər fərdi fəaliyyətlə məşğul olmuşdur.

1899-cu ildə gimnaziyanın 15-ci buraxılışı olub. Qafqaz Təhsil Dairəsinin popeçiteli K.Yanovskinin hesabatına görə, 15 il ərzində gimnaziyanı 145 nəfər attestatla (onlardan da 11 nəfəri həmin ildə) başa vurub. Hesabat ilində gimnaziyanı bitirən 11 şagirddən 2-si azərbaycanlı olmuşdur. Məzunlardan 2-si gimnaziyanı qızıl medalla bitirmişdi. Həmin il əlavə olaraq 6 nəfər ekstern imtahan verib orta təhsil haqqında attestat almışdır.17 nəfərin 1-i Rusiya universitetlərinin filologiya, 5-i hüquq, 4-ü tibb, 1-i riyaziyyat fakültəsinə, 3-ü ali texnoloji, 3-ü isə dağ-mədən ixtisaslarına daxil olmuşdur.

1907-ci ildə gimnaziyanın 23-cü buraxılışı olub. Bu illər ərzində gimnaziyanı 340 nəfər (39-u həmin il) attestatla bitirib. 39 şagirddən 1 nəfərinin 17, 6 nəfərinin 18, 3 nəfərinin 19, 8 nəfərinin 20, 21 nəfərinin 21-dən yuxarı yaşı olmuşdur. VIII sinfi müvəffəqiyyətlə bitirən 39 şagirddən başqa 29 nəfər də ekstern yolu ilə imtahan verib. İmtahanda iştirak edənlərdən 20-si kamal attestatı almağa müvəffəq olub. Kamal attestatı alanlardan (59 nəfər) 5 nəfəri müxtəlif ali təhsil müəssisələrinin Filologiya-tarix, 9 nəfəri Fizika-riyaziyyat, 10 nəfəri Hüquq, 16 nəfəri Tibb,17 nəfər Texniki, 2 nəfər Hərbi fakültələrinə daxil olublar.

1913-cü ildə gimnaziyanın tam kursunu 41 nəfər başa vurub, 10-u ərizəsinə, 30-u təlim uğursuzluğuna, 39-u təhsil haqqına görə xaric olunub. Məzunların 3 nəfərinin 17, 8 nəfərinin 18, 10 nəfərinin 19, 9 nəfərinin 20, 10 nəfərinin 21-dən yuxarı yaşı olub. 2 nəfər ekstern imtahan verərək orta təhsil haqqında attestat alıb. Məzunlardan 5-i Rusiya universitetlərin Tarix-filologiya, 6-sı Fizika-riyaziyyat, 3-ü Hüquq, 13-ü Tibb, 10-u Texniki, 6-sı Şərq fakültələrinə daxil olmuşdur.

1913-cü ildə gimnaziyanın 29-cu buraxılış ilində məzunların ümumi sayı 535 nəfər olub. Sonrakı illərlə bağlı hələlik dəqiq məlumat əldə edə bilməmişik. Sonrakı illərin hər birində 35-40 nəfərin məzun olmasını təxmin etsək, İrəvan kişi gimnaziyasını 700-ə yaxın şagirdin bitirməsi qənaətinə gəlmək mümkündür. Əvvəldə də qeyd etdiyimiz kimi, İrəvan kişi gimnaziyasına daxil olanlarla, məzun olanlar arasında kəskin fərq var idi. Gimnaziyanı bitirən azərbaycanlı məzunların sayını tam dəqiqləşdirmək mümkün olmasa da, ümumi məzunların sayının təxminən 20%-i həcmində olması qənaətindəyik.

Gimnaziya təhsili İrəvan quberniyasında yaşayan azərbaycanlıların Rusiya və Avropa universitetlərinə çıxışını təmin etməklə Azərbaycan təhsilinə, mədəniyyətinə, elminə onlarla mənəviyyatı günəş kimi parlaq işıqlı zəka sahibləri bəxş etmişdir. İrəvanda azərbaycanlılar arasında təhsilinin səmərəli qurulmasında həm milli kadrların, həm də imperiya mərkəzindən bu bölgəyə köçürülmüş pedaqoji kadrlar mühüm rol oynamışdır.

Azərbaycan xalqı bu gün də Ağabababəyov Əsəd bəy Hüseyn bəy oğlu, Ağababəyov-Muğanlinski Abbasəli bəy Ağababa bəy oğlu, Ağababəyov-Muğanlinski Adil bəy Abbasəli bəy oğlu, Ağaoğlu (Ağayev) Məhəmməd bəy Həsən bəy oğlu, Ağayev Rza Məşədi Muxtar oğlu, Allahverdibəyov Abbas bəy Hacı Baxşəli bəy oğlu, Allahverdibəyov Həmid bəy Hacı Baxşəli bəy oğlu, Bağırbəyov (Mirzəbağırbəyov) Ağa bəy Hacı İsmayıl bəy oğlu, Bağırbəyov (Mirzəbağırbəyov) Əbülfət bəy Hacı İsmayıl bəy oğlu, Erivanski Mehdi xan, Əfəndiyev Məhəmmədəmin Hüseyn Əfəndi oğlu, Əliyev Əli Kərbəlayı Məhəmmədağa oğlu, Sultanhüseynbəyov İsmayıl bəy, Sultanov Allahyar bəy İsgəndər bəy oğlu, Sultanov Əliqulu bəy Əli bəy oğlu, Sultanov Əsgər bəy Cabbar bəy oğlu, Şahtaxtinski Baxşəli ağa Məhəmmədtağı sultan oğlu, Şahtaxtinski Əbülfət ağa Nəcəfqulu ağa oğlu, Şahtaxtinski Əliqulu bəy Əliqulu ağa oğlu, Şahtaxtinski İsasultan Nəcəf oğli, Şeyxov Fərəculla, Şeyxülislamov Əkbər ağa, Topçubaşov Mustafa Ağabəy oğlu və başqaları ilə fəxr edir.

Fərrux Rüstəmov
Azərbaycan Dövlət Pedaqoji Universitetinin kafedra müdiri, professor, Qərbi Azərbaycan İcmasının Ziyalılıar Şurasının sədr müavini

Qərbi Azərbaycanda milli maarifçilik mühiti

XX əsrin əvvəllərinə qədər Bakı, Təbriz, Xoy, Naxçıvan və başqa şəhərlər ilə yanaşı İrəvan şəhəri də Azərbaycanın aparıcı elm və mədəniyyət mərkəzlərindən biri olmuşdur.Azərbaycanın elm və mədəniyyət tarixinə "İrəvani" təxəllüsü ilə daxil olmuş və önəmli töhfələrini vermiş xeyli alimlərə, ədəbiyyat və incəsənət xadimlərinə rast gəlmək olar.Mirzə Qədim İrəvani (1825-1875), Fazil İrəvani (1782-1823), Mirzə Məhəmməd İrəvani (1718-1799), Mirzə Müslüm İrəvani (1755-1823), Aşub İrəvani (1813-1891), Şeyx Əbdül Kərim İrəvani (1810-1891),Mirzə Əli İrəvani (1894-1935) və başqa görkəmli şəxsiyyətlərin yaradıcılığı bunu bir daha təsdiq edir.

Onu da qeyd etmək yerinə düşər ki, İrəvan ədəbi-mədəni,ictimai-siyasi mühitinin görkəmli nümayəndələrinin Şərq elmində,ədəbiyyatında, mədəniyyətində oynadığı müstəsna rolun əhəmiyyəti bu gün də ədəbi-mədəni prosesdə duyulmaqdadır.Bütün bunlara baxmayaraq həminərazilərin əsl sakinləri və sahibləri azərbaycanlılar olsa da, tarixin müxtəlif dövrlərində zor gücünə öz əzəli torpaqlarında yaşamaq hüququndan məhrum edilmişlər.

Hər zaman "yersiz gəldi, yerli qaç" prinsipindən çıxış edən ermənilər azərbaycanlıların indi "Ermənistan" adlanan tarixi yurdunda xalqımızın yaratdığı milli mədəni irsi hər vasitə ilə nə qədər inkar etməyə can atsalar da amma buna nail ola bilməmişlər.

Məlumdur ki, XlX əsrin 70-ci illərinədək bütün Qafqazda dünyəvi fənlər tədris edən məktəb, bu fənlərdən dərs demək üçün pedaqoji kadrlar hazırlayan hər hansı bir təhsil ocağı yox idi.Azərbaycanda olduğu kimi , Qərbi Azırbaycanda da dünyəvi məktəblər açılana qədər təlim müəssisəsi kimi yalnız məscidlərin nəzdində mollaxanalar və mədrəsələr fəaliyyət göstərmişdir.Mollaxana və mədrəsələr təkcə İrəvan şəhərində deyil, Uluxanlıda, Vedibasarda, Ağbabada, Qafanda,Sisianda, Meğridə və s.bölgələrdə də fəaliyyət gostərmişdir.Bütün bunlara baxmayaraq , əsrlər boyu fəaliyyət gostərən mollaxana və mədrəsələr xakqımızın mədəni yüksəlişini təmin edə bilməmiş,onun inkişaf prosesini ləngitmişdir.

XlX əsrin əvvəllərində Cənubi Qafqazda baş verən siyasi proseslər müxtəlif sahələrdə olduğu kimi, təhsil və məktəb sahəsində də yeni meyillərin yaranmasına səbəb oldu. Artıq təlim müəssisəsi kimi fəaliyyət göstərən mollaxana və mədrəsələr getdikcə tənəzzülə uğrayır , öz yerini dünyəvi məktəblərə verməyə məcbur olurdu.



Cənubi Qafqazda başlanan bu maarifçilik hərəkatına Qərbi Azərbaycanda onkarla tərəqqipərvər azərbaycanlı ziyalı qoşularaq azərbaycanlı gənclərin təhsilə cəlb edilməsi uğrunda mübarizə aparmışdılar.Axund Məhəmmədbağır Qazızadə, Məmməd Axundov, Abbas Razi Məmmədzadə , İyas bəy Mahmudbəyov, Abbas ağa Fərəcov, Məmməd Əliyev, İbadulla bəy Muğanlinski, Aslan bəy Nabatəlibəyov, Mirzə Cabbar Məmmədzadə, Mehdi Kazımov, Şəmdin bəy Mahmudbəyov, Məmmədvəli Qəmərlinski, Cəfər bəy Cəfərbəyov Tərlan xanım Sultanova, Fatma Qədimova və başqaları Qərbi Azərbaycanda xalqımızın mədəni yüksəlişi yolunda təkcə səy və bacarıqlarını deyil, həyatlarını və maddi imkanlarını bu ülvi məqsədə sərf etməkdən belə çəkinməmişlər.

İrəvanda ilk qəza məktəbinin açılması 14 yanvar 1832-ci ilə təsadüf edir.İrəvanda ilk qəza məktəbinin açılması bütövlükdə regionda qabaqcıl maarifçilik ideyalarının yayılmasında əhəmiyyətli dərəcədə böyük rol oynamışdlr.İrəvanda açılan ilk qəza məktəbində müxtəlif millətlərin nümayəndələri ilə yanaşı, azərbaycanlı uşaqlar da təhsil almağa başladılar. Bu qəza məktəbi 1869-cu ildə progimnaziyaya, 31 mart 1881-ci ildə idə 5 sinifli gimnaziyaya çevrildi. Azərbaycan elminə öz töhfələrini vermiş dünya şöhrətli alim, Mustafa bəy Topçubaşov,görkəmli ictimai xadim,tibb elmləri doktoru, professor Əziz Əliyev, ictimai xadim Maqsud Məmmədov, görkəmli tarixçi alim, professor Mehdixan Erivanski,görkəmli dilçi alim Miryusif Mirbabayev,Qərbi Azərbaycanda ədəbi-mədəni mühitin tərəqqisində mühüm xidmətləri olan Abbas ağa Fərəcov, Qulam Fəhradov, Kəngərlilər nəslinin görkəmli nümayəndələrindən olan Əsədulla bəy Kəngərlinski, Mihüseyn Mirbağşrov, İsfədiyar bəy Sultanov, Əkbər ağa Şexülislamov, Abdulla Kəngərlinski və başqaları gimnaziyanın məzunları olmuşlar.Onu da qeyd edək ki, İrəvan gimnaziyasını qızıl medalla bitirən ilk azərbaycanlı görkəmli dövlət xadimi Əziz Əliyev olmuşdur.

XlX əsrin yetmişinci illərindən başlayaraq çar hakimiyyəti tərəfindən Cənubi Qafqazda qəza məktəblərinin təşkili prosesi daha da surətləndi.Elmin əsaslarını yeni üsulla tədris edən dünyəvi Azərbaycan məktəbləri İrəvanda(1880),Uluxanlıda(1881), Böyük Vedi (1883), İmanşalıda (1883), Qurduquluda(1883),Aralıx Baş kəndində (1884), Basarkeçərin Məzrə kəndində (1884), Zod kəndində (1885), Qarxunda 1885), Çobankərədə (1890) və başqa bölgələrdə açılaraq fəaliyyət göstərməyə başlamışdır. Bu qəza məktəbləri həm dövlət tərəfindən ayrılan vəsaitlər, eyni zamanda qismən də camaatdan toplanan könüllü ianələr hesabına açılırdı. Həmin məktəblərin sayının getdikcə artması müəllim kadrlarına olan tələbatı daha da artırırdı. Çar hakimiyyəti qəza məktəblərindəmüəllimkadrları ilə bağlı yaranmış ehtiyacı aradan qaldırmaq üçün Cənubi Qafqazda pedaqoji kadrlar hazırlayan müəllimlər seminariyalarını təşkil etməyə başladı. Rusiya Dövlət Şurasının 20 oktyabr 1880-ci il tarixli qəarına əsasən bu tip təhsil müəssisələrindən biri də təhsil tariximizdə əhəmiyyətli dərəcədə böyük rol oynamış , zəngin və şərəfli tarixi bir yol keçmiş İrəvan Müəllimlər Seminariyası olmuşdur.Təhsil tariximizdə özünəməxsus yeri və rolu olan İrəvan Müəllimlər Seminaryası və onun məzunları Cəfər bəy Cəfərbəyov, Əhməd Haşımov ,Mirzə Cabbar Məmmədzadə, Rəhim Xəlilov, Cəfər Kərimov, Həmid bəy Şahtaxtinski,Tağı bəy Səfiyev , Haşım bəy Vəzirov, Vahid Musabəyov, Əli İbrahimov,Həsən Səfərli və başqaları Cənubi Qafqazda milli maarifçiliyin inkişaf etdirilməsi istiqamətində çox böyük rol oynamışdır.1918-ci ildə Erməni şovinizminin azərbaycanlılara qarşı həyata keçirdiyi total qırğınlar zamanı bütün bu təhsil müəssisələrinin də fəaliyyəti dayandırıldı.Bütün bunlara baxmayaraq, bu maarif ocaqları milli təhsil tariximizin şəfərfli bir səhifəsi kimi hər zaman böyük qürur hissi ilə yad edilməkdədir.

Cəlal Allahverdiyev
filologiya üzrə fəlsəfə doktoru, dosent

Qərbi Azərbaycana qayıdış: tarixi faktlarla

Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və dəhşətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskənləri dağıdılıb viran edilmişdir. Təcavüzkar erməni millətçiləri tərəfindən xalqımıza qarşı iki yüz ilə yaxın bir dövrdə yeridilən soyqırımı siyasətinin məqsədi azərbaycanlıları tarixi torpaqlarından qovmaq, xarici havadarlarının köməyi ilə həmin yerlərdə Ermənistan dövləti yaratmaq olub.

Bu mənfur ideyanı reallaşdırmaq istiqamətində ardıcıl olaraq hərbi, ideoloji və təşkilati xarakterli tədbirlər həyata keçirilib. Azərbaycanlılar tədricən doğma torpaqlarından qovulub, onların ərazilərində başqa ölkələrdən köçürülmüş ermənilər məskunlaşdırılıb. Azərbaycanlılara qarşı yeridilən soyqırımı siyasəti tarixi əsrləri əhatə edir və hadisələri ardıcıllıqla izləsək, görərik ki, hadisələr eyni ssenari əsasında baş verib. Hələ XIX əsrdə Çar Rusiyası tərəfindən Osmanlı və İran ərazisindən ermənilərin kütləvi şəkildə Cənubi Qafqaza köçürülməsi ilə azərbaycanlıların öz tarixi torpaqlarında sıxışdırılması prosesinə başlanılıb. XX əsrin əvvəllərində azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə, soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərlə, faciələrlə üzləşib. 1918-1920-ci illərdə yüz minlərlə azərbaycanlı qətlə yetirilib, öz yurdlarını tərk etmək məcburiyyətində qalaraq qaçqına çevrilib, yüzlərlə Azərbaycan kəndi yer üzündən silinib. Ötən əsrdə Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Azərbaycanın bir sıra torpaqlarını sovet hakimiyyətinin köməyi ilə Ermənistan SSR-in ərazisinə daxil etməyə nail olublar. 1920-ci ildə sovet hökumətinin qərarı və erməni millətçilərinin təkidi ilə bizim tarixi torpağımız Zəngəzuru da Azərbaycandan ayırıb Ermənistana birləşdirdilər. Ölkə Prezidenti cənab İlham Əliyev bunu xalqımıza qarşı növbəti cinayət kimi qiymətləndirib***: "Zəngəzurun Ermənistana verilməsi bir daha onu göstərir ki, bu, çox yanlış, səhv addım idi və dediyim kimi xəyanət idi".***



1948-1953-cü illərdə xalqımız növbəti deportasiyaya məruz qalıb. SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" xüsusi qərarına və 1948-1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyasına dövlət səviyyəsində nail olublar.

Ermənilərin İrandan Cənubi Qafqaza, indiki Ermənistan ərazisinə köçürülməsinin bilavasitə rəhbəri olmuş A.S.Qriboyedov yazır: "Ermənilər gətirilib müsəlman mülkədarların torpaqlarında yerləşdirilmişlər... müsəlmanları sıxışdırırlar, onlar dahey əsaslı olaraq narazılıq edib şikayətlənirlər. Biz müsəlmanları indiki sıxışdırmalara qatlaşmaq, bu sıxışdırmalarm uzun sürməyəcəyinə inandırmaq, onların torpaqlarına ilk dəfə buraxılan ermənilərin bu torpaqlara həmişəlik yiyələnəcəkləri barədə nigrançılığı müsəlmanların beynindən çıxarmaq üçün onlara edilməli olan təlqinlər barədə çox düşündük…Ermənilər indiki Ermənistan ərazisində məskunlaşdırıldıqdan dərhal sonra öz tarixi torpaqlarında yaşayan azərbaycanlıları planlı surətdə doğma yurdlarından çıxarmağa, qırmağa, milli soyqırıma başladılar"

S. P. Zelinski isə yazır ki: "Zəngəzur qəzasında Axlatian, Prnakot və Şinətaq adlı cəmi üç erməni kəndi yerlidir, qalan erməni kəndləri 1826–1828-ci illərdən sonra təşkil olmuşdur".N.Şavrov özü də belə etiraf edir: "XX əsrin əvvəllərində Zaqafqaziyada məskunlaşan 1 milyon 300 min nəfər ermənin 1 milyonundan çoxu ərazinin yerli sakinləri olmayıb, bizim tərəfimizdən məskunlaşdırılmışdır"

Bəli, bütün bu faktlar onu deməyə əsas verir ki, Qərbi Azərbaycan tarixi türk torpaqları olmuş, köklü sakinləri isə Azərbaycan türkləri olmuş, ermənilər isə xaricdən bu ərazilərə köçürülmüşdür. Məhz bunun nəticəsidir ki, tarixən, yəni 1991-ci ilə kimi ərazinin toponimlərindən 90%-dən çoxunu türk mənşəli toponimlər təşkil edirdi. XIX əsrin əvvəllərindən başlayaraq 1994-cü ilə kimi Qərbi Azərbaycan ərazisində olan türk mənşəli oykonimlərin, oronimlərin və hidronimlərin adları dəyişdirilərək ermənileşdirilmiş və ya ruslaşdırılmışdır. 1828-ci ildə bağlanan Türkmənçay müqaviləsinin nəticəsi olaraq ermənilər İrandan, Türkiyədən bu ərazilərə köçürülmüşdür. Bu tarixi faktlar erməni və rus mənbələrində öz əksini aydın şəkildə tapmışdır. Burada yaşayan azərbaycanlılar isə zaman-zaman – 1905-1906, 1918-1920, 1948-1953 və 1988-1991-ci illərdə tarixi-etnik torpaqlarından deportasiya olunmuşlar. 1988-1991-ci illərdə SSRİ dövlətinin himayəsi altında Ermənistan dövləti Qərbi Azərbaycandan 250 mindən artıq azərbaycanlını ata-baba torpaqlarından deportasiya etmişdir. Ümumiyyətlə, XX əsrdə 2 milyondan çox azərbaycanlı indiki Ermənistanda soyqırıma məruz qalmışdır. 27 may 1997-ci ildə "Müstəqillik Günü" münasibətilə təntənəli yığıncaqda nitq söyləyən Ümummilli Lider Heydər Əliyev azərbaycanlıların indiki Ermənistan ərazisindəki tarixi-etnik torpaqlarından deportasiya olunmalarından danışarkən demişdir: "O vaxt yaşayan insanlar və doğma yerlərindən deportasiya olunanlar yaxşı xatırlayırlar: Ermənistan çox gözəl iqlimə-yəni

bu torpaqlar vaxtilə Azərbaycan torpaqları olub. Malik olan yaşayış yerlərindən insanları gətirib evsiz-eşiksiz Mil-Muğan çöllərinə salanda, əlbəttə ki, onlar o şəraitdə yaşaya bilməyəcəkdilər. Məlumdur ki, o vaxt bir çox insanlar qırıldı, tələf oldu, əzab-əziyyət çəkdilər. Hətta məlumdur ki, bəziləri burada yaşaya bilmədilər, gizli olaraq qayıdıb öz yerlərinə, evlərinə getdilər. Hesab edirəm ki, bu da bizim xalqımıza qarşı edilən ən böyük ədalətsizlikdir. Beləliklə, o vaxt Ermənistandan azərbaycanlıların çıxarılması, etnik təmizləmə baş veribdir. Onları öz yerlərindən, yurdlarından, doğma torpaqlarından o vaxt didərgin salıblar. Təəssüflər olsun ki, biz tarixin cürbəcür mərhələlərində belə hadisələri lazımi qədər təhlil edə bilməmişik və xalqımıza edilən bu ədalətsizliklərə qarşı öz səsimizi lazımi qədər qaldırmamışıq. Məhz bunların nəticəsində də 1988-ci ildə Ermənistan Azərbaycana artıq açıq təcavüz edibdir. O, dövrdə Ermənistan ərazisində qalmış azərbaycanlılar qısa müddətdə Ermənistandan zorla çıxarıldılar. Ermənistan deyəndə, o ərazinin keçmişdə kimə mənsub olduğu məlumdur. O, ərazinin çox hissəsi azərbaycanlıların əsrlərdən-əsrlərə yaşadıqları doğma diyar olubdur. Onları öz dədə-baba yurdlarından tədricən çıxardıblar və bunlar hamısı da 1988-ci ildə Ermənistanın Azərbaycana artıq hərbi təcavüzünün başlanmasına gətirib çıxarıbdır".

Qərbi Azərbaycan ərazisindəki türk mənşəli adların dəyişdirilməsi siyasəti 1828-ci il fevralın 10-da bağlanan Türkmənçay müqaviləsindən sonra, XIX əsrin 30-cu illərindən sistemli formada və məqsədli şəkildə həyata keçirilmiş və adların dəyişdirilməsi siyasəti inqilabdan sonra yeni vüsət almış, minlərlə kənd adı məhv edilmiş, rəsmi qərarlarla adların bir qismi ruslaşdırılmış, bir qismi isə qondarma erməni adları ilə əvəz edilmişdir. Bu gün Qərbi Azərbaycan ərazisindəki etnotoponimlərin öyrənilməsi xüsusi əhəmiyyət daşıyan məsələdir. Qərbi Azərbaycan ərazisində azərbaycanlıların etnogenezində müxtəlif qədim türk tayfaları iştirak etmişdir. Həmin tayfalar təbii ki, Şimali və Cənubi Azərbaycan ərazilərindəki toponimlərdə də iz qoymuşlar. Tarixi faktlar hələ eramızdan əvvəl VIII əsrdə türk etnoslarının Qərbi Azərbaycan ərazisində yaşamasını təsdiq edir. Qərbi Azərbaycan ərazisindəki toponimlər arasında etnotoponimlərin sayı az deyildir. Onların hər biri müxtəlif türk etnoslarının, xüsusilə oğuzların bu ərazilərin aborigen sakinləri olduğunu sübuta yetirir.

Sevindirici haldır ki, bu gün Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin uzaqgörən siyasəti və uğurlu diplomatiyası sayəsində Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında böyük yol qət edilib, azərbaycanlıların, o cümlədən Qarabağdan və Qərbi Azərbaycandan məcburi köçkün və qaçqın düşmüş vətəndaşlarımızın hüquqlarının müdafiəsi beynəlxalq səviyyəyə çıxarılıb. Ümummilli Lider Heydər Əliyevin siyasi irsinin davamçısı Prezident İlham Əliyev dövlətimizin milli maraqlarına və azərbaycançılıq ruhuna sadiq qalaraq Azərbaycan torpaqlarının tarixinə və mədəniyyətinə sahib çıxılmasının önəmini hər zaman vurğulayıb, Zəngəzurun tarixi Azərbaycan torpağı olduğunu bütün beynəlxalq kürsülərdən bəyan edib.

Azərbaycan Prezidentinin siyasi iradəsi, diplomatik gücü və hərbi sərkərdəlik bacarığı nəticəsində 30 il işğal altında qalan torpaqlarımız 44 gün ərzində düşməndən azad edildi. 44 günlük Vətən müharibəsində Azərbaycan qazandığı Zəfər tariximizə yeni bir salnaməni həkk etdi. Azərbaycan dövlətinin və xalqının qüdrətini, sarsılmaz iradəsini, Ordumuzun gücünü beynəlxalq səviyyədə nümayiş etdirən möhtəşəm Qələbə yeni reallıqlar yaradıb. Azərbaycanın ağrılı problemlərindən olan Qarabağ məsələsi birdəfəlik həll edildi. Hazırda Azərbaycanın yeganə problemi öz əzəli və əbədi torpaqları olan Qərbi Azərbaycan torpaqlarının həqiqi sahiblərinə geri qaytarılması, vaxtilə bu torpaqlarda yaşamış Azərbaycan əhalisinin hüquqlarının bərpa olunmasıdır. İllərlə həsrətlə gözlədiyimiz böyük qayıdış tarixi hadisəsi rellığa çevirildi.Ölkə rəhbərinin də qeyd etdiyi kimi: "***Hazırda isə tarixi qələbəmizdən sonra yaranan yeni reallıqda ən mühüm vəzifələrdən biri Qərbi Azərbaycandan qaçqın düşmüş vətəndaşlarımızın öz yurdlarına qayıtması məsələsidir".***

Qələbəmizdən doğan tarixi reallıqların nəticəsidir ki, qarşıda soydaşlarımızı Qərbi Azərbaycana böyük qayıdış gözləyir. Bu hədəfi Prezident cənab İlham Əliyev 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündəki nitqində bəyan etdi. ***"Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar",*** - deyə dövlətimizin başçısı vurğulayıb. Prezident İlham Əliyev soydaşlarımızın Qərbi Azərbaycana qayıdacaqları ilə bağlı hədəfi bəyan edərkən azərbaycanlıların xarakterində olan çox mühüm bir amilə - xalqımızın tarixi yaddaşına istinad edib. Müqayisə aparan dövlətimizin başçısı bildirib: ***"Bu gün Zəngilan rayonunun Ağalı kəndində yaşayan insanların böyük əksəriyyəti, eyni zamanda, uşaqlar, gənclər onlar üçün doğma olan o torpaqları heç vaxt görməmişlər. Torpaq həsrəti və Vətən sevgisi onları oraya getməyə vadar etdi. Onların arasında hətta Bakıdan, Sumqayıtdan gedənlər də az deyil. Yəni, bu, xalqımızın xüsusiyyətidir, torpaq həmişə çəkir. Əminəm ki, Qərbi azərbaycanlılar da bu fikirlə, bu arzu ilə yaşayırlar".***

Görüşdə Möhtərəm Prezident tarixi faktlara nəzər salaraq Qərbi Azərbaycanın əzəli və əbədi tarixi torpaqlarımız olduğunu dünya ictimaiyyətinə bir daha bəyan etdi: ***"Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var. Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb. İndi əsas vəzifə ondan ibarətdir ki, dünya ictimaiyyəti də bunu bilsin. Artıq bu istiqamətdə işlər başlamışdır. Ancaq, əminəm ki, İcma bu işləri daha məqsədyönlü şəkildə və nəticəyə hesablanmış tərzdə aparacaqdır."***

Qərbi Azərbaycan İcmasının üzvləri ilə görüşdə Qərbi azərbaycanlıların qanunsuz olaraq dəfələrlə deportasiyaya məruz qaldığını bildirən Cənab Prezident müasir dövrümüzdə onların hüquqlarının bərpa edilməli və əzəli torpaqlarına qayıtmalı olduqlarını bildirdi: ***"Biz hüquqlarımızı sülh yolu ilə təmin etmək istəyirik və yenə də deyirəm, bütün konvensiyalar bu hüququ tanıyır. Ona görə buna nail olmaq üçün biz, o cümlədən beynəlxalq müstəvidə daha fəal olmalıyıq. Hesab edirəm ki, İcmanın çox mötəbər bir rəqəmsal platforması olmalıdır, bir portalı olmalıdır. Orada həm tarixi həqiqətlər, həm tarixi abidələrimiz, ermənilər tərəfindən dağıdılan saraylar, məscidlər, şəhərlər, Azərbaycan tarixi irsinin silinməsi ilə bağlı olan faktlar öz əksini tapmalıdır".***

Qeyd edək ki, Prezident Qərbi azərbaycanlı ziyalılarla görüşdə Qərbi Azərbaycana qayıdış Konsepsiyasının hazırlanması vəzifəsini də qarşıya qoydu. Bir ay müddətində Konsepsiya hazırlandı. Sənəddə son 200 ildə Qərbi Azərbaycandan qovulmuş soydaşlarımızın tarixi torpaqlarına qayıtması prosesində İcmanın fəaliyyətinin ümumi prinsipləri öz əksini tapdı. Konsepsiya Müşahidə Şurasında təsdiq edildi.

Qərbi azərbaycanlıların öz doğma yurdlarına qayıdışı ədalətin bərpası, onların təməl hüquqlarının təmin edilməsi demək olacaq. Hər kəsin öz əzəli vətənində yaşamaq hüququ var və bu hüquq beynəlxalq konvensiyalarda təsbit edilib. Bu gün artıq qeyd edilən istiqamətdə hərtərəfli işlərə başlanılıb. Bu istiqamətdə BMT-yə müraciət ünvanlandı.

Müraciət BMT-nin bütün rəsmi dillərində (ingilis, fransız, rus, Çin, ərəb və ispan) olmaqla adıçəkilən əsas orqanların gündəliyinin silahlı münaqişələrin qarşısının alınması, sülh quruculuğu, qaçqınların hüquqlarının qorunması, irqi ayrı-seçkiliyin aradan qaldırılması, insan hüquqlarının təşviq olunması, soyqırımının, etnik təmizləmənin və insanlığa qarşı cinayətlərin qarşısının alınmasına dair bəndləri altında yayılıb. Müraciətin yayılması indiki Ermənistandan qovulmuş azərbaycanlıların hüquqları məsələsinin beynəlxalq müstəviyə gətirilməsi sahəsində böyük uğurdur. Məsələnin BMT-nin ən mötəbər orqanlarının gündəliyinin qeyd edilən bəndləri ilə əlaqələndirilməsi azərbaycanlıların öz evlərinə qayıtmasının təməl insan hüquqlarının qorunması, beynəlxalq sülhün, təhlükəsizliyin və əməkdaşlığın bərqərar olması üçün zəruri olmasının beynəlxalq müstəvidə təsdiqidir. Beynəlxalq platformada bu məsələnin gündəmdə saxlanılması vacib əhəmiyyət daşıyır. BMT-də yayılan sənəd göstərir ki, artıq beynəlxalq müstəvidə də işlərə başlanılıb. Çünki qeyd etdiyimiz kimi, Azərbaycan dinc şəkildə, sülhlə soydaşlarımızın qayıdış məsələsini gündəmə gətirib.

Bu gün heç şübhəsiz ki, xalqımız Müzəffər Ali Baş Komandanın qüdrəti və apardığı uğurlu xarici və daxili siyasəti sayəsində Qərbi azərbaycanlıların da öz doğma torpaqlarına qayıdacağı günün uzaq olmadığına tam əmindir və öz liderinin ətrafında sıx birləşərək yeni qələbələrə zəmin yaradır.

Arzu Abdullayev
Naxçıvan Dövlət Universitetinin prorektoru, tarix üzrə fəlsəfə doktoru

QƏRBİ AZƏRBAYCAN BİZİM YURD, AND YERİMİZDİR

Son iki əsrdə xalqımıza qarşı erməni millətçiləri tərəfindən məqsədyönlü şəkildə həyata keçirilən etnik təmizləmə, soyqırımı və təcavüzkarlıq siyasəti Azərbaycan tarixinin faciələrlə, o cümlədən qanlı hadisələrlə dolu çox ağrılı mərhələlərini təşkil edir. Bu millətçi-şovinist siyasətin əsas məqsədi azərbaycanlıları öz tarixi torpaqlarından qovmaqla əzəli Azərbaycan ərazilərində ermənilərin uydurduqları "Böyük Ermənistan" dövləti yaratmaq olmuşdur. "Böyük Ermənistan" ideyası ilə yaşayan ermənilər öz məqsədlərinə çatmaq üçün xarici himayədarların köməyi ilə müxtəlif vaxtlarda azərbaycanlılara və türklərə qarşı dəhşətli terror və soyqırımı həyata keçirməklə etnik təmizləmə siyasəti aparmışlar. Cənubi Qafqazın sovetləşməsindən öz məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra torpaqlarını Ermənistan SSR-in ərazisi elan etdilər. Sonrakı dövrlərdə isə bu ərazilərdə tarixən yaşamış azərbaycanlıların deportasiya edilməsi siyasətini daha da genişləndirdilər.

XX əsrin 80-ci illərinin sonları 90-cı illərinin əvvəllərində Ermənistan Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları ilə çıxış etmiş və ölkəmizə qarşı hərbi təcavüzə başlamışdır. Həmin dövrdə Azərbaycanda hökm sürən hərcmərclikdən istifadə edən Ermənistan torpaqlarımızın 20 faizini işğal etmiş, Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma yurd-yuvasından didərgin düşmüşdür.

Ermənistan tərəfindən ərazisi işğala məruz qalan Azərbaycan 30 ilə yaxın müddətdə daim diplomatik təmkin nümayiş etdirirdi, beynəlxalq təşkilatlar və aparıcı dövlətlərin münaqişəni danışıqlar yolu ilə tənzimləmək çağırışlarına həssaslıqla yanaşırdı, lakin bunun müqabilində düşmən ölkəyə ciddi beynəlxalq təzyiqin göstərilməməsi vəziyyəti daha da gərginləşdirirdi.

Nəhayət, Azərbaycan ötən il sentyabrın 27-də Ermənistan Ordusunun başladığı hücuma əkshəmlə əməliyyatları ilə cavab verməli oldu. 2020-ci ildə 44 günlük İkinci Qarabağ müharibəsində şanlı Zəfərimiz 30 ilin işğalına son qoydu, ərazi bütövlüyümüz bərpa edildi. Dövlətimizin qətiyyəti, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsi, xalqımızın birliyi, həmrəyliyi sayəsində qazandığımız möhtəşəm Zəfərimiz Ermənistana və ona havadarlıq edən dövlətlərə bir daha sübut etdi ki, ədalət və beynəlxalq hüquq var və bunun təsdiqi üçün səylər göstərməli, tarixi faktlara əsaslanan təbliğat gücləndirilməlidir. Bir daha sübut olundu ki, tarixi həqiqətləri inkar etmək qeyri-mümkündür. Tarixi Zəfərimiz, eyni zamanda, Qərbi Azərbaycana qayıdışımızı daha da yaxınlaşdırır və Azərbaycan xalqının nümayəndələri öz əlləri ilə qurduqları və əsrlərlə yaşadıqları İrəvana, indiki Ermənistan ərazisində olan digər tarixi yerlərə qayıtmaq imkanına malik olmalıdır və olacaqlar.

Azərbaycan xalqı, Azərbaycan dövləti 30 ilə yaxın Ermənistan silahlı birləşmələri tərəfindən işğal altında saxlanılan torpaqlarını azad etməklə haqq savaşında Zəfər çaldı. İşğalçı erməni faşistləri torpaqlarımızdan qovuldu. Düşmənin növbəti təxribatlarına qarşı başlanan Qurtuluş savaşı Müzəffər Ali Baş Komandanın sərkərdəliyi, müdrik, uzaqgörən siyasəti, yüksək diplomatik bacarığı, qətiyyətli addımları və şanlı ordumuzun gücü sayəsində Böyük Qələbə ilə başa çatdı. Xalqımız qalibiyyət bayrağını başı üzərində dalğalandırdı. Azərbaycanımızın ərazi bütövlüyü təmin olundu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin "CNN Türk" televiziya kanalına müsahibəsi zamanı dediyi bir fikri xatırlatmaq yerinə düşər: "***Azərbaycan Qurtuluş savaşına başlayaraq öz tarixi torpaqlarını işğalçılardan azad etdi, tarixi ədaləti bərpa etdi, işğalçıları bizim torpaqlardan qovdu və öz ərazi bütövlüyünü, torpaq bütövlüyünü bərpa etdi."***


Vətən müharibəsində qazanılan tarixi qələbədən sonra Zəngəzur dəhlizinin də açılması zərurəti yarandı. Bildiyimiz kimi, hazırda bu istiqamətdə genişmiqyaslı işlər aparılır və tezliklə tarixi torpaqlarımız olan Zəngəzurda regionun iqtisadi mənzərəsinin dəyişəcəyinə şahidlik edəcəyik.

Tarixi mövcudluq onu göstərir ki, müxtəlif dövrlərdə dövlətlərin üzləşdiyi çətin sınaqlardan çıxması və gələcəyə doğru getməsi qətiyyətli, qəhrəman bir xalqın yüksək mədəni xüsusiyyətləri sayəsində mümkün olur. Zaman tarixi hadisələrin düzgün qiymətləndirilməsi baxımından ən dəqiq mənbədir. Bir xalqın, bir millətin mədəniyyətini, qəhrəmanlığını onun tarixən yaşadığı ərazilər özündə yaşadır. Bu baxımdan Azərbaycan əraziləri elə sivilizasiyanın inkişafa başladığı ən qədim tarixi insan məskənlərindən hesab olunur. Bütün tarixi mənbələr sübut edir ki, hazırkı Ermənistanın əhatə etdiyi ərazilər vaxtilə azərbaycanlıların sıx şəkildə məskunlaşdıqları ərazilər olmuşdur. Tarixi xəritələrə istinadən bu ərazilərin yer adları və insan məskənləri açıq şəkildə göstərilmişdir. Hətta yer adları Zəngibasar, Vedibasar, İrəvan mahalı, Göyçə mahalı adları ilə təsdiqlənərək xəritələrə köçürülmüşdür. Adlarını qeyd etdiyimiz bölgələr Qərbi Azərbaycanın ən böyük əraziləri hesab olunurdu. İndiki Ermənistanda mövcud olan Azərbaycan türklərinin məskunlaşdığı mahallarda orta əsrlərdə elm, sənət, musiqi, xüsusən aşıq yaradıcılığı inkişaf etmişdi. Qərbi Azərbaycanda tarixən yaşamış insanlar əsas etibarilə coğrafi şəraitinə görə əkinçilik, maldarlıq və sənətkarlıqla məşğul olmuşlar. Lakin son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı həyata keçirilən etnik təmizləmə siyasəti nəticəsində azərbaycanlılar ağır məhrumiyyətlərlə üzləşərək, milli faciəyə məruz qalmışlar.

Bir xalqın tarixini, dilini və mədəni irsini öyrənmək üçün onun tarixən məskunlaşdığı ərazilərə nəzər salmaq gərəkdir. Qərbi Azərbaycanın əsl sakinləri Azərbaycan türkləri olmuşdur. Azərbaycan türkləri indiki Ermənistan ərazilərində e.ə. II əsrdən yaşamağa başlamışlar. Bu ərazilərdə yaşayan ilk qədim tayfalardan biri kimmerlər olmuşdur. Kimmerlər qədim türk tayfası olaraq məhz bu ərazilərdə məskunlaşmışlar.

Sözsüz ki, bu faktı əsaslı şəkildə sübut edən amillərdən biri tarixi toponimlərdir. Bu tayfanın adı indiki Ermənistan ərazilərinin yer adlarında öz əksini tapır. Hətta indiki Ermənistan Respublikasının paytaxtı İrəvan yaxınlığında Qəmərli və Eçmiədzin rayonları deyilən yer adları var ki, qədim kimmer türk tayfasının adını özündə əks etdirir. Tarixi mənbələr bir daha təsdiqləyir ki, indiki Ermənistan əraziləri qədim türk ərazilərdir.Bu ərazilərdəki toponimlərdə heç bir erməni izinə rast gəlmək mümkün deyildir. Hətta antropoloqlar arxeoloji araşdırmaları zamanı ermənilərin qalıqlarının iki əsrdən artıq bir zamanı əhatə etmədiyini vurğulayırlar. İrəvan xanlığı işğal edildikdən sonra Çar Rusiyası ilə Qacarlar arasında 1828-ci ildə imzalanan Türkmənçay müqaviləsinin 15-ci maddəsinə əsasən Iran və Osmanlı ərazisindən minlərlə erməni ailəsi İrəvan, Qarabağ, Naxçıvan, Borçalı ərazilərində münbit torpaqlarda məskunlaşdılar, 6 il ərzində vergi və mükəlləfiyyətlərdən azad oldular. Çar Rusiyasının bu köçürmə siyasətinin məqsədi Osmanlı ilə Azərbaycan arasında bufer zona yaratmaq idi və bu məkrli plan baş tutduqdan sonra onun istiqamətləri daha da genişləndirildi.

Tarix həqiqəti sevir və vətən anlayışı tarixin özündə formalaşır. Bu baxımdan tarixi Azərbaycan torpağı olan Qərbi Azərbaycanda, indiki Ermənistan ərazilərində əsrlərlə xalqımızın soy-kökü, dili, ədəbiyyatı, musiqisi, adət-ənənələri, mədəni abidələri və bir sözlə, mədəniyyəti formalaşmışdır. Qədim İrəvan xanlığında və bütövlükdə indiki Ermənistan ərazisində islam dininin VII əsrdən etibarən yayıldığından bu ərazilərdə yüzlərlə dini ibadət yerləri, daş abidələr, məscid və müsəlman yaşayış yerləri mövcuddur. Tarixi mənbələrdə qeyd olunur ki, bu ərazilərdə mövcud olmuş dini abidələr və müsəlman türklərin yaşadığı yerlər haqqında İrəvanda olmuş bir çox dünya səyyahlarının əsərlərindən kifayət qədər məlumat əldə etmək mümkündür. Mənbələrdə o da göstərilir ki, 1912-ci ilə qədərki tarixi dövrdə Qərbi Azərbaycan ərazisində, xüsusən İrəvan qəzasında 42, Eçmiədzin qəzasında 33 və Zəngəzur qəzasında 35 məscid fəaliyyət göstərmişdir.



Ümumiyyətlə, Qərbi Azərbaycanda mədəni tarixi abidələrin sayı 8000-ə yaxın olmuşdur. Lakin onların, demək olar ki, hamısı dağıdılaraq, vandalizm siyasətinin qurbanı olmuşdur. Tarixi torpaqlarımız olan indiki Ermənistan ərazilərində çoxlu sayda tarixi-memarlıq abidələri, şərq ornamentli imarət-karvansaralar, məqbərələr mövcud olmuşdur. Bu memarlıq abidələrində tarixi həqiqətləri özündə yaşadan milli-mədəni irsimiz erməni vandallığının qurbanına çevrilmişdir. Qədim Azərbaycanın tarixini özündə əks etdirən İrəvanda Təpəbaşı adlanan məhəllə geniş bir ərazini əhatə edirdi.

Təəssüf ki, azərbaycanlıların məskunlaşdığı bu tarixi məkan tamamilə dağıdılaraq viran edilmişdir. Hazırda Təpəbaşı adlanan ərazilərdə Ermənistan dövləti yeni tikililər inşa edərək, azərbaycanlılara məxsus olan yaşayış yerlərinin izlərini tarixin səhifəsindən silmək istəyirlər. Lakin nə qədər buna cəhd olunsa belə, tarix həqiqəti sevir, heç nə öz əzəli adını itirmir. 1918–1921-ci illərdə tarixi Azərbaycan torpaqlarında ilk erməni dövləti – Ermənistan Respublikası qurulduqdan sonra ermənilər azərbaycanlılara məxsus maddi-mədəni irsə qarşı vandalcasına, dağıdıcı münasibət göstərərək öz çirkin xislətlərini bir daha göstərdilər. Bu proses 1987-ci ildən başlanan deportasiyanın son mərhələsindən bugünədək davam edir.

Mədəni–tarixi abidələrimizi dağıdaraq yer üzündən silməyə çalışmışlar ki, guya bu yerlərin "əsl sahibləri" özləridir. Əlbəttə, bu ideya onların bir millət olaraq xəstə təfəkkürlərinin, uydurmalarının göstəricisi idi. Qərbi Azərbaycanda olan bütün tarixi abidələr içərisində İrəvan qəzasındakı Xan sarayı və Sərdar məscidi tarixi ornamentləri ilə xüsusilə seçilirdi. Hətta bu möhtəşəm məscid vaxtilə xalq arasında Abbas Mirzə məscidi kimi də tanınırdı. Bu abidə də tamamilə dağıdılmış və yerini yeni tipli inşaat obyektləri almışdır.1766-cı ildə tikilmiş Göy Məscidin bütün minarələri dağıdılaraq məhv edilmiş, yalnız bir əsas məqbərəsi saxlanılmışdır ki, onu da dünya ictimaiyyətinə fars məbədi adı altında təqdim edirlər. Rəsmi məlumatlara görə, XX əsrin əvvəllərində İrəvan quberniyasının ərazisində hər biri bir memarlıq incəsənətini özündə birləşdirən 310 məscid mövcud olmuşdur. XX əsrdə mərhələlərlə davam edən deportasiyasiya siyasəti qədim ərazilərimizdəki tarixi abidələrimizin mənimsənilməsi, dağıdılıb viran qoyulması, yer adlarımızın ermənilləşdirilməsi ilə nəticələnmişdir. Bu da onu göstərir ki, tarix səhnəsində xalqımız XX yüzilliyi faciələr, qırğınlar, soyqırımları əsri kimi yaşamışdır. Qərbi Azərbaycanda olduğu kimi, Qarabağda və Şərqi Zəngəzurda 30 illik işğal dövründə də qədim abidələrimizi, bütünlükdə mədəni irsimizi talanmış və dağıtmışlar. Xalqımızla birgə milli sərvətlərimiz də vandallıq siyasətinin qurbanı olmuşdur.

Ermənistan "Hərbi münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında" Haaqa Konvensiyasının və "Mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında" Paris Konvensiyasının müddəalarını kobudcasına pozaraq Azərbaycanın mədəni sərvətlərini talamaqla məşğul olmuşdur. İstər Qərbi Azərbaycan torpaqlarımızda, istərsə də Qarabağımızda qədim tarixə malik olan monumental mədəniyyət abidələrimiz ya tamamilə dağıdılaraq məhv edilmiş, ya da "erməni mədəniyyətinin" nümunələri kimi ictimaiyyətə təqdim edilmişdir. Memarlıq abidələrinin üzərindəki türk simvollarının, qədim türk yazılarının məhv edilməsi xalqımızın milli mədəniyyətinə vurulan ən ağır zərbədir. Özlərini dünyaya "qədim xalq", "mədəni xalq" kimi tanıtmağa çalışsalar da, tarix bunun həmişə tam əksini göstərib. Tarix sübut edib ki, Azərbaycan xalqının mədəniyyəti milli olduğu qədər bəşəridir, bəşəri olduğu qədər də əbədidir.

Ata nəsihətini yerinə yetirən Müzəffər Ali Baş Komandan, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə şəhidlərimizin canı, qazilərimizin qanı, ordumuzun şücaəti hesabına 30 ilə yaxın işğal altında qalan torpaqlarımız azad edildi. Artıq Azərbaycan xalqı öz əzəli-əbədi torpaqlarına sahibdir. 44 günlük Vətən müharibəsi Ermənistanın kapitulyasiyası, təxminən 30 il davam edən işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Qarabağın azad edilməsi ilə Azərbaycanın xarici və daxili siyasətində yeni prioritetlər meydana çıxdı. Azərbaycan Ordusu Qarabağı və Şərqi Zəngəzuru azad etməklə, artıq soydaşlarımızın bütün tarixi ata-baba torpaqlarına qayıdışını təmin etmək üçün yol açdı. Bu ədalətli siyasətin gerçəkləşməsində dövlətimizlə yanaşı, ictimai təşkilatların da üzərinə böyük öhdəliklər düşür. Qərbi Azərbaycan İcmasının yaranma zərurəti elə bu baxımdan mühüm aktuallıq kəsb edir.

Azərbaycan xalqının tarixi yaddaşı doğma torpaqlarımıza olan sevgini hər zaman qoruyub. Bu gün Azərbaycan həqiqətləri dünya ictimaiyyətinə çatdırılır. Bu vacib məsələdə 2022-ci il 3 avqust tarixində Qaçqınlar Cəmiyyətinin bazasında yaradılan Qərbi Azərbaycan İcması birbaşa Ermənistan ərazilərindən kütləvi şəkildə deportasiya olunmuş azərbaycanlıların və onların varislərinin ictimai-mədəni birliyini təmin etməkdə çox fəallıq göstərən mərkəzə çevrilmişdir. Bu İcma 1989-cu ildən fəaliyyət göstərən "Azərbaycan Qaçqınlar Cəmiyyəti" İctimai Birliyinin hüquqi varisidir. Birliyin İdarə Heyəti beynəlxalq müstəvidə fəal iş aparır. İcmanın məqsədi tarixin müəyyən dövrlərində etnik mənsubiyyətinə görə kütləvi şəkildə deportasiya olunmuş azərbaycanlıların ictimai-mədəni birliyinə nail olunmaqla, ata-baba torpaqlarımıza qayıtmaq üçün onların bütün hüquqlarının beynəlxalq səviyyədə bərpası və Ermənistan ərazisində Azərbaycan xalqının yaratdığı tarixi-mədəni zəngin irsinin dünya ictimaiyyətinə çatdırılmasından ibarətdir. 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycan İcmasının inzibati binasının açılışında əslən Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündə Prezident İlham Əliyev demişdir: "Qərbi Azərbaycan bizim tarixi torpaqlarımızdır, bunu bir çox tarixi sənədlər, tarixi faktlar, tarixi xəritələr və tariximizin özü təsdiqləyir". Prezident İlham Əliyev qeyd etdi ki, bunu deməyə əsas verən bir çox amillər var, xalqımız əsrlər boyu öz hüquqlarını qorumaq üçün, öz tarixi torpaqlarında yaşamaq üçün böyük fədakarlıq göstərmişdir.

Qarabağda Azərbaycan xalqının qanını tökmüş, Xocalıda soyqırımı törətmiş hərbi canilər artıq əli qanlı Bakıya gətirilmiş, onalara qarşı istintaq hərəkətlərinə başlanılmışdır. İnsanlıq əleyhinə ağır cinayətlər törətmiş bu mü¬haribə canilərinə qarşı sərt və ədalətli cəzanın tətbiq olunacağı labüddür.

Son 20 il Azərbaycanın dövlətçilik tarixinə dinamik və hərtərəfli inkişaf dövrü kimi daxil olmuşdur. Ölkə həyatının bütün sahələrində böyük uğurlar, misilsiz və qürurverici qələbələr əldə edilmişdir. Azərbaycanın zəngin iqtisadi, siyasi və hərbi potensialı yaradılmışdır. Bütün bu nailiyyətlərin təməlində ulu öndər Heydər Əliyevin başladığı və möhtərəm Prezident İlham Əliyevin inamla davam etdirdiyi uzaqgörən daxili və xarici siyasət xətti dayanır.

Ölkə başçısının Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşdə dediyi: ***"Qərbi azərbaycanlılar qanunsuz olaraq dəfələrlə deportasiyaya məruz qalmış toplumdur. Onların hüquqları bərpa edilməlidir və onlar öz doğma torpaqlarına qayıtmalıdırlar"*** sözlərinin hər birimizdə yaratdığı böyük inama güvənərək bir daha qeyd etmək istəyirik ki, vaxt gələcək Azərbaycan torpaqlarının yaddaşı olan, pasportuna çevrilən yer-yurd adları yenidən vətəndaşlıq hüquq qazanacaq. Biz buna tam əminik.

Bəli, növbəti qayıdışımız Qərbi Azərbaycanadır silahsız, müharibəsiz. Bütöv Azərbaycan naminə yalnız irəliyə dogru addımlayacağıq!

Arifə Zeynalova
filologiya üzrə fəlsəfə doktoru, dosent

Qərbi Zəngəzur mahalı İrəvan kimi azərbaycnlıların qədim yaşayış məskənlərindən biri, yurd yeridir. Bəs onda ermənilər kimdir? Onların Zəngəzurda və ümumiyyətlə Azərbaycan torpaqlarında nə işi var? Ermənilərin Azərbaycana ərazi iddialarının əsasında hansı tarixi-psixoloji səbəblər durur?

Ermənilərin ərazi iddialarının tarixi-psixoloji səbəbləri



Biz tarixi-psixoloji səbəbləri araşdırdıqda görürük ki, ermənilər idarəsi öz əlində olmayan, müstəqil siyasət yürüdə bilməyən, daim böyük güclərin məqsədləri üçün istifadə etdiyi, yaltaqlığın və sığınmaçılığın formalaşdırdığı riyakar xarakter xüsusiyyətlərin daşıyıcılarıdır. Deməli Bu keyfiyyətlərə malik olan kütlə isə heç bir zaman öz gücü, qəhrəmanlıq dastanları ilə dövlət ola bilməz. Bunu çox yaxşı dərk edən Çar Rusiyası xiristian dövləti kimi Cənubi Qafqazda, o cümlədən Azərbaycanda siyasətini həyata keçirmək üçün ermənilərdən aktiv istifadə edir və mükafat olaraq Azərbaycan torpaqlarına yerləşdirib onlara "Böyük Ermənistan" xülyası qurmaq təxəyyülü yaratmışdır.

İkincisi Türk dövlətlərinin birliyi Çar Rusiyası üçün ən böyük təhlükə sayılırdı. Bu səbəbdən Türkün qapısı adlanan Naxçıvanla Azərbaycanın digər bölgələrinin əlaqəsinin qırılması məhz Qərbi Zəngəzurdan azərbaycanlıların deportasiya edilməsi əvəzində isə Azərbaycan torpaqlarına ermənilərin köçürülməsi gələcək 100 illiklərə hesablanmış bölücü siyasətin əsas tərkib hissəsi idi.

Üçüncüsü bu siyasət eyni zamanda ermənilərin dördüncü bir dövlətlə İran İslam Respublikası ilə əlaqəsini təmin etmək məqsədi də daşıyırdı. Məqsədli olaraq ermənilərə hərtərəfli dəstək, Azərbaycan torpaqlarına köçürülməsi və sonradan öz torpaqları kimi işğal siyasətini dəstəkləmələri onların əsas ideyası olan "Böyük Ermənistan" xülyasını gerçəkləşdirmək arzularına çatmaq üçün şərait yaradırdı.Deməli ermənilərin Azərbaycana tarix boyu apardıqları ərazi iddialarının əsas tarixi-psixoloji səbəbini "Böyük Ermənstan" xülyası təkil edir. Təbii ki, kimlərinsə əlaltısı olmaq, məkirli siyasət oyununun əsas tərkib hissəsi kimi çıxış etməklə.

Xarakterinin əsas psixoloji keyfiyyətlərini doğruluq, kişi sözü, mərhəmətlilik, inam, etibar təşkil edən Azərbaycan xalqının psixologiyasına yaxşı bələd olan ermənilər bizə dost kimi görünməklə öz məkrli siyasətini gizlidən yerinə yetirdilər və kimlərinsə hesabına Azərbaycanın qədim torpaqları olan İrəvanda, Qərbi Zəngəzurda dövlət oldular. Sadəcə bir faktı diqqətə çatdırmaqla bunun doğruluğunu asanlıqla sübut etmək mümkündür. İrəvan xanlığı ərazisində "Erməni vilayəti" yaradıldıqda (21 mart 1828) Qərbi Azərbaycanda 81.749 müsəlman, 25.131 erməni yaşayıb.

Bundan sonra 1828-ci ildə İrandan (40.000) və Türkiyədən (84.000) cəmi 124.000 ermənin Azərbaycana, indi Ermənistan adlandırılan Qərbi Azərbaycana köçürülməsi faktlarla sübut olunmuşdur/

Ermənilərin Azərbaycan torpaqlarına yerləşməsinin digər bir səbəbi də sovet dövründə yaradılmış yalançı qardaşlıq, dostluq ideologiyası idi. Bu ideologiya əsasında xalqların süni identifikasiyası həyata keçirilməyə başlandı. Bunun nəticəsində isə Ermənistandan, sovet rejimindən gələ biləcək təhlükə hissinin sovet ideologiyasının təsiri altında kütləşdirilməsi, milli identikliyin, milli şüurun zəifləməsi, digər identikliyin – "sovet vətəndaşı", "sovet xalqı", "kommunizm qurucusu" və bu kimi süni identikliklərin üstünlüyünə səbəb oldu.

Təsadüfü deyildir ki, Amerika alimi Semuel Hantiqton milli kimliyin, milli identikliyin zəifləməsini Amerikanın milli təhlükəsizliyi üçün əsas sosial hadisə hesab edir. O, 2004-cü ildə yazdığı "Biz kimik? Amerika milli identikliyinin çağırışları əsərində" XXI əsrin ən ciddi məsələsi, ciddi böhranların səbəbi kimi milli identikliyi, kimliyi xüsusi vurğulayaraq yazır: "11 sentyabr 2001-ci il faciəvi hadisələri Amerikaya özünün identikliyini qaytardı. O zamana qədər ki, amerikalılar hesab edirlər ki, onların ölkəsini təhlükə təhdid edir, milli identiklik yüksək olaraq qalır. Əgər təhlükə hissi kütləşirsə, onda digər identikliklər milli identikliyi üstələyirlər".

Məhz süni identikliyin dominantlıq təşkil etməsi ermənilərdən və ruslardan gələcək olan təhlükə hissini kütləşdirdi. Nəticədə isə bu siyasətdən məharətlə istifadə edən ermənilər sovet dövründə dost kimi görünüb düşmən kimi öz istəklərini reallaşdırmağa davam etdilər. Zəngəzurdan sonra Qarabağa köçürüldülər. Müasir dövrdə baş verən hadisələr, müşahidələrimiz ermənilərin xarakterində təcavüzkarlığın və onların olmayanı iddia etmələrinin səbəbləri ilə bağlı elmi-psixoloji fikirlər irəli sürməyə əsas verir. Ermənilərin onlara aid olmayanı havadarlarının köməkliyi ilə əldə etmələri onların özləri haqqında yalançı böyük xalq, güclü dövlət miflərini yaratmasıdır. Bu miflər əsasında "Böyük Ermənistan" xülyasının reallaşmaması onlarda toplum frustarasiyasına səbəb olmuşdur.

Frustrasiya nədir? Psixololoji ədəbiyyatdan məlumdur ki, frustrasiya latınca frustratio – aldanma, nahaq gözləmə, əhval pozğunluğu) – insasnın öz məqsədinə çatmasına maneçilik real və ya xəyali maneələrlə rastlaşdığı zaman düşdüyü psixi vəziyyətdir. Bu emosional halətin mahiyyətini başa düşmək üçün, hər şeydən əvvəl, maneənin xarakterinə, onun insan üçün, şəxsi mənasına diqqət yetirmək lazımdır. İnsan elə maneələrlə rastlaşır ki, bunlar onun arzu və istəklərini ürəyində qoyur, yaranan dəvamlı mənfi emosional halət onun şüur və fəaliyyətini pozur. Frustrasiya yalnız o zaman meydana çıxır ki, insanın narazılıq və ya təmin olunmamaq səviyyəsi onun dözüm səviyyəsindən üstün olur. Frustrasiya halətində insanda dərin psixi sarsıntılar baş verir. Frustrasiya haləti bəzən insanın xarakterinə təsir edir, onda bir sıra dəyişikliklər törədir: onun davranış və rəftarında özümə inamsızlıq, şablon davranış tərzinə meyletmə və s. nəzərə çarpır. Bir sıra nevrozların baş verməsi də frustrasiya haləti izah edilə bilər."Böyük Ermənistan" qurmaq xülyalarının boşa çıxması ilə Ermənilərdə yaranan frustrasion vəziyyət onların xarakterində riyakarlıqdan təcavüzkarlığa yönələn əlamətlərin yaranmasına səbəb olmuşdur. Eyni zamanda frustrasion emosional vəziyyət yaşayan ermənilərin davranışları xaricə yönəlikdir və multikultural dəyərlərinə zərər vurur. Bunun nəticəsidir ki, Azərbaycandan fərqli olaraq Ermənistan monokultural ölkədir.

Bu əlamətlər daha da dərinləşərək müasir dövrdə indiki nəsillərini təcavüzkarlığın, eqoizmin daha dağıdıcı daşıyıcılarına çevirmişdir. Belə toplum isə yalnız məhvə məhkumdur.

Çapay Quliyev
psixologiya üzrə fəlsəfə doktoru

QƏRBİ AZƏRBAYCANIN TÜRK MƏNŞƏLİ ƏRAZİLƏRİNİN MƏNZƏRƏSİNİN HÜQUQİ ASPEKTLƏRİ

Qərbi Azərbaycanda, – indiki Ermənistanda türk mənşəli yerlərin uzun illər boyu dəyişdirilib erməniləşdirilməsi türklərin, xüsusən də azərbaycanlıların min illər boyu bu ərazidə yaşamasını sübut edən faktlar saxtalaşdırmaq məqsədi daşımışdır. Qərbi Azərbaycan ərazisinin müasir toponimiyasında 4600-dən çox olan coğrafi adın təxminən 70 faizini tayfa və ya tayfa başçılarının adları ilə bağlı meydana gəldiyi müəyyən olunmuşdur. Həmin tayfalar təbii ki, Şimali və Cənubi Azərbaycan ərazisindəki yerlərdə yaşayıb yaratmışlar.

Onomastik vahid olan etnotoponimlər dil tarixi ilə bağlı qiymətli mənbə olmaqla yanaşı, xalqın qədim yaşayış məskənini müəyyənləşdirmək, bu ərazidə baş vermiş ictimai-siyasi hadisələri, prosesləri qiymətləndirmək, həmin hadisələrin səbəb və köklərini araşdırmaq, obyektiv gerçəkliyi, həqiqəti üzə çıxarmaq üçün konkret material, sübut və faktlar kimi dəyərlidir. Belə faktlar ermənilərin Azərbaycana məxsus əraziləri, insan məskənlərini saxta və qondarma materiallara istinadla öz adlarına çıxarmasına qarşı mübarizədə də vacibdir. Süni yollarla qədimliyini sübut etmək istəyən, tarixi saxtalaşdırmağa çalışan ermənilər türklərə, türkdilli xalqlara qarşı həmişə düşmənçilik mövqeyində durmuş və hal-hazırda durmaqdadırlar. Ermənilər Azərbaycan və türk mənşəli toponimlərə münasibətdə də qərəzli mövqe tutmuşlar. Qərbi Azərbaycanda, indiki Ermənistanda türk mənşəli toponimlərin uzun illər boyu dəyişdirilib erməniləşdirilməsi, türklərin, xüsusən də azərbaycanlıların min illər boyu bu ərazidə yaşamasını sübut edən faktları saxtalaşdırmaq, xalqın adlara hopub əsrlərlə yaşamış tarixini pozmaq, tarixin torpağın köksündəki izlərini itirmək, onlara başqa don geyindirmək məqsədi daşımışdır. Ona görə də yer-yurd adlarımızın tarixin hansı dövrlərində necə dəyişdirilməsinə dair tədqiqatlar aparmağımız olduqca əhəmiyyətlidir.

Yer-yurd adlarımızın dəyişdirilməsi tarixin qədim dövrlərinə gedib çıxmır. Çünki belə qədim dövrlərdə bu adları türklər müasir dövrlə müqayisədə yaxşı qoruya bilmişlər. Daha qədim dövrlərdə, adamların ovçuluq və yığıcılıqla məşqul olduğu dövrlərdə onların yaşayış qruplarının bilavasitə etnosun adı ilə adlanması şübhə doğurur. Belə qruplar çox zaman yaşayış ərazisinə, bu ərazinin relyefinə, digər atributlarına, ərzaq ehtiyatlarına, flora və faunasına görə adlandırılmışdır. Yəni insanın təşəkkül tapıb müxtəlif qruplar şəklində yaşadığı 6 ilk dövrlərdə etnik mənsubluq məsələsi olmamışdır. Bu dövrdə insanları əsas maraqlandıran cəhət zəruri olan ərzaqla təmin olunmaq, qorunmaq, onları məhv edə biləcək hər cür qüvvələrə qarşı mübarizə aparmaq vərdişlərinə yiyələnmək ön planda idi. Bununla yanaşı, qeyd etmək lazımdır ki, çox yaxın ərazidə paylanmış, adlarında ortaq, yaxud eyni semantikaya malik komponent olan qrupların bir etnosla bağlılığı həqiqətə daha yaxındır. Yəni onların daşıdığı dilə mənsub olması belə bir müddəanı irəli sürməyə tam əsas verir. Çünki yalnız onimin semantikasını araşdırmaqla onun hansı etnosun dilinə aidliyi haqqında müəyyən fikrə gəlmək mümkündür. Ikinci cəhət etnonimlərin tarixi dinamikası ilə əlaqəlidir. Etnonim yaranır və tarixi inkişaf prosesi keçir.

Tarixçilər tərəfindən aparılacaq elmi tədqiqatlar ermənilərin saxtalaşdırılaraq dəyişdirilmiş adların daşıdığı tarixi yükü aşkara çıxaracaqdır. Buna görə də indi Ermənistan adlanan ərazidəki türk-Azərbaycan mənşəli onomastik vahidlərin, xüsusən etnotoponimlərin tədqiqi son dərəcə vacib, təxirəsalınmaz və aktual məsələdir. Son illərdə bu sahəyə aid dəyərli elmi axtarışlar aparılmış, türk-Azərbaycan mənşəli onomastik vahidlər toplanmış, qruplaşdırılmış, müəyyən izah və şərhlərlə çap edilmişdir.

Azərbaycanda yer adları təbii ki, dilimizin leksikasında mövcud olan müxtəlif söz qrupları əsasında yaranmışdır. Bununla belə coğrafi adların meydana gəlməsi şəxs adları kimi bu və ya digər fərdin iradəsindən asılı olmayıb müəyyən tarixi, ictimai-siyasi, hüquqi hadisələr nəticəsi kimi təzahür etmişdir. Bu adlar müəyyən ərazidə yaşayan əhalinin, kollektivin və ya hakim dairənin təşəbbüsü ilə əmələ gəlmişdir. Belə bir sərvətə münasibət də həmişə düzgün olmalı, onun qorunmasına, saxlanmasına, tədqiqinə köklənməli, onlar tarixin yadigarı kimi mühafizə edilməlidir. Hüquqi baxımdan zəruri faktor kimi diqqətdə saxlanılmalıdır. Bu bizim milli sərvətimizdir.

Təəssüf ki, bu tələb süni yollarla qədimliyini sübut etmək istəyən, tarixi saxtalaşdırmağa çalışanlar, xüsusən ermənilər tərəfindən həmişə pozulur. Azərbaycan və türk mənşəli toponimlərə münasibətdə Ermənistanda həmişə belə bir siyasət həyata keçirilmişdir. Ermənistanda türk mənşəli yer adlarının dəyişdirilməsi, azərbaycanlıların zorla bu ərazilərdən çıxarılması ardıcıl şəkildə davam etdirilmişdir. Bu kimi faktlar bir çox elmi mənbələrdə qeyd olunmuşdur. Məsələn son illərdə Zaqafqaziyada baş verən hadisələr Ermənistan və Gürcüstan ərazisində tarixən mövcud olan Azərbaycan dilinə məxsus toponimlərin kütləvi şəkildə dəyişdirilməsinə səbəb olmuşdur.

Bu da danılmaz faktdır ki, dilin onomastik sistemində həmin dili daşıyan xalqın çoxəsrlik ictimai-iqtisadi, mədəni-tarixi həyatı əksini tapır. Belə bir qənaətə gəlmək olur ki, hər bir xalqın tarixinin müxtəlif dövrlərinə aid adları və onların formaları həmin dövrlərdəki cəmiyyətin vəziyyətini, bununla da cəmiyyətin sinfi quruluşunu aydın formada özündə əks etdirir. Faktların qeydə alınması, ciddi elmi axtarışlar tarixi saxtalaşdırmanın qarşısına sipər ola bilər. Hər bir xalqın təşəkkülü tarix boyu davam etmiş arasıkəsilməz etnik prosesin nəticəsidir. Etnik prosesin komponentləri qəbilələr, tayfalar, xalqlar və millətlər, bir sözlə, etnoqrafiyada qəbul edildiyi kimi etnoslardır.

Yaxın tarixə nəzər salsaq görərik ki, 1919-cu il noyabrın 23-də Azərbaycanın Baş naziri N.Usubbəyov və Ermənistanın Baş naziri A.Xatisov ölkələr arasında sülh müqaviləsi imzaladılar. Bununla da müqaviləyə müvafiq olaraq Azərbaycan öz hərbi hissələrini Zəngəzurdan çıxardı, Ermənistan isə əksinə, dərhal öz qoşunlarını ora göndərməklə yalnız müqaviləni deyil, bütövlükdə bölgədə sabitliyi pozdu. Həmin ərəfədə Bakıdakı ingilis hərbi jurnalist Robert Scotland Liddell Londona göndərdiyi məktubda bildirir ki, "23 noyabr müqaviləsindən günlər keçməmiş ermənilər xainliklə Zəngəzurda müsəlman kəndlərinə basqınlar edir, qısa müddət ərzində 40-dan çox kəndi viran qoyub, əhalini isə məhv ediblər.".

Azərbaycanın Baş naziri N.Usubbəyov Zəngəzurdakı son hadisələrə toxunaraq, 8 dekabr 1919-cu ildə Ali Komissar Vilyam Qaskelə müraciətində öz narahatlığını bildirmişdir. O, Zəngəzurun erməni əhalisinin terrorçuları dəstəkləməsi, silahlanması, onların yenidən iğtişaş və münaqişə törədəcəkləri, həmçinin bu vəziyyətin bölgədə anarxiya yaradacağı barədə dəqiq fikirlər söyləmiş, yerli erməni quldur dəstələrindən bütün silah-sursatı yığıb götürmək üçün 5 gündən gec olmayaraq Zəngəzur qəzasına ABŞ hərbi zabitlərindən ibarət komissiya göndərməyi təklif etmişdir. Eyni zamanda, Azərbaycan hökuməti xəbərdarlıq etmişdir ki, əks halda, cinayət və terror törədən erməni daşnaklarını Zəngəzurda dinc yaşamaq prinsiplərinə əməl etməyə məcbur etmək üçün konkret addımlar atılacaq. Rus diplomatı general Mayevski "Ermənilərin törətdiyi kütləvi qırğınlar" kitabında öz xatirələrində qeyd edirdi ki, ibtidai məktəblərdən tutmuş ali məktəblərə qədər bütün erməni məktəbləri Avropa paytaxtlarında ifrat dərəcəyə çatdırılmış erməni təbliğatçılarının qızğın fəaliyyət meydanına çevrilmişdir.

Azərbaycan Xarici İşlər Nazirliyinə istinadən O.Uordrop 1919-cu ilin oktyabrından 1920-ci ilin aprelinə qədər erməni qoşunlarının İrəvan və Yelizavetpol quberniyalarında dinc azərbaycanlı əhaliyə qarşı törətdikləri qanlı cinayətlər barədə Londona məlumat göndərmişdir. Həmin məlumatlardan alınan nəticəni aşağıdakı kimi ümumiləşdirmək olar: Müttəfiqlərin, yəni Qərb dövlətlərinin Cənubi Qafqazın müstəqil respublikaları ilə münasibətlərində təmiz, dəqiq siyasi xətt olmamışdır. Bu səbəbdən də Qərb dövlətlərinin diplomatik-siyasi dairələri arasında xalqların taleyinə açıq biganəlik göstərilmişdir. Bu amillər Cənubi Qafqaz respublikalarının siyasi müstəqilliklərini itirməsinə, yəni sovet Rusiyası tərəfindən işğal edilməsinə şərait yaratmışdır.

Cümhuriyyətin süqutu nəticəsində Azərbaycan dövlətinin Kremlə tabe edilməsi, mövcud Azərbaycan SSR-nin ərazisinə qarşı edilən hər hansı bir dəyişiklik Azərbaycanın dövlət suverenliyinə zidd olan bir proses idi. Başqa sözlə, məlum tarixdə Azərbaycana köçürülən erməni kütləsini əhali kimi formalaşdırmaq siyasəti nəticəsində Ermənistanın RSFSR tərkibində respublika statusuna malik olması üçün Azərbaycanın tarixi torpaqları Ermənistana verilmişdir.

Bunun isə iki səbəbi vardı: müstəqilliyini itirdiyinə görə milli ordusu və ya silahlı qüvvələri dağıdılmışdır; Siyasi sistemdə kifayət qədər xalqa özgələşmiş, antimilli və ögey münasibətli aktorlar yer almışdır. İkinci səbəb daha güclü idi. Ona görə ki, reallıqda ölkənin taleyi N.Nərimanovun əlində deyil Xalq komissarları Sovetinin sədri Leninin təyinatı ilə 1920-ci ilin yayından etibarən Azərbaycanda siyasi sistemin ixtiyarı S.Orconikidzenin əlində idi.

Azərbaycanda milli-etnik proseslərin öyrənilməsi istiqamətində tədqiqat işinin aparılması zamanı, ölkə miqyasında müstəqil respublikanın həyata keçirdiyi milli siyasətin inkişaf xüsusiyyətləri mütləq nəzərə alınmalıdır. Dünyanın əksər ölkələrində olduğu kimi Azərbaycanda da uzun müddət milli siyasət lazımi səviyyədə aparılmamışdır. Sovet dövründə vaxtilə milli münasibətlərlə bağlı bir sıra maraqlı tədqiqat işləri aparılmışdır. Lakin bu tədqiqatlar şübhəsiz ki, sovet milli siyasətinin təsiri altında yazılmışlar. Bu gün həmin tədqiqatlar cəmiyyətdə gedən etnosiyasi prosesləri, millətlərarası münasibətləri obyektiv əks etdirmirlər. Bununla yanaşı, milli siyasət və milli münasibətlər sahəsində aparılan bu tədqiqatların üzərindən tam xətt çəkmək düzgün olmazdı. Bu tədqiqatlarda öyrəniləsi və gündəlik fəaliyyətdə nəzərə alınası bir çox problemlər bu gün də əhəmiyyətini saxlamaqdadır.

Tofiq Hüseynov
Naxçıvan Dövlət Universitetinin müəllimi

QƏRBİ AƏZƏRBAYCANLI USTAD PEDAQOQ

Qərbi Azərbaycan, paytaxtı, Ağrı vadisinin şimal-şərq hissəsində yerləşən İrəvan qədim və orta əsrlərdən başlayaraq azərbaycanlıların elm və mədəniyyət mərkəzlərindən biri olmuşdur. Xüsusilə XIX əsrin sonu, XX əsrin əvvəllərində bu şəhərdə və onun ətrafında olan qəsəbə və kəndlərdə adları Azərbaycanın elm, ədəbiyyat, mədəniyyət və ümumiyyətlə, ictimai fikir tarixinə düşən məşhur şəxsiyyətlər yaşamış, fəaliyyət göstərmiş, adı çəkilən sahələrdə böyük uğurlar qazanmış, mütərəqqi ənənələri davam etdirməklə yanaşı özləri də yeni yol, yeni cığır açmağa nail olmuşlar. Bu uğurlar gərgin ictimai-siyasi hadisələrə, erməni daşnaklarının düşünülmüş və ardıcıl şəkildə həyata keçirdikləri xəyanətkar əməllərə baxmayaraq, hər cür təkfir və təqiblərə, məşəqqətlərə dözərək var qüvvələri ilə çalışan Mirzə Qədim İrəvani, İsa Sultan, Əbülfət və Məhəmməd Şahtaxtinskilər, Fazil İrəvani, Məmmədvəli Qəmərlinski, Firidun bəy Köçərli, Cəlil Məmmədquluzadə, Haşım bəy Nərimanbəyov, Əliqulu xan İrəvanski, Pənah xan Makinski, Eynəli bəy Sultanov, Mirzə Abbas Məmmədzadə, İbadulla Muğanski və başqalarının fədakarlığı nəticəsində əldə edilmişdir. Belə işıqlı şəxsiyyətlərdən biri də ustad pedaqoq Həsən bəy Qazıyevdir.

Həsən bəy Qazıyev 1878-ci ildə İrəvan şəhərində məşhur bir ruhaninin ailəsində dünyaya gəlmişdir. Atası Axund Molla Xəlil Molla Kərim oğlu Qazızadə 1867-1883-cü illərdə İrəvan Quberniyası Ruhani Məclisinin sədri olmuşdur. H.Qazıyev yeddi yaşında ikən atası vəfat etmişdir. O, böyük qardaşının köməkliyi ilə ibtidai təhsilini Azərbaycan, orta təhsilini isə rus dilində İrəvan şəhərində başa vurmuşdur

H.Qazıyev 1896-cı ildə İrəvan Müəllimlər Seminariyasına qəbul olunmuş və 1900-cü ildə oranı bitirmişdir. Ona verilən "Şəhadətnamə"dən aydın olur ki, H.Qazıyev İrəvan Müəllimlər Seminariyasını bitirərək ibtidai məktəb müəllimi ixtisasına yiyələnmişdir. Lakin H.Qazıyevə aid sənədləri araşdırarkən belə qənaətə gəlmək olur ki, o, qısa müddət ibtidai siniflərdə müəllimlik etmiş, sonralar daha çox təbiətşünaslıq və rus dili fənlərinin tədrisi ilə məşğul olmuşdur. 1936-cı ildə "Şəxsi kartoçka"sında "hansı predmeti öz əsas ixtisası sanır" sualının qarşısında "rus dili" yazması isə onu göstərir ki, H.Qazıyev üçün təbiətşünaslıq da əsas ixtisas olmamışdır. Deməli, 1936-cı ildə Naxçıvan Pedaqoji Texnikumu tərəfindən H.Qazıyevə verilən "Xarakteristika"da yazılan bu cümlə təsadüfi deyilmiş: "Texnikumun rus lisanı (dili – F.X.) sahəsində olan ehtiyacı ödəməyə yüz faiz qadirdir".

H.Qazıyevin rus dili fənninin mahir tədrisçisi olduğunu sü¬but edən başqa bir fakt da vardır. Azərbaycan Respublikasının ümummilli lideri Heydər Əliyevin etirafı: ***"O vaxt (Naxçıvan Pedaqoji Texnikumunda oxuduğu illərə işarə edir – F.X.) Həsən bəy Qazıyev mənə rus dilini yaxşı öyrətdi".***

H.Qazıyev 1901-ci ilin dekabr ayında müəllimlik fəaliyyətinə başlamışdır. Onun 50 ilə yaxın əmək fəaliyyətini iki mərhələyə ayırmaq olar: 1. 1901-1920-ci illərdə çar Rusiyası dövründə İrəvan quberniyasındakı fəaliyyəti, 2. 1921-1950-ci illərdə sovet dövründə Naxçıvandakı fəaliyyətini.

H.Qazıyev əmək fəaliyyətinin birinci mərhələsində 8 ilə yaxın müəllimlik etmiş, 10 il isə pedaqoji işə aid olmayan başqa sahələrdə çalışmışdır. Sənəddən aydın olur ki, o, müəllimlik fəaliyyətinə Qafqaz Təhsil Dairəsi popeçitelinin 8 dekabr 1901-ci il tarixli 16611 nömrəli təklifi ilə Uluxanlı ikisinifli normal məktəbində başlamış, 13 avqust 1903-cü ilədək burada işləmişdir. Bir il səkkiz ay Uluxanlı məktəbində işləyən H.Qazıyev, həm şagirdlərin təlim-tərbiyəsi ilə məşğul olmuş, həm də burada çalışan pedaqoqların təcrübəsindən faydalanaraq müəllimik peşəsində ilk sınaq məktəbi keçmişdir.

Bundan sonra İrəvan quberniyası Xalq Məktəbləri direktorunun 1 sentyabr 1903-cü il tarixli əmri ilə H.Qazıyev Nehrəm kənd məktəbinə nəzarətçi vəzifəsinə təyin olunur və 1 sentyabr 1905-ci ilədək düz iki il orada işləyir.

Feodal-patriarxal adət-ənənələrinin hökm sürdüyü bu kənddə müxtəlif maneə və çətinliklərə baxmayaraq H.Qazıyev zəhmətkeş balalarının savadlandırılmasında əlindən gələni əsirgəməmişdir.

Fəaliyyətinin Nehrəm dövrü H.Qazıyevin Naxçıvanın ictimai-ədəbi, xüsusilə pedaqoji mühitilə tanış olması, həmin vaxt Naxıvanda rus-tatar məktəbinin müəllimi, görkəmli pedaqoq M.T.Sidqinin (o, H.Qazıyev Nehrəmdə işləməyə gələndən 3 ay 8 gün sonra qəflətən vəfat etmişdi) qabaqcıl iş təcrübəsindən çox güman ki, qiyabi şəkildə olsa da, xəbər tutması, eyni zamanda Nehrəm məktəbində müəllimlik səriştəsini artırması ilə əlamətdar olmuşdur.

1 sentyabr 1905-ci ildə H.Qazıyev Şərur-Dərələyəz qəzasının Yengicə kənd məktəbinə nəzarətçi vəzifəsinə dəyişdirilir.Yengicə məktəbində işlədiyi illəri (1905-1907) H.Qazıyevin müəllimlik fəaliyyətinin püxtələşməsi dövrü hesab etmək olar.

1907-ci ildə H.Qazıyev Qafqaz Təhsil Dairəsi popeçitelinin təklifi ilə İrəvan rus-tatar məktəbinə müəllim təyin olunur. İrəvan rus-tatar məktəbi 1896-cı il 21 oktyabrda fəaliyyətə başlamışdı. H.Qazıyev buraya müəllim təyin olunan vaxt məktəbin yaradılmasından 10 il keçirdi. Burada ilk direktor olan Haşım bəy Nərimanbəyov, müəllimlərdən Rəhim Xəlilov, Həmid bəy Şahtaxtinski və Məmmədvəli Qəmərlinin pedaqoji ənənələri hələ davam edirdi.



H.Qazıyevin bu məktəbdə hansı fənni tədris etməsi haqqında əlimizdə heç bir məlumat olmasa da, hər halda o, vaxtilə quberniya maarif rəhbərini heyran edən belə bir təhsil müəssisəsində şagirdlərə öz töhfəsini verməklə yanaşı, müəllimlik səriştəsini artırmaq üçün də münbit pedaqoji mühit tapmışdır. 1909-cu ilin sonlarınadək bu məktəbdə fəaliyyət göstərən H.Qazıyev nədənsə həmin il pedaqoji fəaliyyətdən uzaqlaşmışdır.

Arxiv sənədlərindən aydın olur ki, 1 sentyabr 1909-cu ildə rus-tatar məktəbindən azad olunan H.Qazıyev İrəvan Dövlət Vergi Palatası rəisinin 11 oktyabr 1909-cu il tarixli əmri ilə həmin təşkilatın xüsusi tapşırıqlar üzrə ştatdankənar məmuru təyin olunur. Qısa müddətdən sonra H.Qazıyev bu təşkilatın ştatlı işçisi olmuş, müxtəlif illərdə burada hesablayıcı məmur və mühasib köməkçisi vəzifələrində işləmişdir.

1915-ci ilin əvvəllərində Həsən bəy Qazıyev bu təşkilatdan ayrılır. Həmin ilin 16 aprelindən İrəvan Qəza İnspektorluğu Dəftərxanasında kargüzar vəzifəsinə təyin olunur və 1 oktyabr 1919-cu ilədək bu vəzifədə işləyir. 1917-1920-ci illərdə İrəvan quberniyasında ermənilər dünyada analoqu olmayan vəhşiliklər və qətliamlar törətdikləri üçün H.Qazıyevin normal əmək fəaliyyəti çətinləşir və daşnakdüşüncəli rəisinin təsiri ilə tutduğu vəzifədən istefa verməyə məcbur olur.

Bir müddət evində çörək bişirib satmaqla güzəranını təmin edən H.Qazıyev 1921-ci ilin sentyabrında İrəvanda ata yurdunu tərk edərək ailəsi ilə hələ gənclik illərində Nehrəmdə işlədiyi vaxt yaxşı tanıdığı və bələd olduğu Naxçıvan şəhərində özünə sığınacaq tapır. Beləliklə, onun həyatının yeni dövrü, pedaqoji fəaliyyətinin isə ikinci – Naxçıvan mərhələsi başlayır.

Naxçıvanda sovet hakimiyyəti elan ediləndən sonra digər sahələrdə olduğu kimi təhsil sahəsində də bir sıra mühüm təşkilati işlər həyata keçirilməyə başlanılmışdı. 1920-ci il oktyabr ayının 10-da Naxçıvan İnqilab Komitəsinin qərarı ilə Xalq Maarif Şöbəsi, 1922-ci ilin yanvar ayında isə Naxçıvan Xalq Maarif Komissarlığı yaradılmışdı.

H.Qazıyev 1922-ci ilin əvvəllərində Naxçıvan Xalq Maarif Komissarlığı kollegiyasının üzvü seçilir və həm də onun katibi vəzifəsinə təyin olunur.

1922-ci ilin avqust ayının 28-də Naxçıvanda Birinci Ölkə Müəllimlər Qurultayı keçirilir. Qurultayın keçirilməsi üzrə təşkilat komissiyasının üzvlərindən biri olan H.Qazıyevin bu möhtəşəm tədbirə hazırlıq işlərində və onun keçirilməsində böyük xidmətləri olur. Qurultayda mandat komissiyasına üzv seçilən H.Qazıyev burada geniş məruzə ilə də çıxış edir. O öz məruzəsində Naxçıvan kənd məktəblərində, xüsusilə Tumbul, Qaraçuq və Bulqanda fəaliyyət göstərən məktəblərindəki tədrisin vəziyyəti haqqında məlumat verərək aşkara çıxardığı bəzi nöqsanları da qurultay nümayəndələrinin diqqətinə çatdırır.

Naxçıvan Dövlət Arxivində mühafizə edilən "Naxçıvan MSSR Xalq Maarif Komissarlığı üzrə şəxsi heyətə aid H.Qazıyevin 1922-1925-ci illərdə Naxçıvan Pedaqoji Texnikumunda mürəbbi, Naxçıvanda "Nərimaniyyə tərbiyəxanası"nda tərbiyəçi, kargüzarlıq kursunda müəllim, Ordubad Pedaqoji Texnikumunda və birdərəcəli məktəbində müdir olmasını təsdiq edən əmrlər vardır. Bu illəri H.Qazıyevin Naxçıvanda təhsil sahəsində ruhuna və marağına uyğun olan istiqamətdə fəaliyyət göstərməsi üçün axtarışlar dövrü adlandırdımaq olar.

1925-ci ilin dekabrında H.Qazıyev yenidən Naxçıvan PedaqojiTexnikumuna qayıtmış və 20 ilədək bu təhsil ocağında rus dili müəllimi kimi fəaliyyət göstərmişdir. O, burada fənlərarası əlaqə metodundan bacarıqla istifadə edərək rus dilinin tədrisi zamanı ədəbiyyat fənninin imkanlarından da faydalanmağa xüsusi diqqət yetimişdir. Beləliklə, ustad pedaqoq bir tərəfdən canlı danışıq dilindən başqa, ədəbi-bədii materiallar əsasında rus dilinin tədrisi keyfiyyətini yüksəltmiş, digər tərəfdən isə tələbələrinə məşhur rus yazıçılarının əsərlərini orjinaldan oxutdurmağa nail olmuşdur. H.Qazıyevin həmin metoddan istifadə etməsini keçmiş tələbəsi Dövlət Məmmədov belə xatırlayır: "Öz tələbə yoldaşları arasında Heydər Əliyev Lev Nikolayeviç Tolstoyun "Hərb və sülh" romanını orijinaldan oxuyan ilk tələbə olmuşdu. Bunu ona rus dili müəllimi Həsən bəy Qazıyev məsləhət görmüşdü".

Naxçıvan MSSR Xalq Komissarları Sovetinin 14 avqust 1939-cu il 450 nömrəli qərarı ilə həmin ilin sentyabrında Naxçıvan Dövlət Müəllimlər İnstitutu (1943-cü ildə bu instituta Cəlil Məmmədquluzadənin adı verilmişdir) fəaliyyətə başlayır. O dövrün tanınmış müəllimlərindən Murad Tutayuq, İbrahimxəlil Axundov, Əsəd Cəfərov, Həsən Salayev, Abbas Əsgərov, Əbülfəz Həsənov, Əli Hüseynov, Xəlil Əliyev, Ağalar Qurbanov, Kamil Əliyevlə bərabər H.Qazıyev də instituta dəvət edilir. H.Qazıyev Naxçıvan Dövlət Müəllimlər İnstitutunda çox böyük həvəs və enerji ilə fəaliyyət göstərir və çox keçmədən baş müəllim vəzifəsinədək yüksəlir. Pedaqoji fəaliyyətinin belə məhsuldar bir dövründə H.Qazıyevin xalq maarifi sahəsindəki xidmələrti yüksək qiymətləndirilir. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1 iyul 1943-cü il tarixli fərmanı ilə ona Azərbaycan SSR əməkdar müəllimi fəxri adı verilir.

1945-ci ildən etibarən H.Qazıyevin səhhətində yaranan problemlər onun normal fəaliyyətinə öz mənfi təsirini göstərməyə başlayır. Bir müddət müalicə olunan H.Qazıyevin xəstəliyi institutda ağır pedaqoji işdə çalışmasına yol vermədiyi üçün 1949-cu ildə o, Naxçıvan şəhər 5 nömrəli səkkizillik məktəbə dəyişdirilir. Cəmi beş ay həmin məktəbdə işləyən H.Qazıyev 1950-ci ilin iyun ayının 1-də vəfat edir.

Araşdırmalarımızdan belə qənaətə gələ bilərik ki, Həsən bəy Qazıyev mürəbbi, müəllim, kargüzar, məktəb müdiri, kollegiya üzvü, institutun baş müəllimi vəzifələrində işləyərkən Naxçıvanda xalq maarifinin inkişaf etdirilməsinə öz töhfələrini vermiş, Azərbaycanın müxtəlif regionları, xüsusilə Naxçıvan muxtar respublikası üçün müəllim kadrlarının hazırlanmasında böyük əmək sərf etmişdir.

Fərman Xəlilov
AMEA Naxçıvan Bölməsi
Əlyazmalar Fondunun direktoru,
filologiya elmləri doktoru

Qərbi Azərbaycan – silinməyən yaddaş

Çar Rusiyasının Qafqazda Azərbaycan, erməni, gürcü və başqa xalqları bir-birinə qarşı qoymaqla bağlı siyasəti sonradan Sovet hakimiyyəti tərəfindən də planlı şəkildə davam etdirildi. Əslində, bu məkrli siyasət İttifaq hökumətinə regionda qeyri-rus xalqlar, xüsusilə də müsəlman və türklər üzərində öz hakim mövqeyini qoruyub saxlamağa hesablanmışdı. Bu məsələdə ermənilərdən xüsusi alət kimi istifadə edən Rusiyanın havadarlığı nankor qonşularımızı yeni ərazilər hesabına "Böyük Ermənistan" dövləti yarartmağa ruhlandırırdı.

Rusiya və digər qonşu dövlətlərin köməyilə Qərbi Azərbaycan torpaqlarında məskən salan və bu coğrafiyada heç vaxt yaşamayan ermənilər öz havadarlarının köməyi ilə 1905-1906, 1918-1920, 1948-1953-cü illərdə azərbaycanlılara qarşı amansız deportasiyalar həyata keçirdilər. Ötən əsrin 80-ci illərində SSRİ rəhbərliyinin xeyir-duasını alan nakor qonşumuz Azərbaycana qarşı əsassız ərazi iddiaları ilə çıxış etməyə başladılar. Və bu, ermənilərə soydaşlarımızın əsrlər boyu məskunlaşdıqları Qərbi Azərbaycandan deportasiyası üçün fürsət yaratdı. Bununla da, ermənilərin bir əsrə yaxın müddətdə havadarlarının köməyi ilə azərbaycanlı əhaliyə qarşı mərhələ-mərhələ həyata keçirdikləri etnik təmizləmə siyasəti, nəhayət, 1988-1989-cu illərdə başa çatdırıldı.

Ermənilərin insanlığa, beynəlxalq normalara sığmayan amansız deportasiya siyasəti nəticəsində ötən dövrdə qoca, uşaq və qadınlar daxil olmaqla 140 min nəfər soydaşımız vəhşicəsinə qətlə yetirilib. 750 min azərbaycanlı Qərbi Azərbaycandan didərgin düşüb. Təkcə 1918-1920-ci illərdə 10 min azərbaycanlı tarixi Vətəni olan Zəngəzurdan pərən-pərən salınıb, min bir əziyyətlə sahib olduqları əmlakları talan edilib.

1940-cı illərdə həyata keçirilmiş növbəti deportasiya zamanı xaricdən gətirilmiş erməniləri yerləşdirmək məqsədilə minlərlə azərbaycanlı dədə-baba yurdlarından didərgin salınıb. 1948-1953-cü illərdə Stalinin göstərişi ilə həyata keçirilən daha irimiqyaslı deportasiya zamanı soydaşlarımıza qarşı növbəti haqsızlıqlara yol verilib. Belə ki, deportasiya planından əvvəl öz məqsədlərinə çatmaq üçün xüsusi iyrənc siyasət yürüdən ermənilər məskunlaşdıqları kənd, qəsəbə, şəhər, dağ- dərə, mahalların, habelə tarixi məbədlərin, məscidlərin, ziyarətgahların adlarını dəyişdirib özününkləşdiriblər. Təkcə onu qeyd etmək kifayətdir ki, ötən müddətdə Qərbi Azərbaycanın 34 rayonunun adı dəyişdirilərək ermənileşdirilib. Bu prosseslər zamanı ermənilər 2 mindən çox qəbristanlığı, tarixi mədəni abidələri dağıdaraq yer üzündən silməyə nail olublar.

Sonuncu deportasiya zamanı isə 220 mindən artıq azərbaycanlı öz doğma yurd-yuvalarını tərk etməyə məcbur olub. 1988-1989-cu illərdə Azərbaycana dəyən maddi ziyanın statistik göstəricilərini hesablamaq mümkün olsa da, soydaşlarımıza dəyən mənəvi ziyan ölçüyəgəlməz dərəcədədir.

Qərbi Azərbaycanlılar Ermənistan ərazisindən deportasiya olunduqdan sonra erməni millətçiləri Dağlıq Qarabağda da bu etnik təmizləmə siyasətini, amansız soyqırımını yenidən həyata keçirmək, tarixi ərazimizdə ikinci erməni dövləti yaratmaq iddiasını açıq şəkildə bəyan etdilər. Məhz faşist, nasizm xislətini ortaya qoyan ermənilər beynəlxalq aləmin tanıdığı ərazi bütövlüyümüzü pozaraq torpaqlarımızın 20 faizini işğal etməyə nail oldular. BMT-nin Təhlükəsizlik Şurası qətnamələrinə, eləcə də beynəlxalq hüquqa məhəl qoymayan Ermənistan bu işğalı əbədiləşdirməyə çalışırdı. Lakin Ali Baş Komandan cənab İlham Əliyevin, rəşadətli Ordumuzun hünəri, minlərlə şəhidin qanı bahasına 44 günlük Vətən müharibəsi nəticəsində düşmən tapdağı altında qalan torpaqlarımız 30 illik həsrətdən sonra işğaldan azad olundu. 2023-cü ilin sentyabr ayında isə Azərbaycan Ordusunun həyata keçirdiyi antiterror tədbirləri nəticəsində separatçılar zərəsizləşdirilərək ərazi bütövlüyümüz tam təmin olundu.

Ermənilərin amansız deportasiya siyasətinin ağrı-acıları ailəmizdən də yan keçməyib. Bu vəhşi məxluqlar ata nənəmin ata-anasını da xüsusi qəddarlıqla qətlə yetiriblər. Babamın gözü qarşısında nənəmin kürək nahiyəsinə isti somavarı bağlayaraq onu xüsusi qəddarlıqla öldürüblər . On üç yaşlı Narıngül nənə xoş bir təsadüf nəticəsində isə evdə olmadığından dəhşətli işgəncədən qurtula bilib. Həmin ağır, faciəli illərdə tale onu Ordubad rayonuna aparıb çıxarıb. Burada bir ailə ona sahib çıxaraq evinə aparıb. Bu ailə isə mənim atamın ailəsi olur. Ata babam həmin qızı böyüdüb boya-başa çatdırdıqdan sonra oğlu ilə evləndirir. Beləcə, bu acı taleli qızcığazın həyatında yaxşılığa doğru bir dönüş baş verir. Bu hadisələri mən atamdan və 98 yaşlı bibimdən eşitmişəm. Ailəmizdə bu barədə söhbət düşdükdə onların kövrəldiyinin şahidi olurdum. Atam tez-tez mənə "qızım, bizim babalarımızı ermənilər yurd-yuvalarından didərgin salıb" – deyərdi. Bəlkə də uşaq olduğumdan bu acı həqiqətlərin dərinliyinə varmamışam. Ancaq indi anlayıram ki, torpaq nisgili, Vətən dərdi onlar üçün necə də ağır və dözülməz olub…

Öz tarixi torpaqımızda yaşamaq bizim haqqımızdır. Bu torpaqlar biz azərbaycanlıların olub, tarixən babalarımız yaşayıb, yaradıblar burada. Əminəm ki, biz də Qərbi Azərbaycana qayıdacağıq, Qarabağa qayıtdığımız kimi…

Günay Əliyeva
NDU Elmi kitabxanasının baş kitabxanaçısı

Ermənilərin Azərbaycan torpaqlarına köçürülməsindən sonra İrəvan quberniyasında baş verən demoqrafik dəyişikliklər

Rusiya-İran (1826-1828) və Rusiya-Türkiyə (1828-1929) müharibələrinin uğurla başa çatması ilə ermənilərin Cənubi Qafqaza köçürülməsi üçün geniş imkanlar açıldı.

Rusların Azərbaycan torpaqlarının, xüsusən İrəvan və Naxçıvan xanlıqlarını işğal etməsində ermənilər xüsusi fəallıq göstərmişdilər. Erməni kilsəsi, arxiyepiskop Nerses rus qoşunlarının canlı qüvvə, ərzaq və silahla təchiz edilməsində bilavasitə iştirak edirdi.. Erməni silahlı dəstələri hərbi əməliyyatlarda rus qoşunlarının tərkibində çıxış edirdilər.

1828-ci il fevralın 29-da general Paskeviç göstəriş verdi ki, ermənilər başlıca olaraq İrəvan və Naxçıvan vilayətlərində və qismən Qarabağda yerləşdirilsin, bir sıra müsəlman kəndləri dindaşlarının ən çox məskunlaşdığı yerlərə köçürülsün və həmin yerlər ermənilərə verilsin.

Əslində bu, azərbaycanlıları öz doğma torpaqlarında deportasiya edilməsinə istiqamət verilməsi demək idi. Veliçkonun yazdığı kimi bu göstəriş, Zaqafqaziyanın bəzi hissələrinin ermənilər tərəfindən müstəmləkələşdirilməsinin başlanması idi. Paskeviçin başqa bir direktivi belə idi: Xristianları Naxçıvan və İrəvan vilayətlərinə getməyə razı salmaq lazımdır. Bu vilayətlərdə xristian əhalisini nə qədər mümkündürsə, çoxaltmaq lazımdır. Erməniləri Azərbaycan torpaqlarında kompakt şəkildə yerləşdirməklə, Rusiya özünün müstəmləkə, imperiya siyasətinin əsas məqsədini-işğal edilmiş, din, dil, etnik-mədəni cəhətdən ona yad bir ölkədə öz gələcək hökmranlığı üçün etno-konfissional dayaq yaratmaq məqsədini reallaşdırmağa çalışırdı.

1828-ci ilin fevralın 10-da Türkmənçay sülhünün bağlanması ilə 1826-1828-ci illər Rusiya-İran müharibəsinə son qoyuldu. Bu müqavilə ilə İrəvan və Naxçıvan xanlıqları Rusiyanın ərazisinə qatıldı. Martın 20-də çar I Nikolay bu müqaviləni təsdiq etdi və ertəsi gün həmin ərazilərdə "Erməni vilayəti"nin yaradılması haqqında fərman verdi. Yeni yaradılmış inzibati ərazi İrəvan və Naxçıvan əyalətlərindən və Ordubad dairəsindən ibarət idi.

1829-cu ildə Paskeviçin göstərişi ilə İ.Şopen yeni yaradılmış vilayətdə kameral siyahıyaalma keçirdi. Siyahıyaalmaya görə İrəvan vilayətində 521 kənd (Naxçıvanda 179, Ordubad dairəsində 52) mövcud idi. Müharibə nəticəsində vilayətin ərazisində 359 kənd, o cümlədən İrəvan əyalətində 310, Naxçıvan əyalətində 42, Ordubad dairəsində isə 6 kənd dağıdılmış, əhalisi qaçqın düşmüşdü. Siyahıyaalmanın nəticələrinə görə, vilayətdə 81.749 müsəlman və 25.131 erməni qeydə alınmışdı. Siyahıyaalmanın üstün cəhəti onda idi ki, İrandan və Türkiyədən köçürülən ermənilərin sayı və onların hansı yaşayış məntəqələrində məskunlaşdırılması dəqiq göstərilmişdi. Belə ki, 1828-1829-cu illər ərzində İrandan Şimali Azərbaycana köçürülmüş ermənilər 6.946 ailə və 35.560 miqrant təşkil edirdi. Köçürülən ermənilərdən 23.568 nəfər (8599 ailə) İrəvan əyalətinin 129 kəndində, 10.562 nəfər (2137 ailə) Naxçıvan əyalətinin 61 kəndində, 1340 nəfər isə (250 ailə) Ordubad dairəsinin 12 kəndində yerləşdirildi. 1828-1829-cu illər Rusiya-Türkiyə müharibəsindən sonra vilayətin ərazisinə 21.666 nəfər erməni, 324 nəfər yezidi kürdü köçürüldü və onlar vilayətin 129 kəndində yerləşdirildi. Ermənilərin İrəvan vilayətinə köçürülməsi sonrakı illərdə də davam etdirilirdi.

Ümumiyyətlə, Türkmənçay və Ədirnə müqavilələrinin bağlanmasından sonra "Erməni vilayəti"nə (İrəvan və Naxçıvan xanlıqlarına) 57.266 nəfər erməni köçürülmüşdü. Halbuki köçürülmədən əvvəl həmin ərazidə cəmi 25.151 erməni yaşayırdı.

Bütün bunlar ermənilərin Cənubi Qafqaza, ilk növbədə Azərbaycana kütləvi və məqsədəuyğun şəkildə köçürülməsinin başlanğıcı idi. Bölgədə etnik-dini şəraitin dəyişdirilməsinə yönəldilmiş rus müstəmləkə siyasətinin praktik surətdə həyata keçirilməsi prosesi fasiləsiz olaraq XX əsrin əvvələrinə qədər getmiş, Sovet dövründə bu siyasət daha incə formada davam etdirilmişdi. Bunu rus müəllifləri Dubrovin, Ezov, Qriqoryev, Veliçko, Qriboyedov, Şavrov və başqaları da təsdiq edirdilər.

N.Şavrov Rusiyanın Cənub Qafqazdakı müstəmləkəçilik siyasəti haqqında yazırdı: "Biz müstəmləkəçilik fəaliyyətimizə Zaqafqaziyada rusların deyil, bizə yad olan xalqların yerləşdirilməsindən başladıq. 1828-ci ildən 1830-cu ilədək Zaqafqaziyaya 40 min İran və 84 min Türkiyə ermənilərini köçürmüş və onları Yelizavetpol və İrəvan quberniyalarının ən yaxşı dövlət torpaqlarında yerləşdirmişdik ki, orada erməni əhalisi cüzi idi.…

Azərbaycanın digər bölgələrində də ermənilərin sayı mexaniki surətdə artmış, süni xarakterli "demoqrafik partlayış" baş vermişdi. N.Şavrov yazır ki, ermənilərin köçməsi 1893-1894-cü illərdə Türkiyədəki erməni ixtişaşlarından sonra daha da genişlənmiş və Q.Qolitsinin 1897-ci ildə Qafqaza canişin təyin olunmasına qədər gəlmə ermənilərin sayı artıq 1884-cü ildəki kimi 100 min deyil, 900 minə yaxın idi. Onların hamısı rus təbəəliyini qəbul etmiş və əvvəllər buraya köçürülmüş erməni əhalisinin içində itib-batmışdılar. N.Şavrov qeyd edir ki, XX əsrin əvvəllərində Zaqafqaziyada yaşayan 1.300 min ermənin 1 mln-dan çoxu yerli ermənilər deyil, rusların vasitəsilə məskunlaşmış ermənilərdir.

Beləliklə, rusların simasında möhkəm arxa tapan ermənilər hər vasitə ilə Cənubi Qafqazda hakim millətə çevrilmək üçün çalışırdılar. Rus ordusunda və Qafqaz administrasiyasında çalışan Lazerev, Loris-Melikov, Qukasov, Mədətov, Behbudov, Ter-Qukasov və başqa erməni generalların və məmurların sayəsində onlar istədiklərinin çoxusuna nail ola bilmişdilər. Ermənilərin kütləvi sürətdə Azərbaycan torpaqlarına köçürülməsi, İrəvan və Naxçıvan xanlıqlarının ərazilərində qondarma erməni vilayətinin yaradılması və Rusiya çarının çoxsaylı titullarına onun erməni vilayətinin hakimi titulunun də əlavə edilməsi artıq Qafqazda güclü bir erməni ekspansiyasının başlanmasının ilk əlamətləri idi.

V.Veliçkonun qeyd etdiyi kimi ermənilər diyarda real qüvvəyə çevrilmiş, ermənilərin tuzları (nüfuzlu adamları –M.A.) maneəsiz olaraq bütün həyat mənbələrini-bazarları, bankları hətta qulluqçu insanların taleyini öz əllərinə keçirmiş və tam cəzasızlıqdan sui-istifadə edirlər. Ermənilərin Qafqazda azğınlığı o dərəcəyə çatmışdı ki, hətta V.Veliçko "Qafqazın ermənilərinin sayı mexaniki surətdə artmış, süni xarakterli "demoqrafik partlayış" baş vermişdi. N.Şavrov yazır ki, ermənilərin köçməsi 1893-1894-cü illərdə Türkiyədəki erməni ixtişaşlarından sonra daha da genişlənmiş və Q.Qolitsinin 1897-ci ildə Qafqaza canişin təyin olunmasına qədər gəlmə ermənilərin sayı artıq 1884-cü ildəki kimi 100 min deyil, 900 minə yaxın idi. Onların hamısı rus təbəəliyini qəbul etmiş və əvvəllər buraya köçürülmüş erməni əhalisinin içində itib-batmışdılar. N.Şavrov qeyd edir ki, XX əsrin əvvəllərində Zaqafqaziyada yaşayan 1.300 min ermənin 1 mln-dan çoxu yerli ermənilər deyil, rusların vasitəsilə məskunlaşmış ermənilərdir.

Beləliklə, rusların simasında möhkəm arxa tapan ermənilər hər vasitə ilə Cənubi Qafqazda hakim millətə çevrilmək üçün çalışırdılar. Rus ordusunda və Qafqaz administrasiyasında çalışan Lazerev, Loris-Melikov, Qukasov, Mədətov, Behbudov, Ter-Qukasov və başqa erməni generalların və məmurların sayəsində onlar istədiklərinin çoxusuna nail ola bilmişdilər. Ermənilərin kütləvi sürətdə Azərbaycan torpaqlarına köçürülməsi, İrəvan və Naxçıvan xanlıqlarının ərazilərində qondarma erməni vilayətinin yaradılması və Rusiya çarının çoxsaylı titullarına onun erməni vilayətinin hakimi titulunun də əlavə edilməsi artıq Qafqazda güclü bir erməni ekspansiyasının başlanmasının ilk əlamətləri idi.

V.Veliçkonun qeyd etdiyi kimi ermənilər diyarda real qüvvəyə çevrilmiş, ermənilərin tuzları (nüfuzlu adamları –M.A.) maneəsiz olaraq bütün həyat mənbələrini-bazarları, bankları hətta qulluqçu insanların taleyini öz əllərinə keçirmiş və tam cəzasızlıqdan sui-istifadə edirlər. Ermənilərin Qafqazda azğınlığı o dərəcəyə çatmışdı ki, hətta V.Veliçko "Qafqazın ermənilərinin sayı mexaniki surətdə artmış, süni xarakterli "demoqrafik partlayış" baş vermişdi. N.Şavrov yazır ki, ermənilərin köçməsi 1893-1894-cü illərdə Türkiyədəki erməni ixtişaşlarından sonra daha da genişlənmiş və Q.Qolitsinin 1897-ci ildə Qafqaza canişin təyin olunmasına qədər gəlmə ermənilərin sayı artıq 1884-cü ildəki kimi 100 min deyil, 900 minə yaxın idi. Onların hamısı rus təbəəliyini qəbul etmiş və əvvəllər buraya köçürülmüş erməni əhalisinin içində itib-batmışdılar. N.Şavrov qeyd edir ki, XX əsrin əvvəllərində Zaqafqaziyada yaşayan 1.300 min ermənin 1 mln-dan çoxu yerli ermənilər deyil, rusların vasitəsilə məskunlaşmış ermənilərdir.

Çar hakimiyyət orqanlarının bilavasitə havadarlığı ilə köçmə ermənilər yerli azərbaycanlıları sıxışdırmağa başladılar. Qriboyedovun özü etiraf edirdi ki, "müsəlman mülkədarlarının torpaqlarında yerləşdirilmiş" erməni köçkünləri müsəlmanları sıxıntılı vəziyyətə salır və müsəlmanlar ehtiyat edirlər ki, ermənilər bir dəfə buraxıldıqları torpaqlara həmişəlik yiyələnəcəklər.

İndiki Ermənistan ərazisindən Azərbaycan türklərinin ilkin deportasiyası XIX əsrin ilk əvvəllərində - Rusiyanın Cənubi Qafqazı ilhaqına başlaması ilə üst-üstə düşür. Ruslara tabe olmaqdan imtina edən Pəmbək türkləri Rəhimbəy və Səid bəyin başçılığı ilə bölgəni tərk edərək Qars paşalığına sığınmağa məcbur olmuşdular.

Rus qoşunları Şörəyeli tutduqdan sonra həmin ərazidə yaşayan yerli qarapapaq tayfasının bir hissəsi (təqribən 26 ailə) də Qarsa mühacirət etməli olur. I Rusiya-İran müharibəsi nəticəsində Şörəyelin kəndləri dağıdılmış, əhalisi isə qaçqın düşmüşdü. Sonralar həmin kəndlərdə Türkiyədən gələn ermənilər məskunlaşmışdı. Müharibə dövründə 500 ailəlik İrəvan azərbaycanlılarının Qarsa köçməsi haqqında məlumat mövcuddur.

Rus ordusu İrəvan xanlığını zəbt etdikdən sonra həmin ərazidə yaşayan köklü türk əhalisinin bir hissəsi məcburi olaraq öz doğma torpaqlarını tərk edərək Türkiyə və İrana köçməli oldular. Paskeviçin Qraf Nesselorda göndərdiyi 27 iyul 1828-ci il tarixli məktubunda qeyd edilirdi ki, Qarapapaq tayfasından 100 ailə, ayrımlardan 300 ailə Qarsa, Uluxanlı tayfasından 600 ailə Bəyazidə, müsəlman cəlalı kürdləri Muşa qaçmışdır. Qarapapaqlardan digər 800 ailə isə Arazı keçərək Həsən xanın (İrəvan xanı Hüseyn xanın qardaşı) dəstəsinə qoşulmuşlar. Onlarla birgə 700 ailədən ibarət Cəmədinli kürdləri, 400 ailə birukilər, 400 ailə dovmanlılar, 200 ailə çobankərəlilər, 1000 ailə zilanlı kürdü Türkiyəyə keçmişdilər.

Ümumiyyətlə, 1826-1828-ci illər Rus-İran və 1828-29-cu illər Rus-Türk müharibələri nəticəsində İrəvan və Naxçıvan xanlıqlarının ərazisindən yerli müsəlman əhalisinin xeyli hissəsi qaçqın düşmüş, orada yalnız 81.749 nəfər (17078 ailə) müsəlman qalmışdı.

Ermənilər Azərbaycan torpaqlarına köçürüldükdən sonra əhalinin 80 %-ni təşkil edən yerli azərbaycanlıların İrəvan quberniyasında (1849-cu ildən) sayı getdikcə azalır və onlar burada azlığa çevrilirlər. Məsələn, təmiz Azərbaycan türklərindən ibarət Kavar kəndi 1830-cu ildən sonra Bəyaziddən gəlmiş ermənilərin hesabına məskunlaşdırılır və o Yeni Bəyazid adını alır. XIX əsrin 50-ci illərində burada 2.560 erməni yaşayırdı. Yeni yaradılmış Yeni Bəyazid qəzasında 23.038 erməni, 8.207 (36 %) azərbaycanlı yaşayırdı. Oxşar şərait Aleksandropol qəzasının Pəmbək, Şorayel sahələrində də yaranmışdı. Beləliklə, keçmiş İrəvan xanlığının ərazisində yerli azərbaycanlılarla gəlmə ermənilərin nisbəti sonuncuların xeyrinə dəyişməyə başlamışdı.


İ.Şopenin göstərdiyinə görə, İrəvan əyalətində 2.984 müsəlman ailəsindən cəmi 847 (28%) qalmış, onların sayı təqribən 3 dəfə azalmışdı. Onlar əsasən qonşu dövlətlərə-Türkiyə və İrana köçmüşdülər. Əlbəttə müsəlmanların İrəvan quberniyasından mühacirəti təkcə qonşu dövlətlərə deyildi. Ermənilərin üstünlük təşkil etdiyi ərazilərdən köçən azərbaycanlılar əsasən müsəlmanların çoxluq təşkil etdiyi qonşu vilayətlərə-Elizavetpol, Bakı quberniyalarına köçməli olurdular.

Yerli azərbaycanlıların öz torpaqlarında sayının azalması prosesi Naxçıvanda da özünü göstərirdi. V.Qriqoryevin məlumatına görə 1827-28-ci illərdə Naxçıvan xanlığında 4.600 ailədən 4.170 ailə azərbaycanlılardan ibarət idi (90 %). 1832-ci ildə köçürülmə siyasəti nəticəsində onların sayı 2.791-ə düşmüş, təqribən 60 % azalmışdı. Akademik T. Köçərli isə 1828-ci ildə Naxçıvan, Ordubadda 4.149 azərbaycanlı ailəsinin (83,6 %) və 810 erməni ailəsinin olduğunu, iki ildən sonra erməni ailələrinin sayının 3.321-ə çatdığını qeyd edir. Çox təəssüf ki, müəllif bu məlumatın mənbəyini göstərməmişdir. Lakin ermənilərin və rusların bütün cəhdlərinə baxmayaraq, Naxçıvan diyarında etnik vəziyyəti ermənilərin xeyrinə dəyişdirmək mümkün olmamışdır. Belə ki, ermənilərin buraya kütləvi köçürülməsinə baxmayaraq 1897-ci ilin siyahıyaalınması göstəricilərinə görə Naxçıvan və Şərur-Dərələyəz qəzalarında yalnız 55 min 398 nəfər erməni, 125 min 712 nəfər azərbaycanlı yaşayırdı.

Bu faktlar XIX əsrdə və XX əsrin əvvəllərində guya Naxçıvan əhalisinin əksəriyyətini ermənilərin təşkil etdiyi barədə uydurmaları bir daha təkzib edir və diyarın əzəli türk torpağı olduğunu təsdiqləyir. Ələ keçirdikləri ərazilərdə ermənilər demoqrafik vəziyyəti öz xeyirlərinə dəyişdirməklə bərabər, bu ərazilərin ermənləşdirilməsinə başladılar. Bütün Azərbaycanda, xüsusən İrəvan quberniyasında islam maddi mədəniyyət abidələri genosidə məruz qalır, türk toponimlərinin dəyişdirilməsinə cəhdlər edilir, qədim alban abidələri ermənilərin adına çıxarılırdı.

Abdulla Mustafayev
"Ümumi tarix" kafedrasının dosenti

HANI O SƏNDƏKİ EL, DƏRƏLƏYƏZ?



Qərbi Azərbaycandan didərgin düşən insanlarımızın acı fəryadları, fəlakətləri yaxın tarixin erməni zülmündən qaynaqlanan acı bir xatirəsidir. Qərib eldə qalan qərib yurdumuzun – Qərbi Azərbaycanımızın gözəl günləri, erməni zülmünün xarabaya çevirdiyi insan həyatları, bir millətin toplu faciəsi, işğal altında qalan yer-yurdları və s. yazılan əsərlərdə, qoşulan şeirlərdə, aparılan araşdırmalarda, deyilən xatirələrdə öz yanğısı ilə yaşamaqdadır.

Bizim çox əziz müəllimlərimizdən olmuş əvəzsiz elm xadimi, professor Həsən Mirzəyevin min bir zəhmətlə ərsəyə gətirdiyi və çap etdirdiyi "Qərbi Azərbaycanın Dərələyəz mahalı" irihəcmli əsəri bu yurd yerimizin tarixini, toponimikasını, etnoqrafiyası, mədəniyyəti və ədəbiyyatını öyrənmək baxımından çox misilsiz, qiymətli bir əsərdir. Təxminən 860 səhifəlik irihəcmli bir kitab olan bu əsərdə müəllifin oxucularına müraciəti, "Dərələyəz həqiqətləri", o cümlədən azərbaycanlıların müxtəlif illərdə öz torpaqlarından deportasiyası, azərbaycanlılara qarşı soyqırımı haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı, habelə bütün bu xain düşmənlikləri eləmiş yeni əsrin yeni faşistləri olan ermənilər barədə əhatəli, sanballı məlumatlar verilmişdir. Səkkiz fəsil daxilində müəllifin uzun illərin tədqiqatlarına dayanan dəyərli tapıntıları, fikir, mülahizə və qənaətləri yer almışdır. Alimin ayrıca bəhs olaraq təqdim etdiyi "Aşıq, şair və şairtəbiətli adamların şeirlərində Dərələyəzin, Vətən və yurd həsrətinin tərənnümü" adlı beşinci fəsil öz maraqlılığı ilə nəzər-diqqəti cəlb edir.

Yaradıcılığında Qərbi Azərbaycanımızdan didərginlik kədəri, vətəndən uzaq salınmanın müsibət və nisgili dərdli poetik dillə əks olunmuşdur. Həm də gözəl şair olan el ağsaqqalı, professor Həsən Mirzəyev də vətən həsrəti və nisgilini, elin vətən dərdini dilə gətirmiş, poetik yaddaşa çevirmişdir. Şair Həsən Mirzənin "Dərələyəz", "Dağlar" rədifli şeirlərində, "Dərdimi" qoşmasında, Aşıq Mehdi ilə olan deyişmələrində vətəndən uzaq düşmənin ağrılı, kədərli, nisgilli əhvalını görür, ədəbi dilin üsyankarlığı ilə vətəndaş mübarizəsinin şahidi oluruq. "Dərələyəz" rədifli şeirində şair Həsən Mirzə el hayqırtısını ümumiləşdirərək deyirdi:

Ey ana torpağım, ey can diyarım,
Hanı o səndəki el, Dərələyəz?
Ey cənnət məkanım, ey dağ vüqarım,
Pərən-pərən olub el, Dərələyəz!
Yaram göz-göz olub bil, Dərələyəz!
***
Düşmən əlindəsən, gələ bilimirəm,
Axan göz yaşını silə bilmirəm.
Dərd məni öldürür, ölə bilmirəm.
Aylarım olubdu il, Dərələyəz!
Sənsiz lal olubdur dil, Dərələyəz!

Şair başqa bir "Dərələyəz" rədifli şerində:

Doğranıbsan dilim-dilim,
Elin itib ilim-ilim.
Qərib yerdə zülüm-zülüm
El ağlayır, Dərələyəz!-

deyə vətəndən didərgin düşmənin kədərli halını ifadə etmişdir.

Sinəsi dərdli olsalar da, dərələyəzli el şairlərimiz həm də ümidli, inamlı idilər... İnanırdılar ki, qəhrəman və yurd məhəbbətli elimiz mütləq oraya – öz elinə, obasına dönəcək, müxənnətdən, qarı düşməndən öz yurdunu təmizləyəcək. Bir də o ellərə bahar gələcək, ağaclar çiçək açacaq, təbiət güləcək, sakinsiz illər keçirmiş evlər doğma sikinlərinin gəlişinə sevinəcək, el də, oba da diriləcək, həyat yenilənəcək. Buna görə də şairlər əsərlərində də dönələrlə bu ümid dolu inamlarını dilə gətirmişlər. Dərələyəz mahalının el ağsaqqalı şair Həsən Mirzənin dediyi kimi:

Mütləq gələcəyəm, bil, Dərələyəz,
Çox ötüb keçsə də il, Dərələyəz!
Həsən sənindir, bil, Dərələyəz!

2020-ci ilin noyabr ayında rəşadətli Azərbaycan Ordusunun qəhrəmanca döyüşündən sonra Vətən müharibəsini qələbə ilə tamamlayan Azərbaycan xalqı artıq o doğma torpaqlarda – Zəngilan, Ağdam, Füzuli, Şuşa və ümumən Qarabağa qayıtmaq, məskunlaşmaq və inkişaf etmək missiyası həyata keçirir. Hər bir azərbaycanlı əmindir ki, hər bir azərbaycanlının prezidenti olmağın öhdəsindən müvəffəqiyyətlə gələn, Azərbaycana böyük Zəfər bəxş edən Müzəffər Ali Baş Komandan İlham Əliyev müdrik lider Heydər Əliyev yolu ilə inamla addımladıqca öz doğma yurdlarından didərgin düşdükləri qərib elimizə – Qərbi Azərbaycanımıza da qayıdış olacaqdır, mütləq olacaqdır! Biz mütləq qayıdacağıq!!!

Ramiz QASIMOV
AMEA Naxçıvan Bölməsinin əməkdaşı,
filologiya üzrə fəlsəfə doktoru, dosent

Qərbi Azərbaycandan deportasiya olunanların çəkdiyi məşəqqətlər lirik poeziya misralarında öz təsirli ifadəsini tapır. Bu poetik kompozisiyalar köç edənlərin mübarizələrinin dərin emosional və təcrübi aspektlərini çatdırmaq, onların səyahətlərinin, yerdəyişmələrinin və yeni şəraitə uyğunlaşmaqda üzləşdikləri çətinliklərin mahiyyətini əks etdirən vasitə rolunu oynayır.

Qərbi Azərbaycandan deportasiya olunanların əzablarının lirik poetik ifadəsi



Qərbi Azərbaycandan deportasiya olunanların üzləşdiyi çətinliklər lirik şeir, bayatı, ağı misraları vasitəsi ilə öz təsirli ifadəsini tapmışdır. Bu misralarda köç edənlərin məşəqqətlərinin emosional və təcrübi ölçüləri qabarıq şəkildə əks etdirilərək özlüyündə dərin bir hekayə yaradır. Üstəlik, lirik poeziya köç edənlərin öz daxili hisslərini ifadə etmək imkanı yaradır. Diqqətlə seçilmiş sözlər və təlqinedici obrazlar vasitəsilə şairlər tanışlıq həsrətini, ayrılıq ağrısını, çətinliklər qarşısında yaranan möhkəmliyi çatdırırlar. Bu misralar dərin transformasiyaya uğramış bir cəmiyyətin paylaşılan təcrübələrini ifadə edən kollektiv səsə çevrilir. Mahiyyət etibarı ilə lirik poeziya misraları Qərbi Azərbaycandan deportasiya olunanların məşəqqətlərinin güclü və davamlı sübutu kimi xidmət edir, onların təcrübələrini əbədiləşdirir və insan hekayələrinin daha geniş təsvirinə töhfə verir.

"Türklərin tarix və mədəniyyətinə bir baxış" adlı kitabında Cavad Heyət yazır: "Bu gün türkdilli ellər Balkanlardan Sakit okeana qədər, Quzeydə Şimal dənizindən Güneydə Tibetə qədər geniş bir məntəqədə yaşayırlar. Xalqın əksəriyyətini təşkil edən türklər Türkiyə, Qərbi ve Şərqi Türküstan, Azərbaycan, Başqırdıstan, Çuvaşıstan, Yakutistan və Altay dağları – Baykal dəryaçası arasındakı Altay, Xakes ve Tuva əyalətlərində və xalqın daha azını təşkil etmək üzrə Yuqoslaviyada, Polşada, Ruminyada, Bolqarıstanda, İraqda, Suriyada, Əfqanıstanda, Kıbrısda və İranın müxtəlif əyalətlərində toplu halda yaşayırlar".

Torpaqlarımız nə qədər böyük, ucsuz-bucaqsızdırsa, dərdlərimiz, ağrı-acılarımız, həsrətlərimiz də bir o qədər böyükdür. Qədim dövrlərdən bu günə zamanın sərt rüzgarları türk ellərinin başı üstündən əsib, torpaqlarımız yağmalanıb, qız-gəlinlərimiz əsir-yesir olub, eldən – elə, diyardan – diyara sürüklənərək qaçqın, köçkün taleyi yaşamışıq. Tarix yazmaqdan çox tarix yaradan ulu babalarımız, ulu nənələrimiz dərdlərini sözə, ağıya, bayatıya çevirərək yaddaşlara yazıblar. Hər bayatı, hər ağı öz məna yükünə görə böyük - böyük kitablardan, dastanlardan daha artıq xalqın taleyi haqda gələcək nəsillərə məlumat verib. Dərd, qəm şələlərinin ağırlığına mərdliklə sinə gələn babalarımız, nənələrimiz sözlə öz dərdlərini yüngülləşdirməyə çalışıblar:

Lələ mənəm, Lələ mən,
Yük altdayam hələ mən.
Dərddən, qəmdən, hicrandan
Bağlamışam şələ mən.

Tarix boyu xalqımız çox məşəqqətlərə sinə gərib. Qaçqın, köçkün, sürgünlük taleyi yaşayıb. Təbiidir ki, bütün bu proseslər xalqın həm şifahi, həm də yazılı ədəbiyyatında izsiz qalmayıb. Qürbət ağrı-acısı bayatılarımızda daha çox işlənib. Qürbət diyarda çəkilən Vətən dərdi elə bayatıların, ağıların yaranmasına səbəb olur ki, bu yazılarda da müəyyən bir tarixi dövr, zaman yaşayır.

Aşıq itkin diyara,
Xalın itkindir yara.
Səni məndən edəni
Düşsün itkin diyara

XX əsrdə Azərbaycan xalqı dəfələrlə öz doğma yurdundan qaçqın, köçkün olub. 1905-1907-ci illər, 1918-1920-ci illərdə erməni daşnakları Azərbaycan ellərini xarabazara çevrilib. 1948-1953-cü illərdə yüz minlərlə soydaşımız ata-baba yurdu olan Qərbi Azərbaycandan qovulub. Soydaşlarımızın son köçləri də 1988-ci ildə başlanıb. 1988-ci ildə indiki Ermənistan ərazisində yaşayan azərbaycanlıları öz dədə-baba torpaqlarından qovdular. Sonra isə Qarabağda yaşayan soydaşlarımız doğma ev-eşiklərindən didərgin düşdülər. Min bir əzaba, dərdə düçar olan soydaşlarımız Şuşa, Laçın, Kəlbəcər, Ağdam, Zəngilan, Qubadlı və digər rayonlarımızın, şəhərlərimizin, kəndlərimizin itkisi ilə üz-üzə dayandı. Bu ağrı-acılar Azərbaycan ədəbiyyatında, folklorunda öz bədii əksini tapdığı kimi Naxçıvanda yaşayıb-yaradan şairlərin yaradıçılığında da izsiz qalmadı. Eyni zamanda yaranan folklor nümunələrimizdə də biz bu ağrı-acılarla rast gəldik:

Gülləri solan dağlar,
Oxlanıb duran dağlar.
O sərin yaylaqların
Olubdur viran dağlar
***

Əsir, əsir ağlaram,
Çox kəm, kəsir ağlaram.
Düşdüm qürbət ellərə
Oldum yesir ağlaram

Elindən, obasından ayrı düşən insanların yurd, Vətən sevgisi son illər yaranan bayatıların əsas mövzusunu təşkil edir. Vətənin yağı tapdağında qalması, yurd-yuvanın dağılması ağır, sağalmaz yara kimi hər bir insanı narahat edir, düşündürür:

Mən aşiq budağından,
Budağın yarpağından,
Gedəydim Vətənimə
Öpəydim torpağından.

Qaçqın, köçkün taleyi yaşayan insan bir də ona görə özünə qayıda bilmir ki, onun təkcə evini, könül dünyasını deyil, bağlandığı, könül verdiyi hər bir şeyini əlindən alıblar. Ona görə də qoyub gəldiyi gül-çiçəkli dərələri, dağları yadına düşən şair qəlbi köçkünün, qaçqının dilindən qopan hər bir bayatı da qəm, nisgil, dərd, ələm yaşayır:

Mən aşiq gül – çiçəyim,
Qalxmasın mil çiçəyim.
Ellərin əsir olub
Sən də sol gül – çiçəyim

Bölünən, parcalanan Vətənin hər bir əzabı onun hər bir vətəndaşının könül ahı, könül yarasıdır:

Günəşimin sarısı,
Yox vətənin yarısı.
Millətim qacqın olub,
Çəkir Vətən ağrısı

"Azərbaycan folkloru antologiyası" silsiləsində nəşr olunan "Naxçıvan folkloru" kitabında yazılan "Naxçıvanın söz xəzinəsi" adlı ön sözdə deyildiyi kimi "Ulu türk yurdu, qədim intibah mərkəzlərindən olan Naxçıvan zaman - zaman tarixin yaddaşına möhtəşəm bir Naxçıvannamə yazıb. Burada yurdun söz xəzinəsi, öz xəzinəsi yaranıb: kəlməsi, cümləsi, ilməsi, cilvəsi sehrdi, möcüzədi…" .

Hər bir dərdin, əzabın başlanğıc nöqtəsi var. Azərbaycanda qaçqın, köçkün taleyi yaşayan insanların dərdinin kökündə ermənilərin əsrler boyu xalqımıza qarşı yeritdikləri məkrli siyasət dayanıb. Eldə gözəl bir məsəl var: Arxalı köpək qurd basar. Ermənilər də böyük dövlətlərin məkrli siyasətindən güc alaraq xalqımızın başına müsibətlər gətiriblər:

Göyçədi,
Köksü göyçə-göyçədi.
Viran qalan elimin
Birisi də Göyçədi

Bu gün hər birimiz bu həqiqətə inanırıq ki, vaxt gələcək soydaşlarımız yenidən öz dədə-baba torpaqlarına qayıdacaqlar. Bu gün Qarabağa, Şərqi Zəngəzura doğru uzanan yol, zaman gələcək Qərbi Azərbaycana da uzanacaq.

Sədaqət NEMƏTOVA
filologiya üzrə fəlsəfə doktoru,
dosent

Vətən həsrəti, yurd nisgili, qəriblərin əmanəti (eşitdiklərim, duyduqlarım, inandıqlarım)

Buxarı qurum olar,
Yandıxca qurum olar.
Vətən yada düşəndə
Ürəyə zulum olar.

Vətən həsrəti, yurd nisgili qayğılı baxışlarında, gözlərinin dərinliklərində gizlənən Minəş nənə deyərdi bu bayatını. Ağappaq, gözəl üzündə şırım salan dərin qırışlar keçdiyi keşməkeşli yolları xatıradırdı. Qarakilsə (Sisyan) rayonu Murxuz kəndində sayılıb seçilən, kişi qeyrətli, ər hünərli, mərdanə duruşuyla tipik türk xatunlarını xatırladan Minəş nənə! Belinə enli gümüş kəmər bağlayıb kənd içinə çıxanda hamı onu Minəş qardaş deyə çağırardı. Elindən, obasından didərgin düşmüş Minəş nənəni illər sınıxdırmış, taleyinə qəriblik, qismətinə köçkünlük yazmışdı. Sözlü-nağıllı, sinədəftər nənəm ocağına gəlin gəldiyim gündən bəri fürsət düşən kimi mənə Murxuzdan danışırdı. Söhbətilə sanki ürəyini boşaldır, nisgilini dağıdır, içindəki yurd yanğısını söndürürdü. Dağlar qoynunda yaşayan dağ cüssəli, sinəsi dağlı bu qadın mənə acının, qəribliyin, didərginliyin, köçkünlüyün tərcümanı olmuşdu. Nənəm danışdıqca ruhum qanad açıb o yerləri qarış-qarış gəzirdi. Hər sözü, hər kəlməsi yaddaşıma iz salıb, möhür vurmuşdu. Nənəm danışırdı: "Kəndimiz güneydə yerləşirdi, iki çayın arasında. Çox hissəsi güney, az hissəsi qara güney adlanırdı". Bu sözdən sonra Böyük çay, Çiçəkli çay, Əyri çay boyunca xəyali səyahətə çıxırdım:

Çay yuxarı qalxdıca yaylaq yerləri, biçənəkləri sadalayırdı: Götür gəl, Uz qəbri, Barmaqlı, Aralıq, Dəvəüçən (Dəvəuçan), Dəliçay, bir az da yuxarı qalxanda Səbət keçmə...

- Dayan, dayan, ay nənə! Bir də say!
- Götür gəl, Uz qəbri....
- Necə?
- Uz qəbri!

Fikrim tarixin dərinliklərinə gedir. Uz qəbri -Oğuz qəbri. Adı sahibini açıq-aşkar haraylayır. Deməli, Uz tayfaları, Oğuz boyları burda məskən salıb.

Nənəm danışır: "Kəndin girişində Qala adlanan yurd yeri vardı". Yenə o yerlərə xəyali səyahətə çıxıram. Kəndin girəcəyində yerləşən qədim qala və onun ətrafında nə vaxtsa mövcud olmuş yaşayış yerlərinin qalıqları, Alban əlifbası ilə yazılı qəbir daşlarının mövcudluğu Murxuz kəndinin çox qədim tarixindən xəbər verir. Murxuz kəndinin mövcudluğu tarixi mənbələrə əsasən XVI əsrin ortalarına təsadüf edir(mənbə: Osmanlı tarixi. Murxuz kəndinin adına tarixdə ilk dəfə 1590-cı il ''İrəvan əyalətinin icmal dəftəri''ndə rast gəlinir və Murxuz kimi qeyd olunur) Mənbələrdə kəndin adı "Murquz" yaxud "Murqus" olaraq çəkilir. Kəndin ''Murxuz'' adlanması müxtəlif tarixi mənbələrdə ayrı-ayrı mənalar kəsb etsə də, əsasən çoxluğun Murx-uz sözünün sonluğuna istinad edərək ''Oğuz boyları''na bağlılığı üzərində dayanılmaqdadır.

Nənəmin həsrət dolu nisgilli, ürəyinin atəşilə bişirdiyi, göz yaşıyla suladığı kəlmələr məni xəyaldan ayırır: Kəndin qarşısında Qurban təpəsi, arxasında böyük Qurban təpəsi. Böyük çay üstündəki yer adlarını sadalayır: Armudluq, Yarğan dibi, At ölən. Orda iki dərə ayrılır. Kopar dərəsi, Qarabağlı düşən, Yeddi bulaq, Qırxlar piri, Təkcə piri, Sarı yer ... Bir dənə də olsun yad dildə toponim yoxdur, yer-yurd adlarında, maddi abidələrdə, tarixi məxəzlərdə ancaq və ancaq türk toponimlərinə rast gəlinir. Türk adlı, türk qeyrətli insanların yurdu imiş Murxuz kəndi.

"Kəndin sayılıb seçilən adamları, ər kişiləri olub" - deyə Həmayıl bibi (Minəş nənənin qızı) də xatırlayırdı. Babam Qoşnalının ulu babası Abbasqulu bəy Qacaq Nəbinin dəstəsi ilə görüşür, onlara kömək edirmiş. Bir dəfə qaçaqlarla Göyçuxur deyilən yerdə görüşəndə kazaklarla atışma olur. Nəbinin yaxın dostu və silahdaşı Telli Qara adlı qaçağı vururlar. Qaçaqların yerini xəbər verən hiyləgər, fitnəkar ermənilər imiş. El arasında Qara vurulan yer adı tez-tez xatırlanırmış.

Böyük Vətən Müharibəsi (1941-1945) illərində də Murxuz kəndindən cəbhəyə 36 nəfər aparılmış, bir çoxu itkin düşmüşdür.

Kəndin adlı-sanlı adamları Əbdül müəllim, Şahbaz müəllim, Agamalı kişi, Allahverdi (Pols mayoru), Asabil (polis serjantı), Yaranmış, Ədalət, Əhməd briqadir, İsgəndər, Xudu, geofizik Xeyrullah, Xası, Namiq həkim, Sədrəddin həkim, Xansuar, Əliş, Həzi oğlu Məhəmməd, Şamo Abbasov, Atakişiyev Elbrus, Atakişiyev Məzəddin, Rüstəm kişi.... Nənəm onu da danışırdı ki, Bakıya gedib oxuyanlar, təhsil alanlar kəndə qayıtmırdı. Səbəb erməni rəhbərliyinin azərbaycanlılara iş verməməsi idi.

Kəndin sayılıb seçilən oğullarından biri Abbasov Yaranmış Rufulla oğlu (qayınatam) 1982-ci ildə may ayının 25-də Dəstəyurd kəndilə Sisyan (Qarakilsə) rayonun mərkəzində ÇUM adlanan univermağın qarşısında bir yeməkxana varmış. Sovetin qılıncının kəsərli vaxtında o yerin qapısında erməni dilində rəngli, işıqlı hərflərlə yazılıbmış: " Türklər qəbul olunmur"! Yeganə adam qayınatam Yaranmış Rufulla oğlu imiş ki, ora gedə bilirmiş. Gücünün, yumruğunun qarşısında heç bir erməni dayana bilmirmiş. Bu səbəbdən 35 yaşında ermən fitnəsinin qurbanı olubmuş.

Nənəm danışırdı...

Yurdunu ellərə buraxmaq istəməyən iki nəfər murxuzlu Asabil əmi və Məzəddin dayı ailəsi ilə birlikdə kənddə qalırmış. Asabil əminin yoldaşı Səyyarə Savalan qızı xatırlayır ki, bir gün əli silahlı saqqallı ermənilər kəndə gəldi, bir Məzəddin kişinin ailəsi, bir də biz qalmışdıq. Asabil rayona getmişdi. Quldurlardan biri üstümüzə silah çəkdi. Özümü uşaqlarıma sipər elədim. Başqa bir erməni "Ara, gülləni boşuna işlətmə, onsuz da acından öləcəklər" dedi. Bizi ölümə tərk etmişdilər. Yollar bağlı idi. Maşınla köçüb gedənlərin qarşısını kəsir, döyür, güllələyirdilər. Belə bir hadisə Məzəddin kişi ilə Asabil əminin başına gəlir. Məzəddin dayının maşınında Naxçıvana gəlmək istəyəndə Şələh -Pələyin körpüsü deyilən yerdə (Naxçıvan yolunun üstündə) ermənilər onların qarşısını kəsir. Əsir düşməsin deyə Asabil 7-8 metr hündürlükdə körpünün üstündən özünü çaya atır. Məzəddin kişini isə ölümünə döyürlər. Asabilin suda batdığını güman edib gedirlər. Asabil çay axarı ilə xeyli üzəndən sonra sahilə çıxır, Məzəddin kişini yaralı, hüşsuz halda götürüb geri qayıdır. Nəhayət Asabil əmi iki oğlunu kürəyinə alıb dağ yolu ilə Gömrüdən Şahbuza gələ bilir.

Minəş nənə bunları danışdıqca Murxuzun camaatı kimi fikirləri də pərən-pərən düşürdü. 8-10 nəfər erməni fitnəsindən baş götürüb qaçmağa çalışır. Maşın yolları erməni quldurları tərəfindən tutulduğundan dağ yoluyla Naxçıvana üz tuturlar. Bu adamların içində aşıq Xançoban oğlu Əli də varmış. Culfa rayonunun Ləkətağ kəndindən yuxarıda Dəmirli dağının başında (Dəniz səviyyəsindən 3368 m hündürlükdə) Cacıxlı dərəsinə enməmiş Nehrəm obası ilə rastlaşırlar. Onda ermənidən qurtulduqlarına inanırlar. Obanın camaatı onlar kömək edir. Aşıq oğlu Əli Dəmirlinin başında üzünü son dəfə Murxuza tutur, "Bəlkə bu yerlərə bir də gəlmədim, duman salamat qal, dağ salamat qal. Arxamca su səpir sanki buludlar..." deyə oxuyur. Hamı göz yaşında boğulur. Bu yağış deyildi, su deyildi, elin didərgin düşmüş övladlarının göz yaşları idi, leysan kimi yağırdı, tüğyan edirdi.

Nənəm bayatı deyirdi:

Aşıx diyarbadiyar,
Xalıx diyarbadiyar.
Qoydu sapanda bizi,
Atdı diyarbadiyar.

Mərdanə duruşundan illərə pay verməyən Minəş nənəm həsrətin, nisgilin özü idi, adı idi, ruhu idi. Yurd sevgisini zərrə-zərrə, damla-damla övladlarına, atasız böyüyən nəvələrinə də içirmişdi. Ömrünün sadəcə 17 ilini Murxuzda keçirən mərhum nəvəsi Məzahir (həyat yoldaşım) də onun kimi yurd sevdalısı idi. Onun da yurd həsrəti can yanğısı idi. Google earth proqramı vasitəsilə Murxuzun kosmik görüntüsünə baxar, sosial şəbəkələrdə yayımlanan video çəkilişləri dönə-dönə izləyərdi. Ömrünün son günlərində "o dağların arxasında Murxuz var, bir gün o yerlərə gedərsən, mən görə bilməsəm də sən gedərsən" deyə yurd həsrətini də mənə əmanət qoyub Minəş nənə kimi nisgillə, həsrətlə bu dünyaya göz yummuşdu.

İnanıram. İnanıram ki , bir ömür qəriblikdə əzab çəkən yurd həsrətli ruhları şad etmək üçün BİZ O YERLƏRƏ QAYIDACAĞIQ!!!

Şərəbanı Məmmədova
"Muzeyşünaslıq, arxiv işi və kitabxanaçılıq"
kafedrasının dosenti,
filologiya üzrə fəlsəfə doktoru

Azərbaycan mətbuatında Qərbi Azərbaycana dair ilk yazılar

XX əsrin əvvəlləri Qərbi Azərbaycanda yaşayan həmvətənlərimizin acınacaqlı taleyi ilk növbədə məhz o dövrün mətbuatı vasitəsilə gündəmə gətirilmişdir. Bizim üçün daha qiymətli olan cəhət ondan ibarətdir ki, Azərbaycan mətbuatında Qərbi Azərbaycan mövzusunda ilk irihəcmli məqalələrin müəllifi Naxçıvan torpağının dünya ədəbiyyatına bəxş etdiyi Cəlil Məmmədquluzadədir.

Qori Müəllimlər Seminariyasını bitirdikdən sonra 10 il müəllimlik sahəsində çalışan Cəlil Məmmədquluzadə 1897-1898-ci illərdə İrəvanda yaşayan azərbaycanlıların taleyi ilə daha artıq maraqlanmış, bu marağın nəticəsi kimi İrəvan qəza polis idarəsində dəftərxana xidmətçisi və tərcüməçi kimi fəaliyyət göstərmiş, hətta məhkəmələrdə vətən qardaşlarının hüquqlarını müdafiə etmək məqsədilə 1902-ci ildə İrəvana köçmüşdür. Qərbi Azərbaycanda erməni və ruslar tərəfindən azərbaycanlılara qarşı başlanan şovinist münasibət Cəlil Məmmədquluzadənin haqlı etirazına səbəb olmuş, nəticədə vətənpərvər ziyalı "Kaspi" qəzetinin 7 mart 1902-ci il tarixli 53-cü sayında "İrəvan müxbirimizdən" başlığı ilə məqalə çap etdirmiş, müəyyən mənada Azərbaycan cəmiyyətini bu problemlə bağlı səfərbər olmağa səsləmişdir.


Cəlil Məmmədquluzadənin "İrəvan müxbirimizdən" başlığı ilə çap olunmuş məqaləsi deməyə əsas verir ki, artıq 1902-ci ildən İrəvanda çalışan hökumət rəsmiləri düşünülmüş şəkildə azərbaycanlılara məxsus torpaq sahələrini ələ keçirməyə, yurdun əzəli sakinlərini ata-baba torpaqlarından çıxarmağa, onlara müxtəlif yollarla təzyiq göstərməyə başlamışlar. Məqalədə müəllif açıq şəkildə bildirir ki, İrəvan şəhəri ətrafında azərbaycanlıların yaşadıqları ərazilərin zəbt edilməsi prosesinə dövlət qurumları səviyyəsində başlanılmışdır.

Doğrudur, "İrəvan müxbirimizdən" məqaləsində yalnız bir məsələdən, yəni İrəvan şəhəri yaxınlığında Dəlmə adlı ərazidə azərbaycanlıların min bir əziyyətlə saldıqları bağların bələdiyyə idarəsi tərəfindən zəbt edilməsindən danışılır. Bununla belə, aydınlıq naminə müəllif prosesləri incəliklərinə qədər oxucunun gözü qarşısında canlandırır və məlum olur ki, Qərbi Azərbaycanda yerli əhaliyə zülm edərək onları qədim yurdlarından çıxarmaq siyasəti XIX əsrin 90-cı illərindən xüsusi amansızlıqla həyata keçirilmiş, həm də müstəmləkəçi hökumət tərəfindən dəstəklənmişdir. Cəlil Məmmədquluzadə proseslərə aydınlıq gətirmək məqsədilə yazırdı: "1891-ci ildən başlayaraq şəhər (ermənilər və ruslardan ibarət şəhər bələdiyyəsi – İ.C.) başqa cür hərəkət etməyi qət etdi. Həmin il şəhər duması şəhərin nəfinə Dəlmə bağlarına vergi təyin etməkdən ötrü onların gəlirini hesablayan xüsusi bir komissiya düzəltdi. Şəhər qanunnaməsinin 129-cu maddəsinə görə, vergi əmlakdan götürülən xalis gəlirin on faizindən, yaxud həmin əmlakın dəyərinin bir faizindən artıq olmamalıdır. Lakin 1891-ci il komissiyası Dəlmə bağlarına o qədər yüksək qiymət qoydu ki, illik verginin ölçüsü bağların illik gəlirindən xeyli artıq çıxırdı. Beləliklə, 1891-ci ilə qədər verilməyib üst-üstə yığılan vergi qalıqları elə bir ölçü aldı ki, bağ sahibləri bağlarından da, qalan vergiləri ödəməkdən də boyun qaçırmalı oldular. Lakin nədənsə şəhər pulları yığmaq işini ləngidirdi."

Q.Məmmədlinin "Molla Nəsrəddin" salnaməsində yer tutan məlumatlar deməyə əsas verir ki, Cəlil Məmmədquluzadə yalnız İrəvan şəhəri yaxınlığındakı Dəlmə bağları ilə əlaqədar hadisələri yazmaqla vəzifəsini bitmiş hesab etməyib, həm də çalışıb ki, Qərbi Azərbaycanda yaşayan bütün həmvətənlərimiz ermənilərin həyata keçirdikləri planlardan xəbərdar olsunlar.

Bəli, "İrəvan müxbirimizdən" məqaləsində Cəlil Məmmədquluzadə aydın şəkildə vurğulayır ki, Qərbi Azərbaycan ərazilərini ermənləşdirmək vəzifəsi bütöv bir sistem halında həyata keçirilməkdədir və lakin bu proses hələlik sirr olaraq saxlanılır. Məqalənin sonunda müəllif məhz həmin sirrin nədən ibarət olmasını aydınlaşdıracağına söz versə də, artıq problem bəllidir, məqsəd İrəvan ətrafında azərbaycanlılara məxsus torpaqların zor gücünə onlardan alınmasıdır.

Cəlil Məmmədquluzadənin 1902-ci ildə "Kaspi" qəzetində çap etdirdiyi ikinci məqalədə yenə də Qərbi Azərbaycanda müsəlmanlar üçün yaşayışın son dərəcə çətinliyindən danışılır. Qəzetin 28 mart 1902-ci il tarixli 82-ci sayında getmiş "İrəvandan (xəbər)" başlıqlı yazıda bir daha vurğulanır ki, İrəvanın yerli sakinləri olan azərbaycanlılar öz yaşayış vəziyyətlərini yaxşılaşdırmağa çalışsalar da, onların bu istiqamətli cəhdlərinə hökumət səviyyəsində izn verilmir, ermənilərdən təşkil olunmuş şəhər dumasında heç bir azərbaycanlının sözü dinlənilmir. Hətta azərbaycanlıların nə deyəcəklər, yaxud nə edəcəkləri artıq şəhərdə hakimiyyəti mənimsəmiş ermənilər maraqlandırmır. Bəli, hələ 1902-ci ildən Cəlil Məmmədquluzadə Qərbi Azərbaycanda həyata keçirilən ermənləşdirmə siyasətinin iş üzünü açır, proseslərə obyektiv jurnalist mövqeyindən yanaşaraq yazırdı: "Bu iclasda (söhbət İrəvan şəhər dumasının iclasından gedir – İ.C.) irəvanlı Məşədi Abbasın Xararatovun boş qalmış şəhər torpağının ona icarəyə verilməsi barədə ərizəsinə də baxıldı. Duma bu ərizəni yekdilliklə rədd etdi. Yerli müsəlmanlardan bir başqasının eyni məzmunda ərizəsinin də başına o işi gətirdilər. Lakin bu cür məsələləri həll etmə üsulu olduqca maraqlıdır. Sədr məlumat verir: "Məşədi Abbas ərizə vermişdir ki,...", sədr sözünü qurtarmamış duma üzvlərinin səsi eşidilir: "olmaz". Yaxud da belə olur: Sədr məlumat verir: "İrəvan şəhərinin sakini Kərbəlayı Cəfər Əli oğlu uprava idarəsinə ərizəsində xahiş edir ki,.." Qlasnılar içərisindən "olmaz", "olmaz" sözləri eşidilir. Bu surətlə duma məzmunu ilə tanış olmadığı ərizələr haqqında qərar çıxarır."



Faktlar deməyə əsas verir ki, İrəvan və Zəngəzur mövzusu Mirzə Cəlil Məmmədquluzadəni daim məşğul etmiş, böyük ədib Rusiya imperiyasının və ermənilərin bölgə üçün müəyyənləşdirdikləri planları daha aydın gördüyündən İrəvan quberniyasında baş verən hadisələrə xüsusi həssaslıqla yanaşmış, İrəvan məsələsində həmvətənlərini diqqətli olmağa, qətiyyətlə mübarizəyə səsləmişdir.

İman Cəfərov
filologiya üzrə fəlsəfə doktoru,
dosent

Qərbi Azərbaycan mətbuatı

1914-cü ilin fevral ayının 22-də İrəvanın tanınmış ziyalıları Mirzə Cabbar Əsgərzadənin redaktorluğu, Mirfətulla Mirfətullayevin naşirliyi ilə İrəvanda Azərbaycan dilində ilk mətbuat orqanı olan "Lək-lək"in birinci nömrəsi işıq üzü görür.

Bu məcmuə XX əsrin II onilliyində Qərbi Azərbaycanda-oğuz yurdu İrəvanda 1914-cü il fevral ayının 22-dən həmin ilin 30 iyununadək nəşr olunmuş, cəmi 12 nömrəsi işıq üzü görmüş "Lək-lək" (əslində senzura sənədlərində "Leylək" (Aist) jurnalının ərəb qrafikalı əlifbadan transliterasiyasıdır. "Lək-lək" "Molla Nəsrəddin" ədəbi məktəbi ənənələrini davam etdirmişdir. Jurnalın naşir və redaktoru Mirməhəmməd Mirfətullayev və Cabbar Əsgərzadə olumuşdur. Jurnal İrəvandakı "Luys" mətbəəsində çap edilmişdir.

Cəmi beş ay nəşr edilmiş "Lək-lək" məcmuəsi elə həmin ildə 1914-cü ilin iyun ayının 30-da özünün sonuncu 12-ci nömrəsində bir sıra səbəblər üzündən bir daha çıxmayacağı və gələcəkdə daha mükəmməl, böyük həcmli jurnalla əvəz ediləcəyini elan etməsinə baxmayaraq, jurnal bir daha nəşr edilməmişdir. "Lək-lək" də "Molla Nəsrəddin" kimi səkkiz səhifəlikdir. "Lək-lək"in cəmi beş ay ərzində işıq üzü görən nömrələrini ardıcıl izlədikdə onun "Molla Nəsrəddin"nin ideya və dəst-xəttinə sadiq qaldığı bir daha aydın olur.

"Lək-lək" kimi "Bürhani-həqiqət"in də ömrü uzun sürməmişdi. Jurnalda Əli Məhzunun bir neçə satirik şeirləri də özünə yer tapmışdır. "Bürhani-həqiqət"in səhifələrində dərc olunmuş bu əsərlərdə mövcud dövrün problemlərinə, siyasi, sosial-mədəni hadisələrinə bədii sənət dili ilə münasibət bildirilmişdir. "Lək-lək" kimi "Bürhani-həqiqət"in də ömrü uzun sürməmişdi.

Elə həmin ildə 1917-ci ilin iyun ayının 29-da cəmi 9 nömrəsi işıq üzü görən "Bürhani-həqiqət"in də fəaliyyəti dayandırıldı. "Bürhani-həqiqət" məcmuəsinin nəşri dayandıqdan sonra İrəvanda Azərbaycan mətbuatının olması haqqında professor Nazim Axundov "Azərbaycanda dövri mətbuat (1832-1920)" adlı biblioqrafik məlumat kitabında 1920-ci ildə İrəvanda "Cavanlar şurası" adlı qəzetin azərbaycanlı ziyalıların milli şurası tərəfindən nəşr olunduğunu qeyd edir. Tədqiqatçı-alim İsrafil Məmmədov isə İrəvanda "Cavanlar şurası" adlı mətbuat orqanının 1920-ci ildə deyil, 1917-ci ildə işıq üzü gördüyünü bildirir. İsrafil Məmmədovun "Cavanlar şurası"nın nəşri ilə bağlı verdiyi məlumat daha inandırıcıdır. Çünki 1918-1920-ci illərdə ermənilərin İrəvanda və eyni zamanda azərbaycanlılar yaşayan bölgələrdə soydaşlarımıza qarşı törətdikləri qətliamlar zamanı azərbaycanlı əhalinin bir qismi qətlə yetirilmiş, bir qismi isə qəddarcasına qətlə yetirilməkdən xilas olmaq üçün Azərbaycana və müxtəlif ölkələrə köçməyə məcbur olmuşdular. 1918-1920-ci ildə İrəvanda və eləcə də yerlərdə barmaqla sayıla biləcək qədər adam qalmamışdır. Bu baxımdan 1920-ci ildə İrəvanda "Cavanlar şurası" adlı qəzetin nəşr edilməsi həqiqəti əks etdirmir. Müəllif jurnalın bir necə sayını əsərində geniş şəkildə təhlil edib. Bu təhlillərdən aydın olur ki, "Bürhani-həqiqət" oxucularını elmə, maarifə, yeniliyə, ədəb-ərkana sövq edən bir mətbuat orqanı olub: "Azərbaycan mətbuatı tarixində özünəməxsus yeri və rolu olan" "Bürhani-həqiqət" jurnalı Azərbaycan Sovet Ensiklopediyasında dövrün ideologiyasına uyğun olaraq "dini ehkamları müdafiə edən ziddiyyətli, zərərli jurnal" kimi təqdim edilir.

Bütün respublikalarda olduğu kimi, Ermənistanda da ilk növbədə kommunist-bolşevik mətbuatı yaratmaq məsələsi zəruri idi. Bu səbəbdən də 1921-ci ilin yanvar ayının 7-də İrəvanda



Azərbaycan dilində "Kommunist" qəzeti nəşr edilməyə başlandı. "Kommunist" qəzeti 1921-ci ilin yanvar ayının 7-dən fevral ayının 8-nə qədər nəşr olunmuşdur. Qəzetin redaktoru isə Həmid Qənizadə idi. 1921-ci ilin fevral ayının 9-da erməni daşnakları İrəvanda yenidən tüğyan edərək, terror, qətliamlar və total qırğınlar, dağıntılar törədərkən Azərbaycan dilində nəşr olunan "Kommunist" qəzetinin redaksiyasını yandıraraq məhv etmişlər. Bununla da qəzetin fəaliyyəti dayandırılmışdır. "Zəngi" qəzeti nəşr olunmasının iki illiyi münasibəti ilə dərc etdiyi "İki bayram" adlı redaksiya məqaləsində yazır: "İrəvanda həftəlik türkcə "Kommunist" qəzetəsi nəşrinə başlandı. Qəzetə bir neçə ay davam etdikdən sonra bir para səbəblərə görə qapandı və bir neçə ay sonra "Rəncbər" qəzetəsi nəşrinə başlandı. O da bir neçə ay davam etdikdən sonra qapandı". Bununla da azərbaycanlı əhali yenidən anadilli mətbuat orqanından məhrum edilir.

1924-cü ildə "Zəngi" qəzeti nəşr olundu. "Zəngi" qəzetinin icazə verilməsinə baxmayaraq, onun işıq üzü görməsi heç də asan olmamışdır. Qəzetin nəşrini təmin etmək üçün mətbəə, şrift, bir sıra texniki avadanlıqların əldə olunması, işçi qüvvəsinin toplanması, məqalə yazmaq və s. bu kimi meydana gələn problemlərin həll edilməsi günün təxirəsalınmaz ən vacib məsələlərindən idi. Mətbəədə texniki və mütəxəsis çatışmazlığına baxmayaraq, "Zəngi" qəzetinin iki səhifədən ibarət birinci nömrəsi nəzərdə tutulduğu vaxtda, Bala Əfəndiyevin redaktorluğu ilə 29 noyabr 1924-cü ildə işıq üzü gorür. Qəzetin ilk və sonrakı bir neçə nömrəsi Bala Əfəndiyevin, Mustafa Hüseynovun, Əkbər Rzayevin, Murtuza Muradovun böyük səyi və əzmkarlığı ilə araya-ərsəyə gəlmişdir. Onlar bütün qüvvə və bacarıqlarını "Zəngi" qəzetinin vaxtlı-vaxtında, yüksək keyfiyyətlə çıxmasına sərf edirdilər.

Bütün bunlara baxmayaraq, "Zəngi" qəzeti erməni şovinist dairələri tərəfindən məqsədli şəkildə yaradılan problemlərlə üzləşməli olurdu. Qəzetin redaksiyasının binası olmadığından ilk vaxtlar EK (b) P MK-nın nəzdində yaradılmış "Azsaylı xalqlar şöbəsi"nin idarəsində darısqal bir otaqda yerləşirdi. Redaksiyanın daimi binası olmadığı üçün ünvanlar tez-tez dəyişir, kağız problemi ortaya çıxır, həm də onun abunəçi məsələsi çox vaxt problemə çevrilirdi. "Zəngi" qəzetinin bütün bölgələrdə Ağbabada, Basarkeçərdə, Zəngibasarda, Üçmüəzzində, Vedibasarda, Qaraqoyunluda və digər bölgələrdə müxbir məntəqələri fəaliyyət göstərirdi. Redaktordan tutmuş mürəttibə kimi hamı fədakarlıqla çalışır, əlindən gələni edirdilər ki, qəzet müntəzəm nəşr olunsun. Bunun üçün redaksiya heyəti Bakı, Naxçıvan, Şəki və başqa şəhərlərdən də abunəçilər cəlb edirdi. "Zəngi" qəzeti "Həlli çatmış məsələ" rubrikası adı altında "Şərq qapısı" (Naxçıvan), "Şəki fəhləsi" (Şəki) qəzetlərinin işi haqqında və onları məqalələrini təkrar verirdi. Hər üç qəzet "Gənclər səhifəsi" açaraq bir-biri ilə əlaqə yaradırdılar.

1921-ci il iyul ayının 22-də "Rəncbər" qəzetinin ilk nömrəsi işıq üzü görmüşdür. Qəzetin nəşri Qərbi Azərbaycanda soydaşlarımız arasında geniş əks-səsdaya səbəb olmuşdur. "Rəncbər" qəzetinin ilk sayında onun əsas vəzifələri, bu vəzifələrin yerinə yetirilməsi, partiya, sovet, komsomol təşkilatlarının, bütün zəhmətkeşlərin və ziyalıların qəzetə yaxından kömək göstərmələri, rəhbər işçilərin, fəhlə və kəndlilərin rəy və arzuları, bölgələrdən qısa məlumatlar, respublika xəbərləri və bir neçə xarici xəbərlər dərc olunmuşdu. Qəzetin Azərbaycandakı arxivlərdə nümunə üçün heç bir nüsxəsi qorunub saxlanmamışdır. Moskvadakı Mərkəzi kitabxanada bütün nömrələri olmasa da, 1-3, 46-55 və 78-ci nömrələri dövrü mətbuat fondunda mühafizə olunur. "Rəncbər" qəzetinin əldə etdiyimiz həmin nömrələri bu mətbu orqanla bağlı elmi dövriyyəyə daxil edilmiş bir sıra yanlış məlumatların dəqiqləşdirilməsinə aydınlıq gətirmiş oldu. Bütün mənbələrdə "Rəncbər" qəzetinin 1922-ci ildə nəşr edildiyi göstərilir və bu məlumatlar onun nəşri tarixi ilə bağlı həqiqəti əks etdirmir. Qəzetin ilk nömrəsi 1921-ci il 22 iyul tarixində çap olunmuşdur.

Çox təəssüf olsun ki, 1918-1920-ci illərdə Ermənistanda daşnak hakimiyyəti dövründə Azərbaycan dilində mətbuat nəşr olunmadığı halda, həmin dövrdə Bakıda erməni dilində "Arev" ("Günəş"), "Aşxatavori dzayn" (Əməkçinin səsi"), "Aşxatanki droşak" ("Əmək bayrağı"), "Banvori xosk" ("Fəhlə sözü"), "Qordz" ("İş"), "Yerkir" ("Ölkə") və s. kimi mətbu orqanları işıq üzü görürdü. Bu gün erməni tarixçilərinin iddia etdikləri kimi, əgər 1918-ci ildə Bakıda ermənilərə qarşı "soyqırımı" törədilmiş olsaydı, bu qədər qəzet və jurnal işıq üzü görə bilərdimi? Əsla yox!

Azərbaycan mətbuat tarixində silinməz iz qoyan "Sovet Ermənistanı" qəzetində Tofiq Məmmədov, Lətif Hüseynov, Cümşüd Sultanov, Rza Əsgərov, Əsgər Əsgərov, Nəcəf Şabanov, Nüsrət Sadıqov, Allahyar Rəhimov, Vidadi Quliyev kimi peşəkar jurnalistlər də çalışıb. Tarix elmləri doktoru Sabir Əsədov, filologiya elmləri doktoru, "Respublika" qəzetinin redaktoru Teymur Əhmədov, şair-publisist Hidayət Orucov, Azərbaycan Dövlət Teleradio Verilişləri Şirkətinin sədri olmuş Babək Məmmədov, Milli Məclisin üzvü olmuş Eldar Səfərov əvvəllər "Sovet Ermənistanı" qəzetinin əməkdaşı olmuşdular.

Təəssüf ki, Sovet hakimiyyəti illərində - Ermənistan arxivləri azərbaycanlı tədqiqatçıların üzünə qismən açıq olduğu dövrdə, İrəvanda Azərbaycan dilində nəşr olunan mətbuatın tarixi kifayət qədər araşdırılmamışdır. Yalnız tədqiqatçı alim İsrafil Məmmədov 1972-ci ildə İrəvanda müdafiə etdiyi "Ermənistanda Azərbaycan mətbuatının tarixi" mövzusunda namizədlik dissertasiyasında XX əsrin əvvəllərində İrəvanda nəşr olunan "Lək-lək" və "Bürhani-həqiqət" jurnallarını araşdırmışdır.

Azərbaycan mətbuat salnaməsinin ayrılmaz parçası olan İrəvanda nəşr edilən mətbu orqanların tarixinin daha dərindən araşdırılması mətbuat və mətbuatşünaslıq tariximizin zənginləşməsinə xidmət edir. Amma bu, çox çətin bir işdir. Çünki həmin dövrdə nəşr olunan anadilli mətbuatımızın nüsxələri Ermənistanın arxivlərində olduğu üçün (əgər saxlanılıbsa) onları araşdırmaq hələlik çox müşkül məsələdir.

Səadət Əliyeva
"Jurnalistika və xarici ölkələr ədəbiyyatı"
kafedrasının baş müəllimi



Yaddaşlardan yaddaşıma süzülənlər

Qərbi azərbaycanlıların zülmlərlə dolu həyat hekayələri

Bugünədək eşitdiklərimin, yaddaşımda qalanların, xatirələrimin nə zamansa məhz yaşımın bu çağında beynimdən sətirlərə köçəcəyini, sətir-sətir, misra-misra vərəqlərə hopacağını, bir ailə faciəsinin regional, hətta beynəlxalq əhəmiyyətli bir fakt olacağını xəyal belə etmirdim. Biz ağrı-acısını, faciələrini özü yaşayan bir ailə, nəsil olmaqdan dünyaya haqq səsini çatdıran bir vətəndaşa çevrilmişik.

Bəli, artıq zaman o zamandır. Bütün səmimi hisslərimlə və göz-yaşları ilə qələmə aldığım bu sətirlər bir tərəfdən uzun illər ifadə olunduğu günün çatmasına görə bir rahatlıq, sevinc hissləri, bir tərəfdən də nənə, babalarımın yaşadıqlarını göz önündə canlandırdığından əzab dolu hisslər yaşadır. Və beləliklə bu qarışıq hisslərlə bildiklərimi, düşündüklərimi, yaşadıqlarımı və ən əsası şahidi olduqlarımı sizlərlə bölüşürəm.

Evləri dağıdılan, kəndləri yandırılan, yurd- yuvası boş qalan, çıraqları sönən, əzizlərinin məzarı qürbətdə yad tapdağı altında qalan qərbi azərbaycanlılar hər zaman evlərinə dönəcəkləri günün arzusu ilə yaşamışlar. Qərbi Azərbaycandan qovulduqdan sonra yuxuda da Vətən dərdi çəkən və bu ağrıya tab gətirə bilməyərək əbədiyyətə qovuşan müdrik, Vətənin ağrılı- acılı tarixini özü ilə əbədiyyətə aparan nənə, babalarım haqqında duyduğum həsrəti ürəyimdə baş qaldıran bir nisgillə, yanğıyla sizinlə bölüşmək istəyirəm.

Mən iki doğma eldən, yurd yerimizdən və nənə, babalarımın həsrət dolu həyatından danışmaq istəyirəm. O el ki, o vətən ki, onun üçün burnunun ucu göynəyənlərin çoxu dünyadan köçmüş, qalanlarının isə vətən həsrətilə qəlbi qübar bağlamışdır. Haqqında danışmaq istədiyim yurd yerlərimiz Qərbi Azərbaycanın ən gözəl, ən səfalı yaşayış məntəqələrindən olmuş, bu günsə düşmən tapdağında inləyən Kərimarx və Çobankərə kəndləridir.

Fəxr, qürur yerimiz olan ata babam Məmmədov Əli Kərim oğlu da ermənilər tərəfindən tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyaya məruz qalan azərbaycanlılardandır. Əli müəllim 3 mart 1910-cu ildə İrəvan əyalətinin Eçmiadzin (Zəngibasar) qəzasının Kərimarx kəndində doğulmuşdur. Kərimarx kəndində də 1918-1920-ci illərdə ermənilərin soyqırımı siyasəti nəticəsində əhali 6,5 dəfə azalmışdır. Azərbaycanlılar kəndi ermənilərin təzyiqi altında tərk etmişlər. Kəndə İrandan və Türkiyədən ermənilər köçürülmüşdür.

Kənddə erməni zülmünə məruz qalmış ailələrdən olan babam Əli Məmmədovun ailəsi demək olar ki, məhvə məhkum edilmişdir. 1918-ci ildə nənəsinin ermənilər tərəfindən təndirdə yandırıldığının şahidi olan babamın deportasiya


Babam Əli Məmmədov

zamanı qardaşı itkin düşmüş, daha sonra atası və anası da dünyasını dəyişmişdir. Bundan sonra o, Naxçıvanda bir ailəyə himayəyə verilmişdir.

Bütün bu çətinliklər qarşısında dözüm nümayiş etdirən, sınmayan, sarsılmayan, həyatın çətinlikləri ilə mərd-mərdanə mübarizə aparan babam sonralar Azərbaycan dili və ədəbiyyatı müəllimi, məktəb direktoru, 28 yaşında V çağırış SSRİ deputatı, 1941-1945-ci illər Böyük Vətən müharibəsi veteranı, Taqanroq diviziyasının serjantı olub, döyüşlərdə qəhrəmancasına vuruşduğuna görə ordenlə təltif olunub, yaralanıb. Siyasi rəhbər olduğu zaman Vətəni Azərbaycan üçün döyünən ürəyi var olan babam Naxçıvanda uşaq evi, internat məktəbi açdırmışdır. Nənəmin söhbətlərindən aydın olduğu kimi babama insanlar səmimiyyəti, qayğıkeşliyi, xeyirxahlığına görə "Əmi" deyə müraciət edərmişlər. Yaşlılar da onun söhbətinə böyük maraqla qulaq asarmışlar. 1918-ci ilin soyqırımından xilas edilmiş babam 1981-ci ilin 31 mart azərbaycanlıların soyqırımı günü gözlərini əbədi olaraq həyata yumub.

Babam Əli Məmmədov xatirələrində uşaqlıq illərində ermənilərin onun və ailəsinin, eyni zamanda kənddə yaşayan türk əhalinin başına açdığı müsibətlərdən, gətirilən fəlakətlərdən bəhs edərək, ermənilərin hovuzda türklərin başını kəsdiyindən və bu hovuz dolanadək kənddəki türklərin başının kəsilməsinə davam edəcəklərini dediklərindən bəhs edirdi. Əli müəllimin qohumları və babası da tövləyə qatılıb və orada yandırılmışlar. Babam dünyasını dəyişdiyi bir günə qədər, son nəfəsinədək vətən həsrətilə, eyni zamanda doğma yurdunaa, el-obasına qayıtmaq arzusu ilə yaşadı.


Sətirlərimin bu yerində erməni xislətinin, qəsbkarlığının növbəti qurbanları, digər qohumlarım haqqında danışmaq istərdim. Ana babam Süleymanov Teymur Vəli oğlu və nənəm Süleymanova Minə Məsum qızı da İrəvan əyalətinin Eçmiadzin qəzasının (Zəngibasar) Çobankərə kəndindən 1948-ci ildə ermənilər tərəfindən deportasiyaya məruz qalmışdır. Elindən, obasından, əzizlərindən, qohum-əqrəbadan uzaq düşən nənə, babam Naxçıvanda məskunlaşmalı olmuşlar. Zəhmətkeş olan nənə, babam üçün evindən, təsərrüfatından uzaq düşmək nə qədər çətin olsa da onlar özlərinə yenidən ev tikməyə, güzəran qurmağa məcbur olmuşlar.

Çobankərə eli ulularımızın məskunlaşdığı qədim yurd yerlərimizdən olubdur. Həmin elin qeyrətli oğullarından olan azərbaycanlı alim, ictimai-siyasi xadim, Azərbaycan Respublikasının əməkdar elm xadimi Budaq Budaqovun



həmmüəllifi olduğu "Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti" kitabında Çobankərə haqqında olan tarixi faktlar da yer almaqdadır: "Çobankərə - İrəvan quberniyasının Eçmiadzin qəzasında kənd adıdır. 1918-ci ildə əhalisi qovulmuşdur. 1932-ci ildə əhalinin bir hissəsi geri qayıdaraq yenidən məskunlaşmışdır. 1948-ci ildə kəndin əhalisi Azərbaycana köçürülmüşdür. Kənd qazaxların 159 ailədən ibarət Çobankərə tayfasının məskunlaşması nəticəsində yaranmışdır. İranda Qaşqay tayfa birləşməsinin Çuban Kara qolu ilə mənşəcə eyni olan Çobankərə tayfası qədim türk mənşəli Kəngər-peçeneqlərin Çuban tayfasından ibarətdir. X əsrə aid mənbədə Cənub-Şərqi Avropada yaşayan kəngər-peçeneqlərin bir qolu Çuban kimi qeyd olunmuşdur.

Bu tayfa peçeneqlərin Çor (Çur), Göyərçin, Kapan (Qapan), Karabaq, Kola (Kula) tayfaları (yenə orada) içərisində daha nüfuzlu el kimi səciyyələnir. Peçeneqlərin, o sıradan Çobanqaraların Cənubi Qafqazada məskunlaşması eranın ilk əsrlərində hunların gəlməsi ilə bağlı olmuşdur. Erkən orta əsrlərdə İranda Şaban- Kərə qalasının adı ilə Çobankərə etnoniminin eyniliyi diqqəti cəlb edir. XI əsr müəllifi Nizamülmülk İranda yaşayan bir elin Şbankarələr adlandığını yazmışdır."


İrəvan yaxınlığındakı Çobankərə kəndindən bir görünüş. Bu kənd öz dəvəçiləri ilə bütün Şərqdə məşhur idi. Burada yaşayan Dəvəçilər tayfası xüsusilə dəvəçiliklə məşğul olurdular

Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun aparıcı elmi işçisi, Prezident yanında Dövlət İdarəçilik Akademiyasının tarix kafedrasının müəllimi, dosent Sahibə Budaqova "Baku TV" də yayımlanan "Qərbi Azərbaycan xronikası" verilişində son dövrlərdə Qərbi Azərbaycan haqqında yeni tarixi həqiqətlərin üzə çıxdığını bildirərək, ermənilərin etnik təmizləmə, oğuz-türk toponimlərinin məhv edilməsi siyasəti barədə yeni faktları açıqlayaraq Zvartnots aeroportunun məhz Zəngibasar mahalının yerlə-yeksan edilən Çobənkərə kəndinin yerində tikildiyini bildirmişdir.

Deportasiya siyasətinin nəticəsində nənə, babamın qohum-əqrəbaları ayrı-ayrı diyarlarda yaşamalı olublar. Doğma elindən deportasiya olunan çobankərəlilər Naxçıvan, Yevlax, Gədəbəy, Qazaxla yanaşı, Xoy, İğdır, Qars və digər ərazilərdə məskunlaşmağa məcbur olmuşlar.

Vətən həsrəti çəkən əziz insanlarının ağrı-acılı, nisgilli həyatını qələmə almaq, tarixi həqiqətləri araşdırıb olduğu kimi əks etdirmək hər bir azərbaycanlının ilk növbədə vətəndaşlıq borcudur. Bu gün isə bu iş artıq həm də dövlət siyasətinin tərkib hissəsinə çevrilmişdir.

1800-cü illərə aid siyahıyalınmada əhalisinin əksəriyyətinin azərbaycanlılar olduğu Qərbi Azərbaycanda bu gün bir nəfər də olsun, Azərbaycan əsilli insan yaşamır. Ermənistan bu gün monoetnik dövlətə çevrilmək siyasətini davam etdirməkdədir. Cənab Prezidentin də qeyd etdiyi kimi, əgər Ermənistan özünü dünyada sözün həqiqi mənasında, beynəlxalq hüquqa riayət edən bir ölkə kimi göstərmək istəyirsə ilk növbədə, Qərbi Azərbaycandan olan soydaşlarımızın yurdlarına qayıtmaqla bağlı haqlı tələblərinə qulaq asmalı və bu tələblərimizin həyata keçirilməsini təmin etməlidir.

Hazırkı Ermənistan ərazisindən kütləvi şəkildə deportasiya olunmuş azərbaycanlıların və onların varislərinin ictimai-mədəni birliyinə nail olmaq üçün dövlətimiz tərəfindən həyata keçirilən uğurlu siyasət davam etdirilir. Yeni yaradılan birlik - Qərbi Azərbaycan İcmasının məqsədinə nail olacağına tam əminliyimizi ifadə etmək istəyirik. İcmanın yaradılmasında əsas məqsəd eyni zamanda, doğma yurd-yuvalarından deportasiya olunmuş azərbaycanlıların hüquqlarının beynəlxalq müstəvidə bərpası, Ermənistan ərazisində Azərbaycan xalqının yaratdığı zəngin tarixi-mədəni irsin öyrənilməsi, təbliğ olunması və tam məhv olunmasının qarşısının alınması, həmin insanların öz ata-baba yurdlarına qayıtmaq hüququnun təmin edilməsi və birgəyaşayışa nail olunmasından ibarətdir.

Möhtərəm Prezidentimiz demişdir: **"Qərbi azərbaycanlılar qanunsuz olaraq dəfələrlə deportasiyaya məruz qalmış topluмdur. Onların hüquqları bərpa edilməlidir və onlar öz doğma torpaqlarına qayıtmalıdırlar. Mən bunu deyəndə təxmin edirəm, yenə də Ermənistanda növbəti dəfə isterika başlayacaq ki, Azərbaycan gəldi bizi işğal etdi və sair. Yox. Biz bunu sülh yolu ilə etmək istəyirik. Biz hüquqlarımızı sülh yolu ilə təmin etmək istəyirik və yenə də deyirəm, bütün konvensiyalar bu hüququ tanıyır. Ona görə buna nail olmaq üçün biz, o cümlədən beynəlxalq müstəvidə daha fəal olmalıyıq. "**

Qərbi Azərbaycandan olan soydaşlarımızın öz tarixi yurdlarına qayıtması məhz Vətən müharibəsində əldə olunan parlaq Zəfərdən sonra Azərbaycan dövlətinin qarşısına qoyduğu əsas vəzifələrdən biri olaraq müəyyən edilmişdir. İnanırıq ki, doğma yurd yerlərimizə, Qərbi Azərbaycan torpaqlarına qayıdışımız arzu olmaqdan reallığa çevriləcəkdir!

Çinarə İsmayılova
NDU Elmi Kitabxanasının baş kitabxanaçısı

Tarixçi-alim Elman Cəfərli: "Qərbi Azərbaycana qayıdış konsepsiyasının hazırlanması düşməndə təlaş, ruh düşkünlüyü yaradıb"

44 günlük Vətən müharibəsində qazandığımız şanlı Qələbədən sonra Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev Azərbaycan xalqı və dövləti üçün yeni bir gündəlik də formalaşdırıb: bu, tarixi torpaqlarımız olan Qərbi Azərbaycana, Zəngəzura qayıdış və həmin torpaqlardan ermənilər tərəfindən deportasiya edilmiş həmvətənlərimizin hüquqlarının bərpası ilə bağlıdır. Mövzunun aktuallığını nəzərə alıb Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, Ali Məclisin deputatı, tarixçi-alim Elman Cəfərli ilə həmsöhbət olmuşuq.

– Elman müəllim, məlum olduğu kimi, 2022-ci ilin son günlərində Bakı şəhərində Qərbi Azərbaycan İcmasının inzibati binasında yaradılan şəraitlə tanış olan dövlət başçısı cənab İlham Əliyev Qərbi Azərbaycana – tarixi Azərbaycan torpaqlarına qayıdış planları ilə bağlı çox ciddi mesajlar verdi. Necə düşünürsünüz, azərbaycanlıların ata-baba torpaqlarına qayıdış mərhələsini tarixdən doğan zərurət və ya xeyirin şər üzərindəki qələbəsi adlandırmaq mümkündürmü?

– İlk növbədə qeyd edim ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin Qərbi Azərbaycan icması ilə görüşdə səsləndirdiyi fikirlər Qərbi Azərbaycanın tarixi keçmişi və gələcəyi ilə bağlı konseptual proqram, "Qərbi Azərbaycan" probleminə Azərbaycan dövlətinin baxışı və yeni çağırışlardan ibarət idi. Bu baxımdan diqqətinizi həmin görüşün baş verdiyi tarixə cəlb etmək istərdim. Azərbaycan Prezidentinin görüşdə səsləndirdiyi mühüm fikirlərin, tezislərin mahiyyətinə varmadan belə, görüşün keçirildiyi tarix çox şeyi ifadə edir. Görüşdə Qərbi Azərbaycandan 1988-1991-ci illərdə qovulmuş qaçqınların öz tarixi ata-baba yurdlarına qayıtması, bu bölgədə xalqımıza məxsus tarixi və mədəni irs, ümumiyyətlə, həmin coğrafiyanın tarixi keçmişi və gələcəyi ilə bağlı məsələləri qabartması, icmanın həmçinin elmi, təşkilati və informasiya siyasətində fəallığı və bununla bağlı dövlət dəstəyinin gücləndirilməsi haqqında dövlət başçısının dediyi fikirlər bundan sonra Qərbi Azərbaycan məsələsinin dövlətimiz üçün prioritet olacağının konkret təsdiqi idi. Şərti olaraq "doğum günü" fenomeni adlandıra biləcəyimiz məhz 24 dekabrda bu fikirlərin səsləndirilməsi bundan sonrakı tarix üçün Azərbaycan Prezidentinin əsas fəaliyyət istiqamətinin nədən ibarət olacağını aydın göstərir. Bu baxımdan, bu hadisəni bir tərəfdən azərbaycanlıların ata-baba torpaqlarına qayıdış mərhələsinin başlanmasının artıq vaxtı yetişmiş proses və eyni zamanda, sizin təbirinizcə desək, xeyirin şər üzərindəki qələbəsindən doğan daha bir mühüm nəticə adlandırmaq mümkündür.


-Müzəffər Liderin çıxışları hər zaman erməni ictimaiyyəti tərəfindən diqqətlə izlənilir və verilən bütün mesajlar, belə demək mümkünsə, konkret ünvana gedib çıxır. Azərbaycanlıların tarixi torpaqlarına qayıtmaları ilə bağlı hazırlanan konsepsiya, ünvanlanan mesajlar qarşı tərəfdə soyuq duş effekti yaradıb. Bu barədə fikirləriniz maraqlıdır.

– Möhtərəm Prezidentimiz, sözün həqiqi mənasında, Azərbaycan xalqının ləyaqət tarixini bərpa edib, özünəməxsus şəkildə zəngin hadisələrlə yeni-yeni səhifələrini yazır və məhz buna görə indiki nəsil çox ciddi tarixi mərhələdən keçir. Ermənilər üçün, erməni lobbisi və erməni faşizmi üçün, düşmənə havadarlıq edən xarici ölkələr və beynəlxalq təşkilatlar üçün əsl soyuq duş effekti, mən deyərdim ki, tarixi dərs 44 günlük Vətən müharibəsi – İkinci Qarabağ müharibəsi oldu. Bu baxımdan xalqımız və ölkəmiz üçün möhtəşəm Zəfərlə başa çatan bu tarixi hadisədən sonra möhtərəm Prezidentimiz hər bir siyasi addımı, hər bir diplomatik gedişi, səsləndirdiyi bəyanatlar, yaxın və uzaq perspektivə hesablanmış ideyaları, o cümlədən "Qərbi Azərbaycana Qayıdış Konsepsiyası"nın hazırlanması düşməndə böyük ruh düşkünlüyünə səbəb olub. Bunu şərtləndirən əsas amil hələ 2003-cü ildə ilk dəfə prezident seçkilərində iştirak edərkən seçki kampaniyası dövründə "Əsl siyasət konkret, real iş görməkdən ibarətdir", – deyən Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin Vətən müharibəsi dövründə və ondan sonra səsləndirdiyi "Nəyi, necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm", "Siyasi həyatımda heç vaxt olmayıb ki, mən söz verim və arxasında dayanmayım. Verdiyim bütün sözlər yerinə yetirilib. Digər tərəfdən, mən çox söz vermirəm, çünki nəticəni nümayiş etdirməyi üstün tuturam" kimi fikirləri bir tərəfdən dövlət başçımızın siyasi portretini, siyasi kimliyini ifadə edən sözlərdir, digər tərəfdən onun atdığı addımlarda qətiyyətli olduğunun və konkret nəticəyə ünvanlanmış siyasət yürütdüyünün ifadəsidir. Şuşanı, Qarabağı azad etməklə "ata vəsiyyəti"ni uğurla yerinə yetirən Prezidentimizin məhz bu qəbildən olan fikir, ideya və addımları düşmənlərdə soyuq duş effekti və haqlı qorxu yaradır.

- Elman müəllim, ermənilərin azərbaycanlılara qarşı soyqırım və etnik deportasiya siyasəti ucbatından minlərlə günahsız insan qətlə yetirilib və ya öz doğma ata-baba yurdundan qaçqın düşüb. XX əsr boyu davam edən bu mənfur siyasətin qurbanı olan həmtəvələrimizin əksəriyyəti Naxçıvana da pənah gətiriblər. Milli qırğın və deportasiya siyasətini həyata keçirməkdə əsas məqsəd nə idi?

– Ermənilərin xalqımıza qarşı soyqırım və deportasiya siyasətinin tarixi 1828-ci il Türkmənçay müqaviləsindən sonra onların çar Rusiyasi tərəfindən İran və Türkiyə ərazisindən torpaqlarımıza köçürülməsi ilə başlanır. XX əsrdə isə ermənilər öz mənfur məqsədlərinə – Cənubi Qafqazda Azərbaycan torpaqları hesabına özlərinə dövlət yaratmaq istəyinə nail olmaq üçün azərbaycanlılara qarşı soyqırımı və deportasiyanı kütləvi şəkildə həyata keçirməyə başladılar. 1905-07-ci, 1918-20-ci illərdə xalqımıza qarşı qanlı qırğınlar törədildi, 1948-53-cü illərdə zorakı köçürmə siyasəti həyata keçirildi. Nəhayət, 1988-94-cü illərdə torpaqlarımıza qarşı əsassız iddialarla başlayan və keçmiş "Dağlıq Qarabağ" ərazisi və ətraf rayonların işğalı, bir milyondan artıq soydaşımızın öz ata-baba torpaqlarından qaçqın və məcburi köçkün düşməsi ilə nəticələnən məlum münaqişə baş verdi. Ermənilər öz xarici havadarlarının köməyi ilə tarixdə ilk dəfə 1918-ci ildə məhz Cənubi Qafqazda tarixi Azərbaycan torpaqları hesabına özlərinə dövlət qurdular. Lakin buna qane olmayaraq, bir tərəfdən qondarma dövlət qurduqları Qərbi Azərbaycanı mərhələlərlə türksüzləşdirmək siyasəti yürütdülər, digər tərəfdən isə, 1988-ci ildən yenidən Azərbaycan torpaqlarının işğalına başlayaraq, erməni dövlətinin ərazisini yenə də Azərbaycan torpaqları hesabına genişləndirməyə cəhd etdilər. Bax, ermənilərin xalqımıza qarşı milli qırğın və deportasiya siyasətini həyata keçirməkdə əsas məqsədləri də məhz bundan ibarət idi.

- Heç şübhəsiz, həmin dövrdə ermənilərin bu mənfur siyasətini dəstəkləyən, onlara həmişəki kimi arxa duran, Qərbi Azərbaycanda elə Azərbaycan izlərini silib yox etməyə kömək edən "böyük güc"lər var idi.



– Ermənilərin XIX əsr boyu və XX əsrin ilk illərində İran və Türkiyə ərazisindən Azərbaycan torpaqlarına köçürülməsi bilavasitə çar Rusiyasının hakim dairələrinin himayəsində həyata keçirilmiş və bu proses ilk növbədə çarizmin müstəmləkəçilik siyasətinə xidmət etmişdir. 1918-20-ci illərdə ermənilərin azərbaycanlılara qarşı soyqırım siyasətini və ermənilərə Qərbi Azərbaycan torpaqları hesabına qondarma dövlət yaradılması ideyasını I Dünya müharibəsində qalib gəlmiş Qərb dövlətləri, xüsusilə İngiltərə fəal və konkret yardımı ilə dəstəkləyirdi. Çarizmin süqutundan sonra isə sovet Rusiyası nəinki özünün siyasi düşməni olan daşnak dövlətinə qarşı çıxdı, əksinə, daşnak rejimi ilə 1918-20-ci illərdə imzaladığı üç müqavilədə digər Azərbaycan torpaqlarını, xüsusən Zəngəzuru və Naxçıvanı da qondarma erməni dövlətinin tərkib hissəsi kimi tanıdığını bildirdi. Naxçıvanı Azərbaycandan qoparmaq mümkün olmasa da, təəssüf ki, əhalisinin çox hissəsi ermənilərin qanlı cinayətləri nəticəsində məhv olan və qaçqın düşən Zəngəzur erməni işğalı altına düşdü. 1923-cü il iyulun 7-də isə sovet dövlətinin fəal dəstəyi ilə tarixi Qarabağ regionunun bir hissəsində o zamanadək tarixdə heç vaxt mövcud olmayan saxta bir coğrafi ad – "Dağlıq Qarabağ" adı altında ermənilərə inzibati-siyasi muxtariyyət verildi. Yəni XX əsrin əvvəllərində ermənilərə öz mənfur planlarını həyata keçirməkdə fəal şəkildə yardım edən dövlətlər Rusiya (istər çarizm, istərsə də sovet), İngiltərə və ABŞ kimi "böyük güc"lər olmuşdur.

- Elman müəllim, XX əsrin əvvəllərində və ortalarında olduğu kimi, əsrin sonlarında da ermənilər deportasiya siyasətini davam etdirdilər və Qərbi Azərbaycandan yüz minlərlə həmvətənimiz qaçqın düşdü. 1987-ci ildə başlayan bu proses zamanı deportasiyadan əziyyət çəkən minlərlə həmvətənimiz Naxçıvanın hansı bölgələrində məskunlaşıblar?

– Qeyd etdiyiniz kimi, 1987-ci ilin sonlarından azərbaycanlıların Qərbi Azərbaycandan növbəti deportasiyası başlandı və bu proses 1991-ci il avqustun 8-də Zəngəzur mahalının sonuncu azərbaycanlı kəndi olan Nüvədi kəndinin əhalisinin qovulmasınadək davam etdi. Bu müddət ərzində öz ata-baba torpaqlarından zorla qovulan soydaşlarımız Azərbaycanın müxtəlif bölgələrinə, rayon, şəhər, qəsəbə və kəndlərinə səpələndi. O zamankı Azərbaycan rəhbərliyinin antimilli mövqeyi azərbaycanlı qaçqınların məskunlaşdırılması prosesində də ağıllı, düşünülmüş siyasətin həyata keçirilməsinə imkan vermədi. Nəticədə ayrı-ayrı şəhər və kəndlərdə müəyyən dərəcədə kompakt məskunlaşma olsa da, qaçqın soydaşlarımız əslində ölkəmizin bütün ərazisi boyunca səpələndilər, amma bu sahədə əsas yük, heç şübhəsiz ki, paytaxt Bakının öhdəsinə düşdü. Naxçıvana gəldikdə isə, muxtar respublika ərazisinə pənah gətirən həmvətənlərimiz daha çox bu bölgədə yaşayan azsaylı ermənilərin yaranmış şəraitdə könüllü şəkildə köçüb getdikləri bir neçə kənddə boş qalmış evlərdə, Naxçıvan şəhərində və qismən də ayrı-ayrı rayon mərkəzləri və kəndlərdə məskunlaşdılar. Qeyd edim ki, həmin dövrdə, ümumiyyətlə isə, Naxçıvan bölgəsində ermənilərin XIX əsrdəki köçürülmələrdən sonra qismən kompakt şəkildə yaşadığı üç-beş kənd olsa da, sırf "erməni kəndi" adlandırıla biləcək yaşayış məntəqələri olmamışdır. Bu baxımdan, Naxçıvana pənah gətirən qaçqın soydaşlarımızın da kompakt şəkildə məskunlaşdırılması prosesi bu amilə adekvat olmuşdur.

- Elman müəllim, tarixi qələbəmizlə başa çatan Vətən müharibəsindən sonra regionda yeni reallıqlar yaratmışıq. Onlardan biri də işğaldan azad olunmuş ərazilərlə yanaşı, Zəngəzura, Qərbi Azərbaycana qayıdış planlarlı ilə bağlıdır. Sözü və imzası bir olan Müzəffər Ali baş Komandanımızın rəhbərliyi altında Zəngilanın ağıllı kənd layihəsi əsasında yenidən qurulan Ağalı kəndinə qayıdışla başlayan böyük qayıdış prosesi qərbi azərbaycanlılara hansı vədləri, ümidləri verir?

– 2020-ci ilədək bir çoxları Azərbaycanın işğal olunmuş əraziləri ətrafında 30 il müddətində yaranıb "daşlaşmış" problemin həllinin ən azı yaxın perspektivdə həllinin mümkünlüyünə böyük şübhə ilə yanaşır və inanmırdı. Lakin 1994-cü il mayın 12-də imzalanmış atəşkəs razılaşmasından sonra münaqişə zaman-zaman qızışsa da, cəbhə bölgəsində yaranmış nisbi sabitlikdən ölkəmiz məqsədəmüvafiq şəkildə istifadə etdi. Azərbaycan dövlətçiliyi möhkəmləndirildi, sosial-iqtisadi yüksəlişə nail olundu, milli ordu quruculuğu uğurla aparıldı, müdafiə sənayesi yaradıldı, xalqımızda mənəvi-psixoloji əhval-ruhiyyə yüksəldi. 2016-cı ilin aprel döyüşləri və nəticədə 2 min hektar, 2018-ci ilin iyununda Şərur rayonunun Günnüt kəndinin və ətraf 11 min hektarlıq ərazisinin ordumuz tərəfindən azad edilməsi əslində İkinci Qarabağ müharibəsinin yaxınlaşdığından xəbər verirdi. 2020-ci ilin iyulunda ermənilərin Tərtərə hücumu və sentyabrdakı kəşfiyyatçı təxribatı həlledici Vətən müharibəsinin başlanması üçün xalqımızın və dövlətimizin səbrini daşıran son hadisələr oldu. Nəticədə bütün xalqımız və dövlətimiz bir yumruq kimi birləşərək, torpaqlarımızı azad etdi və Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olundu.2023-cü ilin sentyabr ayındakı antiterror əməliyyatından sonra isə dövlət suverenliyimiz bərpa edildi, bayrağımız bütün Qarabağa sancıldı. Başqa sözlə, həm Ümummilli Liderimiz Heydər Əliyevin, həm də Azərbaycan Prezidenti İlham Əliyevin torpaqlarımızın azad ediləcəyi ilə bağlı verdiyi vəd yüksək iradənin təntənəsi olaraq həyata keçirildi.

Artıq işğaldan azad edilmiş ərazilərə həyat qayıdır. Bu baxımdan 2022-ci ilin iyulunda məskunlaşdırılmağa başlayan Zəngilanın Ağalı kəndinə yeni yaşayış məntəqəsi – Tərtərin Talış kəndi də qoşulub və əhalimizin öz yaşayış yerlərinə qayıtması üçün daha bir neçə kənddə yaşayış evlərinin və infrastrukturun inşası işlərinə başlanılıb. Başqa sözlə, cəmi 3 il əvvəl bir çoxlarımıza xəyal kimi görünən proses bu gün həyatımızın qürur doğuran gerçəkliyidir. Bütün bunlar dövlətimizin, Prezident İlham Əliyevin uzaqgörən siyasəti, milli iradənin təmsilçisi kimi qətiyyətli fəaliyyəti nəticəsində baş verir. Hələ Vətən müharibəsinin başlandığı ilk günlərdə, 2020-ci il oktyabrın 8-də möhtərəm Prezidentimiz tvitter sosial şəbəkəsində "Bizim sözümüz imzamız qədər keçərlidir", – yazmışdı. Yəni bir tərəfdən verdiyi bütün vədləri yerinə yetirməsi, digər tərəfdən yalnız müstəqillik dövrünün deyil, deyərdim ki, son yüzillikdəki ən böyük dövlətçilik problemimiz olan ərazi bütövlüyü məsələsinin uğurlu həlli, qarabağlı həmvətənlərimizin minalardan təmizlənmiş ərazilərdəki yaşayış məntəqələrinə tədricən köçürülməsi prosesinin başlanması qərbi azərbaycanlı soydaşlarımızın da tarixi torpaqlarımıza dönüşünün reallaşacağı ilə bağlı ümidlərin yalnız ümid olaraq qalmayacağından xəbər verir. Bunu şərtləndirən digər amil isə, cənab İlham Əliyevin Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikasını birləşdirəcək Zəngəzur dəhlizinin açılması məsələsindəki qətiyyətli mövqeyidir. Ölkəmizə 20 illik rəhbərliyi dövründə fəaliyyətinin bütün istiqamətlərində sözü imzası qədər dəyərli, praqmatik və realist dövlət başçısı və siyasətçi, görkəmli diplomat, böyük strateq və sərkərdə kimi dəfələrlə özünü təsdiqləmiş Azərbaycan Prezidenti İlham Əliyevin Qərbi Azərbaycan Qayıdış Konsepsiyasını da eyni uğurla həyata keçirəcəyinə xalqımızda bir əminlik var.

Qeyd edək ki, bu əminliyə artıq ciddi zəmin vardır. Belə ki, 2023-cü il yanvarında Qərbi Azərbaycan İcmasının əvvəlcə beynəlxalq ictimaiyyətə müraciəti BMT sənədi kimi yayılmış, bu mart ayında isə BMT katibliyi Qərbi Azərbaycan İcmasının Qayıdış Konsepsiyasını BMT Təhlükəsizlik Şurasının, Baş Assambleyasının və İqtisadi və Sosial Şurasının rəsmi sənədi kimi yaymışdır. Qayıdış Konsepsiyasının BMT-nin əsas orqanlarının sənədləri kimi yayılması qərbi azərbaycanlıların dinc şəkildə öz doğma torpaqlarına qayıtması istiqamətində ciddi uğurdur. Tamamilə sülhpərvər və beynəlxalq hüquq normalarına uyğun Qayıdış Konsepsiyasının BMT-də rəsmi sənəd kimi yayılması Qərbi Azərbaycan məsələsinin ermənilər tərəfindən təhrif edilməsi imkanlarını daha da azaldır, bu ölkəni bir növ Qərbi Azərbaycan İcması ilə danışıqlara başlamağa çağırır və mövzuya müvafiq beynəlxalq prosesin başlanmasını təşviq edir.

Bunu da qeyd edək ki, indiki Ermənistan ərazisindən qovulmuş soydaşlarımızın sülh yolu ilə, təhlükəsiz və ləyaqətli şəkildə geri qayıtma hüququnun təmin edilməsi, qayıdışdan sonra onların fərdi və kollektiv hüquqlarının, o cümlədən, mülkiyyət hüquqlarının, mədəni-tarixi irsinin bərpası və qorunması məsələlərini əhatə edən Qayıdış Konsepsiyası BMT-nin bütün rəsmi dillərində adıçəkilən əsas orqanların gündəliyinin silahlı münaqişələrin qarşısının alınması, sülh quruculuğu, qaçqınların hüquqlarının qorunması, irqi ayrı-seçkiliyin aradan qaldırılması, insan hüquqlarının təşviq olunması, soyqırımının, etnik təmizləmənin və insanlığa qarşı cinayətlərin qarşısının alınmasına dair bəndləri altında yayılıb. Bu isə, azərbaycanlıların öz evlərinə qayıtmasının təməl insan hüquqlarının qorunması, beynəlxalq sülhün, təhlükəsizliyin və əməkdaşlığın bərqərar olması üçün zəruri olmasının beynəlxalq müstəvidə təsdiqidir.

–Suallarımızı ətraflı cavablandırdığınız üçün sağ olun!

Muxtar RZAZADƏ

Naxçıvan Dövlət Universitetinin magistrantı


QƏRBİ AZƏRBAYCANLA BAĞLI EKSPONATLAR VƏ ƏL İŞLƏRİNDƏN İBARƏT SƏRGİ














Baş redaktor:
ŞƏHLA ŞİRƏLİYEVA
shshahla36@gmail.com

Ünvan: AZ 7012,
Naxçıvan şəhəri,
Universitet şəhərciyi
Telefonlar:
544-08-61 (13-60)
yenifikir.ndu@gmail.com

Qeydiyyat №330
Sifariş №
Tiraj 300


DİZAYNER:
Nardanə ƏLİYEVA
"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində ofset üsulu ilə çap olunmuşdur.

Görkəmli dövlət xadimləri və şəxsiyyətlərin Ümummilli Lider Heydər Əliyev haqqında fikirləri













Bu yazı dünyanın tanınmış şəxsiyyətlərinin ulu öndər Heydər Əliyev haqqında vaxtilə dedikləri fikirlərdən seçilib. Heydər Əliyev doğrudan da dünya miqyasında böyüklüyü etiraf edilən və qəbul olunan şəxsiyyət idi. XX əsrin 90-cı illərində – Azərbaycanın beynəlxalq arenaya müstəqil dövlət kimi çıxdığı ilk vaxtlarda ölkəmizi Heydər Əliyevə görə tanıyırdılar. Onun parlaq dühası və iti zəkası sərhəd tanımır, Azərbaycanın hüdudlarını aşırdı. Çoxları bizə qibtə edirdi ki, Heydər Əliyev kimi liderimiz var. Azərbaycan dünya miqyasında layiq olduğu mərtəbəyə məhz Ulu Öndərinin uzaqgörənliyi, müdrikliyi, qətiyyəti, dəmir iradəsi, zəngin dövlətçilik təcrübəsi sayəsində yüksələ bilib. Xatırlatmaq yerinə düşər ki, O, Sovet İttifaqı kimi nəhəng bir dövlətdə yüksək vəzifədə – SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində işləmişdi.

Heydər Əliyev haqqında kimlər söz deməyib: Müasiri olan dünya liderləri, tanınmış dövlət adamları və siyasi xadimlər, məşhur yazıçılar... Onların dediklərinə nəzər salarkən qəlbimizdə bir daha qürur və iftixar hissləri baş qaldırır, Heydər Əliyev şəxsiyyətinin nəhəngliyi yenidən göz önündə canlanır. Azərbaycan xalqının Ulu Öndərinə verilən bu yüksək qiymətin əsasında təkcə öz Vətəni və xalqı üçün gördüyü işlər deyil, zəmanəsinin çağırışlarına çevik reaksiyası, bəşəri idealları, dünyada dostluğa, sülh və tərəqqiyə verdiyi töhfələr dayanır.

"AZƏRTAC"a istinadən Ulu Öndərin anadan olmasının 100-cü ildönümündə dahi şəxsiyyət haqqında deyilən fikirləri təqdim edirik.

Mənim Heydər Əliyevə böyük sevgim, hörmətim və ehtiramım vardır. Bunun kökündə onun insani xüsusiyyətləri, Azərbaycan millətinə, xalqına xidmətləri, Azərbaycan dövləti, müstəqilliyi naminə gördüyü işlər durur. Mənim tanıdığım Heydər Əliyev Azərbaycan vətənpərvəridir, bir o qədər də türk vətənpərvəridir.

Azərbaycanda nə varsa, hamısı Heydər Əliyevin xidməti sayəsində yaradılmışdır. Hörmətli Heydər Əliyevin Azərbaycana gətirdiyi ən önəmli məsələlərdən biri də möhkəm sabitlikdir. Atəşkəsə nail olunaraq, ölkənin digər işləri ilə məşğul olmaq imkanı yaradıldı. Daxili sabitlik bərqərar edildi, iqtisadi inkişaf, quruculuq işləri başlandı.

Hörmətli Heydər Əliyevin gördüyü ən böyük işlərdən biri məhz bu ölkədə sabitliyin, asayişin bərqərar olunmasıdır. Bu, asan iş deyildi. Heydər Əliyevə qarşı sui-qəsdlər hazırlanırdı. Ancaq Azərbaycan xalqı üçün, mənim qardaşlarım üçün ən vacib olanı müstəqil dövlətin yüksələn bayrağıdır. Yüksələn bayraq enməz! Azərbaycanın müstəqilliyi güclüdür, əbədidir.

Türkiyənin IX Prezidenti Süleyman Dəmirəl

Dünyada tanınmış görkəmli dövlət xadimi Heydər Əliyevin şəksiz liderliyinə, cəsarətinə, misilsiz dünyagörüşünə və nadir natiqlik istedadına valehəm.

ABŞ-ın sabiq Prezidenti Corc Buş

Heydər Əliyev təkcə Azərbaycanda deyil, bütün türk dünyasında tanınan və sevilən lider idi. Türkiyə-Azərbaycan dostluğunu çox gözəl ifadə edən ***"Bir millət, iki dövlət"*** ifadəsi də ona məxsusdur. Biz çalışmalıyıq ki, bu hikmətanə deyimin ifadə etdiyi amal bundan sonra da davam etsin. Böyük Heydər Əliyevin ruhu şad olsun deyə biz türk dünyasının birliyini və qardaşlıq münasibətlərini qoruyub möhkəmləndirməyə çalışmalıyıq.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan

Heydər Əliyev, həqiqətən, Rusiyanın böyük dostu idi, biz bunu hiss edirdik və çox qiymətləndiririk. Azərbaycan bütün bu illər ərzində MDB-nin az-az ölkələrindən biri idi ki, orada rusdilli məktəblər bağlanmamış, rusdilli nəşrlərin sayı nəinki azalmamış, hətta Sovet İttifaqı dövründəkindən də çox olmuşdur.

O, böyük dövlət xadimi idi. Mübaliğəsiz demək olar ki, siyasi nəhəng idi. Mən ona sadəcə böyük hörmətlə yanaşmırdım, mən ona məhəbbət bəsləyirdim

Rusiya Prezidenti Vladimir Putin.

Demokratiya və bazar iqtisadiyyatı yolu ilə gedən müstəqil dövlət kimi Azərbaycanın son illər möhkəmlənməsində, iqtisadi islahatların aparılmasında və bu işdə böyük uğurlar əldə edilməsində Prezident Heydər Əliyevin xidmətlərini yüksək qiymətləndirirəm...

Prezident Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan müstəqillik yolunda qarşılaşdığı çətinliklərin dəf edilməsində böyük müvəffəqiyyətə nail olmuşdur.

Bill Klinton (Heydər Əliyevə müraciətlə): Cənab Prezident, Siz bizə çox lazımsınız. Qafqazda və Mərkəzi Asiya regionunda sülhün və sabitliyin bərqərar olunmasında Sizin xidmətlərinizi yüksək qiymətləndiririk. Sizin liderliyiniz və güclü qətiyyətiniz sayəsində Xəzərin zəngin ehtiyatlarının dünya bazarlarına alternativ yollarla ixrac olunması region dövlətlərinin müstəqilliyinin möhkəmləndirilməsində əhəmiyyətli rol oynayacaqdır.

ABŞ-ın sabiq Prezidenti Bill Klinton

Bu qeyri-adi şəxsiyyət Azərbaycanı tərəqqi yoluna gətirib çıxarmışdır. Müxtəlif görüşlərimiz zamanı, xüsusilə Dağlıq Qarabağ münaqişəsi ətrafında müzakirələr apararkən münaqişənin sülh yolu ilə həllində onun göstərdiyi cəsarəti, müdrikliyi və qətiyyəti yüksək qiymətləndirdim.

...Azərbaycanın bəxti onda gətirib ki, bu ölkəyə Prezident Heydər Əliyev kimi böyük siyasi iradəyə, zəngin dövlətçilik təcrübəsinə malik, müdrik, uzaqgörən və nüfuzlu dövlət xadimi rəhbərlik edir.

Fransanın sabiq Prezidenti Jak Şirak

Heydər Əliyev kimi görkəmli dövlət xadimi ilə görüşüb danışıqlar aparmaq böyük şərəfdir. Böyük Britaniya Azərbaycan Respublikası ilə, Prezident Heydər Əliyevlə əlaqələrin daha da sıxlaşdırılmasına xüsusi əhəmiyyət verir. Biz Azərbaycanı və Prezident Heydər Əliyevi özümüzün strateji müttəfiqimiz hesab edirik. Son beş ildə Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu sahəsində Prezident Heydər Əliyevin müdrik rəhbərliyi ilə görülən işlər Britaniya hökuməti tərəfindən diqqətlə izlənilir və alqışlanır.

Böyük Britaniyanın sabiq Baş naziri Toni Bleyer

Heydər Əliyev mənim yaxın dostum və ən çox hörmət etdiyim bir siyasətçi idi. Heydər Əliyev həm MDB ölkələri, həm də öz xalqı üçün çox işlər görmüşdür. Onun öz xalqı qarşısında xidmətlərinin əsl qiymətini gələcək nəsillər verəcəkdir. Əziz və unudulmaz dostum haqqında keçmiş zamanda danışmaq mənim üçün çox ağrılı olsa da, deməliyəm ki, Heydər Əliyev son nəfəsinə qədər öz xalqının rifahı üçün çalışmışdır.

Qazaxıstanın sabiq Prezidenti Nursultan Nazarbayev

Heydər Əliyev həqiqətən də tarixi, hətta əfsanəvi bir şəxsiyyətdir. Bu, sovet dövründə də belə idi, bugünkü MDB məkanında da, xeyli çətinləşmiş müasir dünya şəraitində də belədir. Heydər Əliyev hər zaman xalqının xidmətində olmuşdur.

Heydər Əliyev onun yaşıdlarının və hətta ondan cavan olan bir çox siyasi xadimin bacarmadığı xüsusiyyəti – müasir dövrün ən aktual çağırışlarına hazır olmağı nümayiş etdirə bilmişdir. Məhz Heydər Əliyevin zəngin siyasi təcrübəsinin və humanitar dünyagörüşünün genişliyi nəticəsində indi Azərbaycanda sabitlik, tolerantlıq, mədəniyyət, maarifçilik hökm sürməkdədir. Bütün bunlar isə Azərbaycan dövlətinin müasir inkişafını və tərəqqisini təmin edəcək əsas amillərdir.

Heydər Əlirza oğlu XX əsrin ən böyük liderlərindədir. O, müasir demokratik Avrasiyanın yeni tarixinin bugünkü qurucularından biridir.

Məşhur qırğız yazıçısı Çingiz Aytmatov

Qafqazın müstəqilliyi və azadlığı işində Heydər Əliyev fenomeninin indinin özündə nə qədər böyük rol oynadığını xalq hələ sonra biləcək.

Heydər Əliyev dünya qarşısında xidmətlərinə görə beynəlxalq aləmdə tanınmış siyasət və dövlət xadimi kimi, Gürcüstanın və gürcü xalqının dostu kimi bizə əziz və doğmadır. Qəzetlərimizin "polad iradəli Əliyev" yazdığı kimi, o, həqiqətən də polad iradəyə malik nadir şəxsiyyətdir. Məhz onun cəsarəti sayəsində Azərbaycan güclü, müstəqil, firavan bir ölkəyə çevrilməkdədir. Heydər Əliyev siyasət meydanına Azərbaycanın ağır, mürəkkəb vaxtında yenidən gəlmişdir, bir çox çətinliklərə sinə gərərək, Azərbaycanı böhranlı vəziyyətdən xilas etmişdir.

Azərbaycan xalqının əsl xoşbəxtliyi ondan ibarətdir ki, xalqın, dövlətin ən çətin, böhranlı vaxtında görkəmli siyasətçi, böyük şəxsiyyət cənab Heydər Əliyev məsuliyyəti öz üzərinə götürmüşdür.

Gürcüstanın sabiq Prezidenti Eduard Şevardnadze

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin simasında özümə yaxın dost və sirdaş tapmağımdan məmnunam. Mən Heydər Əliyevə böyük hörmət və ehtiram bəsləyirəm, onun siyasi fəaliyyətini və məharətini, uzaqgörənliyini yüksək qiymətləndirirəm.

BMT-nin sabiq baş katibi Butros-Butros Qali

Azərbaycanın əvəzsiz lideri Heydər Əliyev mənim və Ukrayna xalqının yaxın dostu idi. Bizim dostluq münasibətlərimiz onun sayəsində inkişaf edib möhkəmlənmişdir. Heydər Əliyev dahi insan, müdrik şəxsiyyət idi. Əminəm ki, Azərbaycan xalqı Heydər Əliyevin böyüklüyünü hələ bundan sonra daha dərindən dərk edəcək.

Ukraynanın sabiq Prezidenti Leonid Kuçma

***

Bəli, Ulu Öndər Heydər Əliyev nadir şəxsiyyələrdəndir ki, dünyaşöhrətli siyasətçilər onu tanıdı və fenomen lider kimi qəbul etdi.

YOLU VAR OLANLARIN ÖZÜ DAİM VAR OLUR

(Poema)

Düz yüz il bundan əvvəl Naxçıvan torpağında,
Gül-çiçəkli, ətirli gözəl bahar çağında –
Zəhmətkeş ailəsində gözəl bir yaz səhəri
Bir Günəş doğdu Şərqdə, yayıldı şəfəqləri.
Heç kim duymadı o gün, heç kim bilmədi o gün,
Fəda edəcəkdir O, öz ömrünü xalq üçün.
Düşünmədilər də ki, bu balaca ürəkdə
Min arzu böyüyəcək onunla gələcəkdə:
Hər diləyi Vətənlə bağlı olan arzular,
Azərbaycan eşqiylə qəlbə dolan arzular...
Böyüdükcə səbrlə, təmkinlə düşünəcək,
İçindəki arzular gerçək olacaq, gerçək.
Onun baxışlarında azadlıq rəngi vardı,
Səsində sərkərdəlik hökmü, ahəngi vardı.
Boy-buxunu, duruşu əzəmət heykəliydi,
Dostlarıyla mehriban, düşmənə öfkəliydi.
Onun bir sərt baxışı düşmənə bəs eylərdi,
Verdiyi hər qərarlar dünyada səs eylərdi.
Elə bu amalla da hər zaman oxuyurdu,
Gecə-gündüz bilmirdi, durmadan oxuyurdu.
Məktəbdə əlaçıydı, dərslərdə əlaçıydı,
Hər zaman əlaçıydı, hər yerdə əlaçıydı.
Bir kimsə dara düşsə, ona kömək edərdi,
Heç bir işdən çəkinməz, hər vaxt öndə gedərdi.
Bütün bu keyfiyyətlər incə və nəcib idi,
Hər sahəni öyrənmək onunçün vacib idi.
Zamansa dayanmırdı: ömür ötürdü bir-bir,
Günlər arxada qalır: illər itirdi bir-bir.
Amma hələ gəncikən vaxtla bir addımlayan,
Çox vaxt irəli gedib zamanı qabaqlayan,
Bu insan bir anını keçirmirdi boşuna,
Ağsaqqallıq edirdi öz cavanlıq yaşına.
Onu əyləncələr yox, Vətən düşündürürdü,
Vətən ilə yatırdı, Vətən ilə dururdu.
Elə bu məqsədlə də yetişdirdi özünü,
Gələcəkdə dünyaya demək üçün sözünü.
Gün-gündən tanıdırdı xalqına kimliyini,
Doğma Azərbaycanın təhlükəsizliyini.
Hər şeydən üstün tutub könül verdi bu işə,
Vətən üçün atıldı dünya ilə döyüşə.
Gənc yaşında gücünü, qüdrətini görənlər,
Onu təyin etdilər Azərbaycana rəhbər.
Dayanmadı, durmadı, gecə-gündüz çalışdı,
Yuxusuz gecələrdə çox dərdlərə alışdı.
Hamını sevindirdi onun rəhbər gəlişi,
Başladı Vətənimin o gündən yüksəlişi.
Hansı sahəyə baxsan, çiçəkləndi, canlandı,
İşləyən tərif aldı, işləməyən danlandı.
Zavodlar işə düşdü, fabriklər işə düşdü,
Gözü götürməyənlər yaman təşvişə düşdü.
Sovetlər məkanında sonlarda olan ölkə,
Hər gün inkişaf edir, addımlayırdı ilkə.
Azərbaycan oğlunun gördüyü böyük işlər,
Qol çəkdiyi qərarlar, keçirdiyi görüşlər
Ölkəsinin adını yüksəklərə qaldırdı,
Bu da xalqın qəlbində onu çox ucaldırdı.
Öz xalqının qəlbində taxt qura bilirsənsə,
Daim hörmət görürsən, daim sevilirsənsə,
Tanrı da sevir səni, qamətini dik edir,
Nüfuzunu artırır, daha da böyük edir.
Elə belə də oldu – çağrıldı Moskvaya,
Kremlidə üzv oldu O, Siyasi Büroya.
Orda da sözü keçdi, hörməti artdı hər gün,
Orda da çalışırdı hər zaman xalqı üçün.
Amma marığa yatan "insanlar" da çoxuydu,
Ağlından başqa onun bir dayağı yoxuydu.
Ağlına söykənərək qoruyurdu özünü,
Əməliylə şəst ilə deyirdi öz sözünü.
Uğurları artdıqca düşmənlər də artırdı,



O, göylərə qalxdıqca ayağından dartıldı.
Güc gələ bilmirdilər, qorxurdular zəhmindən,
Çəkinirdilər onun qeyri-adi fəhmindən.
Bununla belə, yenə daş atırdılar ona,
Üz-üzə gələndəsə girirdilər min dona.
Hiyləylə, xainliklə istəkləri "çin" oldu,
"Arzuları göyərdi", "diləkləri çin oldu".
Bu böyük şəxsiyyəti yox etmək istədilər,
Lakin bir həqiqəti anlaya bilmədilər –
Böyüklük irsi olur, dahilik Tanrı işi,
Çox uzun çəkmir heç vaxt belələrin vərdişi.
Zaman yerbəyer edir yaxşını da, pisi də,
Tarix qovur özündən dumanı da, sisi də.
Səliqəylə, apaydın yazılır tarix bir-bir,
Göstərir gələcəyə nadan kim, dahi kimdir.
Bu insanın gedişi laxlatdı Kremlini,
Onun ağlı idarə edirmiş SSRİ-ni.

* * *


İşdən çıxarılsa da, düşünürdü xalqını,
Müdafiə edirdi öz xalqının haqqını.
Çox uzaq tarix deyil, ötən əsrin sonları
Azadlıq istəyəndə ölkəmin insanları
Quduzlaşmış bir ordu tankıyla, tüfəngiylə
Üstümüzə gələndə bu xalq da öz cəngiylə
İçindəki inamla atılırdı qabağa,
Vətəni çıxarmaqçün işıqlı bir sabaha.
Yüzlərlə şəhid verib qana boyandıq o gün,
Namərdin qarşısında mərdcə dayandıq o gün.
Öldük, amma ölümlə bir azadlıq diriltdik,
"Haqq nazilər, üzülməz", bunu yaxşı bilirdik.
Gözümüzü qorxutmaq istədilər, olmadı,
Bu xalq qanla dikəldi, qanında boğulmadı.
Həmin İyirmi yanvar – qanlı şənbə sabahı,
– Yerdə qalmaz heç zaman mənim xalqımın ahı, –
Deyib, durdu ayağa xalqın müdrik insanı,
Sözləriylə titrətdi bütün ərzi-cahanı.
Hər gün, hər saat, hər an onu izləyirdilər,
Onu susdurub rahat olmaq istəyirdilər.
Ölümlə hədələyir, qorxudurdular guya,
Hər dəfə arzuları düşürdü lilli suya.
O, bütün olanları səbrlə seyr edərək
– Çətin gündə xalqımla birlikdə olam gərək.
Düşünüb qərar verdi: "Bakıya getməliyəm,
Dar günündə xalqıma köməklik etməliyəm".
Bakıya gəldi, fəqət Kremlinin qulları
Bağlamaq istədilər O gəldiyi yolları.

Tanrı sevdiyi kəsi hamı sevir hər zaman,
Bax elə bu məqamda qucaq açdı Naxçıvan.
Naxçıvan onun üçün əyilməz bir dağ idi,
Ana qolları kimi isti bir qucaq idi.
Bu böyük Vətən oğlu gördü, Ana çağırır,
Naxçıvanlılar onu Naxçıvana çağırır.
Gözləmədi, durmadı, gəldi doğma elinə,
Haçadağdan əsən yel sığal çəkdi telinə.
Ürəyi dağa döndü, oğul kimi diz çökdü,
Torpağa səcdə etdi, qucaqlayaraq öpdü.
Bu adi vüsal deyil, böyük sevinc hissiydi,
Qartalın qanad çırpıb zirvəyə dönməsiydi.
İyirmi iki iyul, Naxçıvanın mərkəzi –
Unudulmaz bir görüş sevindirdi hər kəsi.
Görüşə tələsirdi ağsaqqal da, cavan da,
Bayram havası vardı həmin gün Naxçıvanda.
Gözlər sevincdən dolmuş, sinələr qürurdan dağ,
İzdihamlı görüşə gələnlərə baxaraq
Danışırdı o böyük şəxsiyyət həyəcanla,
Alqışlarla nitqini saxlayaraq zamanla
Ümidsiz insanlara ümid vəd eləyirdi,
Başsız başdakıları susmur, hədələyirdi.
Həmin gündən bu torpaq qorxu nədi, bilmədi,
Çətinliklər önündə sınmadı, əyilmədi.
Hamının içindəki ölən inam dirildi,
Bulanıq zəmanədə günlər bir-bir duruldu.
Bir-bir aydınlanırdı, kimin istəyi nədir,
Kimin köməyi kimdir, kimin dəstəyi nədir.
İstirahət vermirdi Naxçıvan öz oğluna,
Çünki ehtiyac vardı onun yüksək ağlına.
Təzədən siyasətə qaytardı övladını,
Təqdim etdi hər kəsə öz yeni deputatını.
Kürsülərdən ucaldı yenə onun gur səsi,
Xalqına xidmət idi bütün sözü, kəlməsi.
Elə buna görə də Naxçıvan camaatı
Sözü bir yerə qoydu: Naxçıvan amanatı...
Öz ali məqamını əmanət etdi ona,
Hər səhər iki Günəş doğurdu Naxçıvana –
Biri göydə gəzərək şəfəqini yayırdı,
Biri yerdə xalqına ömrünü paylayırdı.
Bax beləcə zülmətə qərq olan bir diyarı
Aydınlatdı bir şəxsin düşüncə işıqları.
Naxçıvan ordu qurdu, körpü açdı, yol saldı,
Əsgəri möhkəm durdu, sərhəddə oyaq qaldı.
Üçrəngli bayrağım da Naxçıvanda ucaldı,
Onun hər dalğasından millətim də güc aldı.
Naxçıvana qayıdış qurtuluş xəbəriydi,
Xalqın dövlət olması o günün əsəriydi.
Bu gün ölkəm müstəqil, dünyada söz sahibi –
Kimsəyə boyun əymir, özüdür öz sahibi.
Hər gün artır şöhrəti, hər gün inkişaf edir,
Bu gündən gələcəyə daha inamla gedir.
Bütün bu uğurların memarı odur ancaq,
"Azərbaycan dünyaya Günəş kimi doğacaq".
Beynəlxalq kürsülərdən gəldikcə ötkəm səsi
Qorxusundan düşmənin təngiyir bəd nəfəsi.
Dünyanın hər yerində ucaldı bayraq kimi,
Dünya onu tanıdı millətə dayaq kimi.
O siyasət memarı, dahilik simvoludur,
Bu gün getdiyimiz yol o DAHİnin yoludur.
Adının qabağında nə qədər təyin yazdır,
Onu olduğu kimi anlatmaq üçün azdır.
Yolu var olanların özü daim var olur,
Tarixlə addımlayır – əbədiyaşar olur.
Hər bir vətəndaş üçün qibləgahdır və pirdir–
O, Heydər Əliyevdir,
Ümummilli Liderdir.

Elxan YURDOĞLU

"Heydər Əliyev İli"nə həsr edilən elmi-praktik respublika konfransı

Xarici dillər fakültəsinin İngilis dili və metodika kafedrasının təşkilatçılığı ilə "Heydər Əliyev İli"nə həsr edilən "Dil bacarıqlarının inkişafında yeni texnika və metodların tətbiqi" mövzusunda elmi-praktik konfrans keçirilib.



Konfransda ali təhsil müəssisəsinin rektoru Elbrus İsayev ölkəmizdə görkəmli dövlət xadimi Heydər Əliyevin yüzillik yubileyinə həsr edilən konfransların davamlı xarakter aldığını vurğulayaraq bildirib ki, keçirilən bu konfrans da qarşıya qoyulan tapşırıqları məqsədəuyğun olaraq yerinə yetirəcək. Rektor konfransın dövlətimizin həyata keçirdiyi təhsil konsepsiyasının mühüm tərkib hissələrindən biri olduğunu diqqətə çatdırıb. Qeyd edilib ki, qloballaşan dünyada Azərbaycan təhsilinin dünya təhsil və elm məkanına inteqrasiyası, elmi əməkdaşlıq xarici dillərin öyrənilməsini daha da aktuallaşdırıb. Rektor ali təhsil ocağının bir sıra xarici universitetlərlə həyata keçirilən proqram və layihələrindən bəhs edib, ingilis dili müəllimlərinin son illərdə beynəlxalq konfranslarda, layihələrdə iştirak edərək sertifikatlar əldə etdiklərini vurğulayıb, konfransın işinə uğurlar arzulayıb.

Konfransda fakültənin dekanı, dosent Şirməmməd Qulubəyli, İngilis dili və metodika kafedrasının müdiri Cavid Babayev, tədbirə onlayn qoşulan Azərbaycan Dillər Universitetinin Alman dilinin leksikologiyası və üslubiyyatı kafedrasının dosenti Ulduz Aslanova, NDU-nun İngilis dili və tərcümə kafedrasının müəllimi, dissertant Elçin Mirzəyev və Sinxron tərcümə ixtisası üzrə I kurs magistrant Leyla İsmayılovanın çıxışları dinlənilib. Çıxışlarda bildirilib ki, xarici dilin tədrisi qarşısında daimi olaraq nəyi necə öyrətmək qaydaları ən önəmli məsələlərdəndir. Həmçinin vurğulanıb ki, hər bir müəllim də tədris etdiyi kursun bu suallara nə dərəcədə cavab verdiyini müəyyənləşdirməlidir. Hazırda bu dilin tədrisi zamanı öz fikrini xarici dildə ifadə etmək və xarici dildə olan nitqi başa düşmək kimi iki tələb əsas götürülür. Bu tələblərin irəli sürülməsi bir daha göstərir ki, xarici dillərin tədrisində əldə ediləcək uğurlar əsasən metodika ilə bağlıdır.

Daha sonra konfrans ənənəvi və onlayn olmaqla bölmə iclasları ilə davam edib. Bölmə iclasları zamanı ənənəvi bölmədə 66, onlayn bölmədə isə 26 məruzə dinlənilib.

Məmmədbağır Dünyamalıyev
NDU-nun televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı

DAHİ LİDERİN SƏSLƏNDİRDİYİ MÜDRİK KƏLAMLAR



Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin qüdrətli şəxsiyyəti, tarixə düşən xidmətləri əbədiyaşarlıq qazandığı kimi müdrik kəlamları da hər zaman öz əhəmiyyətini, dəyərini qoruyub saxlamaqdadır. Başqa sözlə xalqımızın böyük oğlunun qiymətli fikirləri həm də bu millətin miraslarından hesab olunur. Hansı ki, bu kəlamlar Azərbaycanın bu gününə və gələcəyinə işıq tutur, bizə dövlətə və dövlətçiliyə, milli-mənəvi dəyərlərə sadiq olmağı, Vətəni sevməyi öyrədir. "Yeni fikir" qəzeti dahi şəxsiyyətin yüzillik yubileyində ulu öndərin dəyərli kəlamlarını təqdim edir:

"Mən həmişə fəxr etmişəm, elə indi də fəxr edirəm ki, mən azərbaycanlıyam!",

***

"Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir"

***

"Xalqla ordunun birliyi həm xalqın qüdrətini artırır, həm də ordunu daha qüvvətli edir"

***

"Şuşa əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir"

***

"Azadlıq və istiqlaliyyət hər bir xalqın milli sərvətidir"

***

"Ədalətsizliklə ədaləti bərpa etmək olmaz"

***

"Öz ana dilini bilməyən adamlar şikəst adamlardır"

***

"Təhsil millətin gələcəyidir"

***

"Xalq həmişə öz ziyalıları, öz mədəniyyəti, öz elmi ilə tanınır".

***

"Həyatını müəllimliyə həsr edən insanlar həqiqətən fədakar, xalqına, millətinə sədaqətli və eyni zamanda qəhrəmanlıq göstərən insanlardır"

***

"Mən Azərbaycanın sadə vətəndaşıyam. Bu addan yüksək ad yoxdur. Ancaq bundan da yüksək ad müəllimlikdir.

***

"İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir"

***

"Tariximizin hər səhifəsi bizim üçün əzizdir"

***

"Tarix heç nəyi silmir"

***

"Vətən müharibəsi bütün xalqın, hər bir vətəndaşın öz şərəf və namusunu qorumaq üçün aparılan müharibədir"

***

"Gərək nəbzin Vətənin nəbzi ilə vursun"

***

"Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcək"

Ulu Öndər Heydər Əliyevin ən çox sevdikləri: 21 sual, 21 cavab...

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevə ünvanlanan 21 suala verdiyi 21 cavabı təqdim edirik:

1. Ən çox sevdiyiniz şeir?
Səməd Vurğunun "Azərbaycan" şeiri.

2. Ən çox sevdiyiniz şair?
Məhəmmədhüseyn Şəhriyar.

3. Ən çox sevdiyiniz mahnı?
Xalq mahnıları və Tofiq Quliyevin mahnıları.


4. Ən çox sevdiyiniz insan?
Zərifə xanım.

5. Ən çox sevdiyiniz bəstəkar?
Üzeyir Hacıbəyov.

6. Ən çox sevdiyiniz pyes?
Cəlil Məmmədquluzadənin "Ölülər"pyesi.

7. Ən çox sevdiyiniz dramaturq?
Hüseyn Cavid.

8. Ən çox sevdiyiniz sənət əsəri?
Səttar Bəhlulzadənin "Muğan gözəlləri".



9. Ən çox sevdiyiniz sənət növü?
Miniatür.

10. Ən çox sevdiyiniz sənətkar?
Ömər Eldarov.

11. Ən çox sevdiyiniz içki?
Çay, səhərlər südlə.

12. Ən çox sevdiyiniz gül?
Qızılgül.

13. Ən cox sevdiyiniz rəng?
Zoğalı rəng.

14. Ən çox sevdiyiniz idman növü?
Yüngül atletika və üzgüçülük.

15. Ən çox sevdiyiniz insani xüsusiyyət?
Mərdlik.

16. Ən çox sevdiyiniz şəhər?
Bakı.

17. Ən çox sevdiyiniz mövsüm?
Yaz.

18. Ən çox sevdiyiniz qələm növü?
Mürəkkəblə yazan qələm.

19. Ən çox sevdiyiniz rəqəm?
7
20. Ən çox sevdiyiniz bayram?
Novruz bayramı.

21. Ən çox sevdiyiniz jurnal?

"Molla Nəsrəddin".

Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş bədii qiraət müsabiqəsi qalibləri mükafatlandırılıb

Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş Naxçıvan Dövlət Universiteti Elmi Kitabxanası və Tələbə Həmkarlar İttifaqı Komitəsinin təşkilatçılığı ilə "Mən fəxr edirəm ki, azərbaycanlıyam!" adlı bədii qiraət müsabiqəsi qaliblərinin mükafatlandırılması mərasimi təşkil edilib.

NDU Elmi Kitabxanasında təşkil olunmuş tədbiri giriş sözü ilə açan ali təhsil müəssisəsinin rektoru Elbrus İsayev azərbaycançılıq ideologiyasının banisi, ümummilli lider Heydər Əliyevin dilimizə, ədəbiyyatımıza, milli-mənəvi dəyərlərimizə göstərdiyi diqqət və qayğıdan bəhs edib. Natiq bədii qiraət müsabiqəsinin "Heydər Əliyev İli" çərçivəsində təşkil olunmasının önəmindən danışıb.

Daha sonra "Teatr və mədəniyyətşünaslıq" kafedrasının müdiri, Əməkdar mədəniyyət işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Gülxarə Əhmədova, "Jurnalistika və xarici ölkələr ədəbiyyatı" kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Şəhla Şirəliyeva, "Azərbaycan dili və ədəbiyyatı" kafedrasının dosenti Xanəli Kərimli və şairə Təranə Əliyevanın iştirak etdiyi münsiflər heyətinin yekun qərarına əsasən elan olunmuş qaliblərin mükafatlandırılması mərasimi keçirilib. Qeyd edək ki, müsabiqənin qiymətləndirilməsində səhnə mədəniyyəti, intonasiya, şeirləri əzbər təqdim etmək, mövzu uyğunluğu, tələffüz kimi amillər nəzərə alınıb.

Yekun olaraq, I yerin qalibi Zəlimxan Yaqubun "Qalibiyyət qatarı" şeirinin qiraətçisi Aktyor ifaçılığının tarixi və nəzəriyyəsi ixtisası üzrə I kurs magistrant Hümbətova Turanxanım, II yerin qalibləri Asim Yadigarın "Bir nurlu heykəl yarat" şeirinin qiraətçisi tibb ixtisası üzrə I kurs tələbəsi Akif Əliyev, Zəlimxan Yaqubun "Azərbaycanlıyam" şeirinin qiraətçisi Aktyor sənəti ixtisası üzrə II kurs tələbəsi Ramal Mansırlı, III yerin qalibləri Məhəmmədhüseyn Şəhriyarın "Azərbaycan" şeirinin qiraətçisi, Jurnalistika ixtisasının I kurs tələbəsi Rafiq Təhməzov və Turqay Tanülkünün "Heydər Əliyev 100" şeirinin qiraətçisi, Azərbaycan dili və ədəbiyyatı ixtisası üzrə I kurs tələbəsi Tülay Babayeva diplom və hədiyyələrlə, digər iştirakçılar isə sertifikatla təltif olunub.

Sonda I yerin qalibi Aktyor ifaçılığının tarixi və nəzəriyyəsi ixtisası üzrə I kurs magistrant Turanxanım Hümbətovanın ifasında Zəlimxan Yaqubun "Qalibiyyət qatarı" şeiri dinlənilib.